RAMİZ BABAYEV

Ömrün payız çağında

Naxçıvan - 2025

Redaktoru: **Rövşən Hüseynov**
Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, jurnalist

Ramiz Babayev, Ömrün payız çağında. *Naxçıvan-2025 "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 328 səh.*

4700000000
053-2025

© "Əcəmi" 2025

ÖN SÖZ

Əziz dostum və tələbə yoldaşım Ramiz Babayevin yeni kitabı çapa hazırladığını digər bir tələbə dostumuz, Azərbaycan Respublikasınını Əməkdar mədəniyyət işçisi Rövşən Hüseynovdan eşidəndə yadıma bir neçə il əvvəl Ramizin işıq üzü görmüş kitabından birinə yazdığım resenziya düşdü: Bu şeirdə müasir gəncliyin eşq, məhəbbət, Sara kimi deyil, adi münasibət göstərmələrinə müəllif çox səmimi şəkildə etiramı ifadə edirdi.

Çayların suları çoxdan azalıb,
Sellər neçə ildir dönüb mataha.
Çoxlu Xançobanlar Sarasız qalıb,
Sellər Saraları aparmır daha.

Və yoldaşlarımız arasında bu barədə yüngülvari mübahisələr də olmuşdu ki, Ramiz bugünki gəncliyi düzgün dəyərləndirmir. Bütün hallarda mən Ramizlə indi də həmfikirəm.... Bu bir başqa mövzudur.

Mətləbə keçərək onu deyim ki çap olunacaq kitab redaktə üçün əlyazma şəklində mənə təqdim olunanda bu yeni nəşrə Rövşən Hüseynovun ön söz yazdığını gördüm. Şeir xiridari olan dostumun məndən qabağa düşdüyünə sevindim. Çünki o, yazdığı ön sözdə Ramizin yaradıcılığını olduğu kimi təhlilə cəlb edə bilib. Ona görə də mən Ramizsevərlərin vaxtını almadan onun sevilən şeirləri haqqında bir neçə söz demək qərarına gəldim.

Öncə Ramizi yeni kitabı münasibətilə təbrik edir yaşının bu çağında öz əbədi mövzularına sadiq qaldığı

üçün minnətdarlığımı bildirirəm. Ulu Öndər Heydər Əliyevin obrazını, müstəqilliyimizin ərazi bütövlüyümüz uğrunda öz canından keçərək şəhidılik zirvəsinə ucalan eloğullarımızı, doğma Naxçıvanımızın şərəfli tarixini, bu gününü vəsf edib. özünəməxsus ifadə tərzi ilə bədiləşdirilib.

Ramizi yaradıcılığı boyu bütün oxucuları məhəbbət şairi kimi tanıyıblar; həqiqətdə də bu belədir. Hələ gənclik illərindən bu mövzu onun şeirlərinin mayasına çevrilib. Həmin könül pıçıltılarında Ramiz səmimidir; bəzən küskünləşən anları da olur; qəzəblənir də.

Sənin gözlərində gizlənib gözüm,
Çıxara bilməzsən, ata bilməzsən.
Məni yuxu kimi çıxartma yaddan,
Axtara bilməzsən, tapa bilməzsən.

Ancaq ümumi halda Ramiz bütün məhəbbət şeirlərində özüdür; özünün məninə sadiqdir.

Unut bu sevdanı, çıxar yadından,
Daha o günlərə dönənmərik biz.
Bir çılğın, dəlisov quş qanadında,
Düşüb dəryalara itib sevgimiz.

O da vurğulanmalıdır ki, Ramiz didaktikadan uzaqdır, kiməsə məsləhət vermir, bugünki gəncliyi bədii sözün sehrinə salır. Bununla məhəbbətin nəyə qadir olduğunu göstərir. Daha dəqiq desək, Ramizin şeirləri məhəbbət ətrinə bürünüb; bu ətir məhəbbət adlı bir dünyanı olduğu kimi dərk edən, onunla yaşayan, yol gedən insanlar daha yaxşı duyurlar, bu ətirdən zövq də alırlar, "qəm dəryasına" da batırlar.

Bil ki, sən nə vaxtsa peşman olassan,
Etiraf edəssən o ilk sevgini.
Nə vaxtsa yanıma qayıdacaqsan,
Ünvanı səhv düşən məktublar kimi.

Şair dostuma bir tövsiyyəni də demək istərdim ki, əgər bundan sonra da qələm götürüb öz iç dünyasını poeziyaya gətirəcəksə (buna şübhəm yoxdur), ümidsiz notlara aludə olmasın. Çünki məhəbbətdir insanı yaşamağa sövq edən məhəbbət ən böyük, ən ülvi hissdir; ədəbiyyatın, konkret olraq poeziyanın ədəbi və əzəli mövzusudur.

Məcnun tək gəzəcəm səhranı, çölü,
Quracam ömrümə bir vüsal gölü.
Məhəbbət yolunda verib bir ömrü,
Dağlarda qar olub donacağam mən,
Bir sevgi nəğməsi yazacağam mən.

Muxtar Məmmədoğlu,
Əməkdar jurnalist,
"Şərq qapısı" qəzetinin müxbiri

ÖMRÜN PAYIZ ÇAĞINDA YAZ DÜŞÜNCƏLƏRİ

Naxçıvan ədəbi mühitinin istedadlı qələm sahiblərindən biri olan şair Ramiz Babayevin imzası artıq bir çox ədəbiyyatsevər, sənətsevər insanlara məlumdur. Xüsusilə yaradıcılığındakı Zəfər tərənnümü ilə diqqət mərkəzinə gələn şairin yaradıcılıq mövzuları olduqca müxtəlifdir: sevgi, el-oba, vətən məhəbbəti, ana dili, söz vurğunluğu, əxlaqi-mənəvi zənginlik və s. Şair yaradıcılığında xalqın ümumi kədəri və qayğılarına qoşulub Vətən torpağının işğalına qəmləndiyi kimi, bir gün qələbənin də əldə ediləcəyinə ümidlərini ifadə etmişdi. Artıq 2020-ci ildə qazanılan möhtəşəm qələbə ilə duyğular yeni coşqu ilə aşıb-daşdığı kimi, ədəbiyyatımız da, şair Ramiz Babayevin yaradıcılıq təbi də bu mövzuda böyük həvəslə yazıb-yaratmağa başladı. Xalqımızın Zəfər təntənəsini dilə gətirən sənətkarlarımızdan biri də məhz Ramiz Babayev idi. "Salam, Şuşa" adlı şeirlər kitabında şairin məhz zəfər duyğuları əks edilən şeirləri toplanmışdı. Şair artıq növbəti bir kitabını ərsəyə gətirmişdir. Bu kitabda hər bir mövzu özünün layiqli yerini tapmışdır. Müxtəlif mövzularda yazılmış şeirlərdən ibarət bu kitab sənətkarın ömrün "payız çağında" ərsəyə gəldiyi üçün də adı "Ömrün payız çağında" adlandırılmışdır.

Şairin nostalji duyğularını poetik ifadə etmiş əsərləri bu kitabda məxsusi yer tutmuşdur. Məhəbbət, həsrət, niskil, ümid, inam, sevgi bu şeirlərin başlıca

mövzusu, mətləbi, duyğularıdır. “Hara aparırsan bu gözəlliyi?”, “Kaş arzular qədər ömrüm olaydı”, “Nağıl imiş bu məhəbbət”, “Əgər məni sevməsən”, “Getmə”, “Qonaq gəl”, “Sənsiz”, “Sənsiz sevgim qocalıbdır”, “Sevgi günahı” və bu kimi şeirlər insanı insan edən, duyğulandıran, ona heysiyyət, hissiyyat, ağrı, sevinc, kədər, xoşbəxtik, bədbəxtlik kimi duyğular verən məhəbbət mövzusunda yazılmışdır. Əlbəttə, sevginin yaşı yoxdur deyiblər. Amma bu şeirlərdəki sevgi ömrün ahıl vaxtındakı xatirələr, nostaljilik kəsb edən sevgi duyğularıdır. Eşqin geri dönüşümü, yaddaşın, duyğuların oyanışı, insanlığın özünü təsdiqidir. Yəni bu şeirlərdəki məhəbbət gerçəklikdən daha çox müdriklik təzahürüdür. Necə ki şair misralarından birində deyirdi: “Axı mənim bu ürəyim Məhəbbətdən yorulubdur!”. Müdrikliyə qovuşmuş insanın özünü xatırlaması və özü ilə vida kədəridir: gəncliyinə vida edən ahıl insanın özünü qəbul etmək əzmidir. Ona görə də bu şeirlərdəki sevgidə saflıq, ülviyyət, müqəddəslik, günahsızlıq, məsumiyyət var. “Sənsiz sevgim qocalıbdır” şeirində ifadə edildiyi kimi:

Məni oda salan gözəl,
Ürəyim səndə qalıbdır.
Sən allahın, bir qayıt gəl,
Sənsiz sevgim qocalıbdır.

Düşür yarpaq-yarpaq ilim,
Lal olubdu sənsiz dilim.
Səni illərdir gözlədim,
Ürəyimi dərd alıbdır.

“Hara aparırsan bu gözəlliyi” şeirində insana sevgi bəxş edən bir gözəlliyin talesiz gedişi, aqibəti sanki

təcəssüm olunubdur. Allahın xoş günündə yaranmış gözəlliyə sahib, gözlərindən eşq, vurğunluq yağan bır qızın aqibəti, sonu bəlli olmayan taleyə doğru gedişi şairin nəzərincə misralara alınmşdır:

Məhəbbət tökülür baxışlarından,
Dünyanın nazına bulaşıb üzün.
Az qalır o qönçə dodaqlarından
Ətrafa bal süzsün, şəkər tökülsün.
İtir küçələrin sükut dincliyi,
Hara aparırsan bu gözəlliyi!?

...Günəş də düşübdü sənin dalına,
Yanında-yörəndə kölgəyə dönür.
Sən ki yeriyirsən, ayaqlarında
Məhəbbət məhv olur, sevgi sürünür.
Hər kəsin özünə qalır pisliyi,
Hara aparırsan bu gözəlliyi!?

Şair xalq dilindəki gözəlliyi təsvir vasitəsi olan "Aya deyir sən çıxma, mən çıxım, Günə deyir, sən çıxma, mən çıxım" ifadəsini öz ifadə tərzinə uyğunlaşdıraraq "Günəş də düşübdür sənin dalına, Yanında-yörəndə kölgəyə dönür" şəklində improvizə edərək işlətmişdir.

"Sənin məhəbbətindir" şeirində eşq, məhəbbət əsl mənasını taparaq mövzu edilmişdir. İnsanı insan edən, onda insaniliyi var edən eşq bu şeirdə əsl mətləbini, izahını taparaq obrazlaşdırılmışdır. Burada bəhs edilən eşq insanı var edən, mənən zənginləşdirən, ruhən insaniləşdirən, əsl və əsil canlıya, heysiyyətli varlığa çevirən bir vacib keyfiyyət kimi yer almışdır. Klassik fəlsəfi və bədii fikirdə yer alan idealist, romantik, fəlsəfi məhəbbət bu şeirin ədəbi cövhərini təşkil etmişdir. O eşq ki insanı

kamilləşdirir, insanı bütün vacib keyfiyyətlərilə insan edərək zənginləşdirir, bütövləşdirir. O eşq ki Qeysi Məcnunlaşdırıb əfsanələrə döndərmişdi, o eşq ki Yusifi Tanrısına yetişdirmişdi, Züleyxanı dillərə salmışdı, o eşq ki Kərəmi yandırıb-yaxmışdı, Qəribi yollara salmışdı. Məhz bu ilahi, müqəddəs, ülvi eşq şairin "Sənin məhəbbətindir" şeirinin mövzusu olaraq lirik mənin mənəvi keyfiyyətlərini üzə çıxarmışdır:

Yollar da yorulub ayağım altda,
Bu tale yükünü çəkmək çətinmiş.
Mənim bu dünyada ömrüm uzadan
Tək sənin, tək sənin məhəbbətinmiş.

İndi saçlarıma qar yağıb mənim,
Ürəyim üşüyür, gözüm üşüyür.
Özüm kəsilmişəm özümə qənim,
Yolum quzeylərdən güneyə düşüb.

Ramiz Babayevin yaradıcılığında ciddi ictimai məzmunlu lirikaya da rast gəlmək olur. Şair elliklə gələn dərd-bəladan, insanı acıdan xoşəgəlməz hallardan dərdigileyini ictimailəşdirərək ifadə edir. "Dərdim çoxdu, üstümü ört" şeirində ictimai eyib və eybəcərliklər, mənəvi çatışmazlıqlar, əxlaqi nöqsanlar poetik şəkildə yer alaraq tənqid edilmiş, rast gəlinən xoşagəlməz hallar haqda giley olunmuşdur:

Dərdim çoxdu, üstümü ört,
Dərd üstünə dərd tökülər.
Zaman belə gəlib, qağa,
Dövran sürür boz sərçələr.

Haqqı nahaq basıb əzir,
Qız-gəlinlər qalıb əsir.
Çox şeylər var, hələ də sirr,
Tapanacan bel bükülər.

Şairin "Dilənçi" başlıqlı şeirində də bir ictimai dərd, kədər, qəm yer alıbdır. Şair ictimai səbəblərlə bağlı olaraq kasıblığa düçar olub dilnəçilik edən insanın faciəsini və mənəvi acısını, kədərini əks etdirmişdir. İctimai qayğılanma örnəyi olan bu şeir şairin yaradıcılığında ictimai məzmunlu əsərlərdən biri kimi diqqəti cəlb edir. Şeirdə:

Gəlib otursan hər gün bir tində,
Utana-utana pul dilənirsən.
Bir əlin havada, biri cibində,
Hamı elə bilir dilənçisən sən.

Üzündən-gözündən kübarlıq yağır,
Sınıb əyilirsən tanış görəndə.
Kimsə pul uzatsa, sən fağır-fağır
Alıb otursan yenə yerində.

Sən də pay verirsən kiməsə, yəqin,
Aldığın pulları tez-tez sayırsan.
Gənclik çağlarında sən nə biləydin
Dilənçi olarsan, fəqir olarsan?! –

deyə ifadə etdiyi ictimai yanğı, mənəvi kədər dövrün ortaya çıxardığı faciəvi aqibət və hadisələrə tənqidi və üsyankar münasibətdir. Bu şeir konkret ünvanı göstərməsə də, konkret təbəqəni, nümayəndəni işarə etməsə də, ümimilikdə cəmiyyətdə yer alan ictimai hallardan biri

kimi dilənçilərin taleyi haqda bəhs olunmuşdur. Özü üçün həyatda qalma, yaşama sənətinə çevirənlər istisna olunmaqla bəzi dilənçilik halları bir insanın faciəvi taleyi, kədərli aqibətidir, işsizliyin, mənəvi məsuliyyət olaraq çarəsizliyin atladılması yoludur. Buna görə də bu şeir bizə bir zamanlar müəllimlərin yoxsulluqdan dilənçiliyə məhkum edildikləri halların təsirli tənqidi ifadəsi olan professor və şair Famil Mehdinin "Dilən, professor, dilən" şeirini və buna oxşar digər əsərləri yada salır. Ümumiyyətlə, şair Ramiz Babayevin növbəti kitabındakı "Dərdim çoxdu, üstümü ört", "Dilənçi", "Deyirlər, dünyanın axırı çatıb", "Tənhalaşmış ağacların qəfil sınmaq qorxusu var", "Söz vermə naşıya", "Paxıllar" və bu kimi şeirləri ictimai məzmunlu lirika örnəkləri kimi kitaba ciddi ictimai məzmun verir.

Şair Ramiz Babayev ilhamla yazdığı əsərlər sırasında əziz dostlarını, sevdiklərini də unutmur, onlara olan sədaqətini, bağlılığını, onlar üçün duyğularını, sevincini, kədərini, təəssüfünü dilə gətirir, poetik ifadəli ədəbi nümunəyə çevirir. "Qayıt gəl", "Nə tez qocalmısan, qardaş", "Qəriblik" şeirləri məhz bu tipli əsərlərdəndir. "Qayıt gəl" şeirində yaxın dostun həyat yoldaşının itkisinə, "Nə tez qocalmısan, qardaş" şeiri isə dostu, şair və jurnalist Rövşən Hüseynova, "Qəriblik" şeiri Mürvət Qədimoğlu Həkəriyə həsr edilmişdir.

"Ana", "Analı günlərim" şeirləri ana məhəbbətinə həsr olunan qiymətli əsərlərdir. Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında ana mövzusu həmişə əhəmiyyətli bir yerə sahib olub. Bütün zamanlarda ana sevgisi, bala məhəbbəti tərənnüm olunmaqla bərabər, irihəcmli əsərlərin başlıca mövzusuna çevrilib, qiymətli əsərlər ərsəyə

gəlib. Qadına yüksək dəyər verən Azərbaycan cəmiyyətində qadın həmişə ucalıq nümunəsi olub: Qadın Anadır, bacıdır, gəlindir, qızdır, övladdır, xoşbəxtliyin və sevginin rəmzidir. Buna görə də şair Ramiz Babayevin də yaradıcılığında ana mövzusu ayrıcalıq təşkil edib. Ana sevgisi, ana mehri, ana məhəbbəti "Analı günlərim" şeirində belə əks olunub:

Anamın laylası çıxmır başımdan,
Həyət-bacamızın mehri azalıb.
Onun gülüşündən, xoş baxışından,
Bizə göz yaşları xatirə qalıb.

Yatdığı çarpayı tənha-tək durub,
Elə bil əyilib qəddi onun da.
Analı günlərim yolda oturub,
Gözləyir qayıdam günün sonunda.

Şeir məzmun, ruh etibarilə Xalq şairi Məmməd Arazın yaradıcılığını, onun ana mövzusunda yazdığı əsərlərin ruhunu xatırladır. Əlbəttə, bu, Naxçıvan ədəbi mühitində möhkəmlənən Məmməd Araz məktəbinin təzahür formasıdır ki, diqqəti cəlb edir. Şair çox haqlı olaraq ana xatirəsini ananın əli dəyən, bədəni toxunan bütün əşyalarda qorunduğunu diqqətə çatdırır, hər əşyadan, hər şeydən ana mehrini hiss etdiyini ifadə edir. Bir zaman ananın istifadə əşyası olan şeylər indi onun yoxluğunda ananın əziz xatirəsini yaşadan və hiss etdirən vasitələr, əşyalar aləmi kimi təqdim edilir. Əlbəttə, ədəbiyyatda bu ifadə tərzi ana məhəbbətinin ən özəl, ən özünəməxsus ifadə imkanı olaraq müəyyənləşmişdir.

Ramiz Babayevin yaradıcılığında təbiət lirikası da özünəməxsusdur. "Batabata gəlmisən", "Məmməd

Araza", "Əgər bu torpağın qədrini bilsən", "Yağışın şəkilləri", "Bahar" kimi şeirlərdə təbiətin əsrarəngizliyi, gözəlliyi, təbiət və insan münasibəti öz əksini tapıb. ədəbiyyatımızda əhəmiyyətli bir istiqamət təşkil edən təbiət lirikasının da bütün ədəbiyyat adamlarının yaradıclığında xüsusi yer tutduğunu qətiyyətlə söyləyə bilərik. Çünki insan həm də təbiətlə həmahəngdir. Təbiətin taleyi insanın taleyidir. Təbiət insanı bütün duyğu və düşüncələrilə ortaya çıxarmağa qabil bir varlıq mühitidir. Təbiət həm də gözəllikdir, gözəlliyin obyektiv simasıdır, anadangəlmə varoluşudur. Təbiətin gözəlliyini yağış hadisəsilə əks etdirmək özü də ədəbiyyatda bir ənənə təşkil etmişdir. Ən çox sevilən şeirlərdən biri kimi Müşfiqin "Yağış yağır" şeiri bir çox yeni əsərlərin meydana gəlməsinə vəsilə olmuşdur. Ramiz Babayevin də yağış mövzulu şeirlərində təbiətin sevgi halı öz əksini tapmış, yağışın yağması ilə insanın sevgi coşğunluğu arasında oxşarlıq hadisəsi olaraq təsvir olunmuşdur.

Beləliklə, öz imzası, öz sözü olan şair Ramiz Babayevin yeni kitabı özünün payız duyğularını ifadə tərzinə görə daha çox seviləcəyi və oxunacağına qətiliklə inanmaq olar.

Ramiz QASIMOV
AMEA Naxçıvan Bölməsi
İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun
Ədəbiyyatşünaslıq şöbəsinin müdiri,
filologiya üzrə fəlsəfə doktoru, dosent

RAMİZ BABYEVİN POEZİYASINDAN SÖZ ÇİÇƏKLƏRİNİN ƏTRİ GƏLİR

Ədəbi mühitdə öz dəsti-xətti olan şair Ramiz Babayevin hər yeni şeirlər kitabı çapdan çıxanda təəssüratlarımı onunla isti-isti bölüşmüşəm. Bədii nümunələrini dəyərləndirməyə çalışmışam. Bu dəfə isə şairin yeni çapa hazırladığı "Ömrün payız çağında" adlı şeirlər kitabında özünə yer almış şeirlərlə, necə deyərlər üz-üzə, göz-gözəyəm. Düzünü deyim ki, Ramiz Babayevin şeirləri ilə baş-başa qalanda elə bilirəm ki, özüm-özümlə söhbət edirəm. Sanki iki dost, iki həmfikir insan uzun ayrılıqdan sonra qarşılaşıb və çəkilib bir hücrədə özlərini bölüşürlər, öz dünyalarını sərgiləyirlər. Ona görə də dostum Ramizin şeirlərilə söhbətləşmək mənim qəlbimə bir rahatlıq gətirir. Düşünürəm ki, onun misraları, şeirləri ruhuma çilənən şeh, içilən bulaq suyu, ciyərlərimə çəkdiyim dağ havasıdır. Hər bir şeirinin öz gözəlliyi, özəlliyi vardır. O qarış-qarış gəzdiyi Vətənimizin hər bir guşəsinin gözəlliklərini vəsf edib, onu məharətlə söz tablosuna köçürməyi bacarır. Sözün tablosunu çəkmək, onun rəng çalarlarını yaratmaq şairin Vətənə olan sevgisindən, məhəbbətindən irəli gəlir. Şair yazır:

Çadırlar səpələnib yenə köhnə yaylağa,
Qızlar səhəng götürüb gedirlər Zor bulağa.
Yenə qoyun sürüsü yayılıbdı göy dağa,
Mən də bu gözəlliyi söz tabloma çəkmişəm.
Batabata gəlmişəm.

Üzən ada möcüzə, Üzən ada bir həyat,
Vətən oğlu, gəl burda ilham al, əsər yarat.
Naxçıvan torpağının baş tacıdır Batabat,
Mən ruhumu, canımı bu torpağa vermişəm-
Batabata gəlmişəm.

Adətən bütün qələm adamları yaşadıqlarını, duyğularını, xəyallarını yazıya köçürüb oxucuya təqdim edirlər. Bu, təkcə onların oxucuya nəyisə təqdim etmək istəkləri deyil. Bu həm də öz düşüncəsini, öz iç dünyasını bölüşməkdir. Bir az da obrazlı şəkildə desək, oxucu ilə canlı bağlantı, fikir bölüşməsi, nəticədə isə bədii bir fikrin ortaya qoyulmasıdır.

Dilimizdə qəlbimizin dərinliklərindən süzülüb gələn bir söz var: gözəllik. Bu söz həm təbiətdə, həm cəmiyyətdə, həm əxlaqda, həm sosial-məişət sahəsində, ən çox da insanın çöhrəsində özünü təsdiqləyir. Ona görə də biz hər yerdə onu axtarırıq və inanmıram ki, hansısa bir Allah bəndəsi gözəlliyə baxmadan yan keçib gedə bilsin. Burda söhbət insanın qadın və kişi olmasından getmir. Amma qadınlar daha çox öz gözəlliklərinə diqqət ayırmağa fikir verirlər. Bunu şair qardaşım belə poetikləşdirir:

Sən bir çiçək idin, gözəl, təzə, tər,
Getdin, ürəyimi yandırdı kədər.
Baxışlar ürəyə sevgi gətirər,
Sənin baxışından sevgi tökülür.

Bu misraların səmimi və cəlbediciliyinə diqqət yetirin! Mən də sözə meyilli olduğumdan bu misraların

izinə düşüb çözməyə başladım. Şeiri oxuduqca yavaş-yavaş həmin auraya səyahətim başladı. Sadə, səmimi şəkildə sıralanan bu misralar bir gözəlin, bir gözəlliyin vəsfi və tərənnümü idi. Şair yazır:

Yaman bəyənirsən özünü özün,
Hərdən gözlərində dincəlir gözüm.
Ay yanan ocağım, közərən közüm,
Sənin baxışından sevgi tökülür.

Çox baxma, gözümdə ildırım çaxar,
Dərdimin üstünə yağar yağış, qar.
Gözündən gözümü özümə qaytar,
Sənin baxışından sevgi tökülür.

Bu şeirdə şair, çox ustalıqla səmimi sözlərin poetik mənzərəsini yaradıb. Bu, hardasa həm də bir rəssam işidi. Naturadan çəkilmiş bir rəsm işidi. Özü də naturanın özü ilə müqayisə olunan bir rəsm.

Həqiqətən də insan azacıq duyğusal olarsa, iynə ucu boyda könlündə, ruhunda, kiməsə, nəyəsə dəyər vermək, bir də dərk etmək qabiliyyəti varsa, o mütləq gördüyünə və duyduğuna münasibətini bir sözlə də olsa ifadə edəcəkdir. Ramiz Babayev də həyatda müşahidə etdiyi bu gözəllikləri misralarında yaşatmağa çalışıb.

Gündən-günə çiçəklənən doğma Naxçıvan onu ruhunun bir parçasına çevrilib:

Mənim doğma diyarım,
Sənlə fəxr edirəm mən.
Gül-çiçək ətri gəlir,
Sənin küçələrindən.
Sən səhərə boylanan,

Nurlu, aydın şəfəqsən.
İnsanların gülərüz,
Xoş sifətli, mehriban.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan!

Tarixlərin yaddaşı,
Neçə abidələrin var.
Dünyaya səs salıbdır,
Köksündən çıxan sular.
Daşında, kərpicində
Minilik tarix yaşar.
Günəştək boylanmısan,
Şərqin astanasından.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan!

Ramizin daha bir şeirinə nəzər salıram. "Öldürəcək məni".

Qapısı bağlı evlərin,
Sinəsi dağlı evlərin,
Qaralı ağlı evlərin
Dərdi öldürəcək məni.

İsti suyun, turş bulağın,
Tənha qalan od-ocağın,
Ana yurdum Qarabağın
Dərdi öldürəcək məni.

Bu şeir bizi yaxın keçmişimizə qaytarır. O keçmişə ki, dərd-qəm səpib, kədər biçmişdik. Qarabağımız əldən getmişdi. Yurd yerlərimizi əsarətdən qaytarmaq,

işğaldan qurtulmaq üçün yollar aradıq, yollar yorduq. Arzularımız, ümidlərimiz bələyində boğulsa da, səbrimiz tükənsə də bu yollarda yorulmadıq. Bəndə düşmüş kilidin açarı isə tapılmırdı ki, tapılmırdı. Boşalmış kəndlərimizdəki evlərin qapısındakı paslı qıfıllar öz yiyəsinin hənirtisinə, əlinin istisinə həsrət qalmışdı. Doğmalarımızı, əzizlərimizi dəfn etdiyimiz o əlçatmaz məzarlıqlar ruhumuzu, heysiyyatımızı, duyğularımızı sıxırdı. Şair ürəkağrısı ilə "Nənəmə bir ovuc torpaq borcluyam" adlı şeirində yazır:

Nənəmə bir ovuc torpaq borcluyam,
Bulaqlar kəndindən gətirəm gərək.
Babamın qəbrindən, ayaq tərəfdən,
Nənəm deyən yerdən götürəm gərək.

Nənəmə bir ovuc torpaq borcluyam,
O doğma torpaqda hikmətə bir bax.
O torpaq qəbrinə səpilsə əgər,
Nənəmin ruhu da rahat olacaq.

Nənəmə bir ovuc torpaq borcluyam,
İllər illər üstə qalanıb gedir.
Nənəmə bir ovuc torpaq borcluyam,
Dözüb gözləməkdən əyilib qəbir.
Dözüb gözləməkdən əyilib qəbir.

Bu şeirlə Ramiz Babayev zamanın nəbzini tutub. Dövrün ovqatını, xalqının fikrini şeirə gətirib.

Təbii ki, bu mövzulu şeirlərində şairin qürur hissi keçirdiyinin də şahidi oluruq. Bu, nəhayətsiz sevinci və aşıb-daşan coşqunu yurddaşlarımıza yaşadan, bəxş edən, 44 günlük Vətən müharibəsində müdrik, Ali Baş Komandanımızın qətiyyəti, müzəffər ordumuzun

rəşadəti ilə qazanılmış möhtəşəm qələbəsidir. Bəli, hər günün öz ovqatı var. Bu ovqatı gərək özün yaradasan, özün kökləyəsən. Ramiz də qələmini və sözünü bu ruhda kökləyir. Qalib Komandanı və xalqının fəxarət kürsüsünə qaldırır və gur səslə deyir:

Vətənimin vuran qolu,
Dərrakəli, məğrur, ulu!
Heydərimin İlham oğlu-
Mənim qalib Komandanım!

Tarix yazdı bu günlərə,
Hər gün döndü bir əsərə.
Örnək oldu nəsillərə
Mənim qalib Komandanım!

Odur xalqın qəhrəmanı,
Bu torpağın ruhu, canı.
Heyran qoydu bu dünyanı
Mənim qalib Komandanım!

Ramizin şeirləri bir bulaqdır ki, qaynayır. Onun aurasında özümü çox rahat hiss edirəm. Zəngin, tükənməz poeziyasından bəhrələnmək istəyirəm. Hərdən özümə də sual verirəm: Şair olmaq asandırmı? Bir şeir karıma çatır. Onunla həmsöhbət oluram:

Dağlardan gül-çiçək dərib gəlirəm,
Dərdimi yamaca sərib gəlirəm.
Mən kim olduğumu yaxşı bilirəm,
Mən şeir yazanda şair oluram.

Biri dərd üstünə dərd gətirirsə,
Biri göz yaşıyla gül bitirirsə,
Birinin işləri düşəndə tərsə,
Mən onu görəndə şair oluram.

Bir eşqin ümidi parçalanırsa,
Bir dilək min yerə haçalanırsa,
Bir ana gözləri yolda qalırsa,
Mən onu görəndə şair oluram.

Səmimi deyə bilərəm ki, Ramiz Babayevin şeirləri təbiətimiz kimi əlvan və zəngindir. Budur şairin şeirlərinin məndə yaratdığı əks-səda, xoş ovqat, şeirlərinin ab-havası, nəfəsi, bir də onun duyğularının bir parçası olan söz çiçəklərinin ətri. Bu ətirdən mən xoş oldum. Yəqin siz də xoş olacaqsınız!

Rövşən Hüseynov,
Azərbaycan Respublikasının
Əməkdar mədəniyyət işçisi

VƏRƏQLƏR İÇİNDƏ LƏÇƏK QOXUSU...

Öz lirik şeirləri ilə oxucu qəlbinə yaxın olan Ramiz Babayev 1956-cı ildə qədim Naxçıvanımızın Babək rayonunun Şıxmahmud kəndində anadan olub. "Unuda bilsən", "Yenə yadıma düşdün", "Ötən günlərim", "Məhəbbət nəğmələri" adlı şeir kitablarının müəllifidir. Uzun illər doğma rayonunda məktəb direktoru işləyib. Bu səbəbdən də onun şeirlərində milli adət-ənənələrə, vətəndaşlıq qayəsinə çağırış duyğuları başlıca mövzudu. Eyni zamanda, saf məhəbbətin, sədaqətin tərənnümü. Ömürdən keçib-gedən ayların, illərin nostalji yaşantıları, sevgi etirafları Ramizin poetik dünyasının hər məqamından boy göstərir. Sevən, olduqca vəfalı bir qəlbin çırpıntıları, yanğısı qor altındakı köz kimi közərir onun misralarında. Məhəbbət aləmi Ramiz Babayevin ədəbi qəhrəmanları üçün insanlıq hücrəsi, məkanı kimidir. Bu obraz və qəhrəmanlar öz duyğularını insanlıq aləmiylə bölüşmək istəklisidirlər. Unudula bilməyən günlərin, unudulmayanların ovqatı, yenidən təcəlli edən aləmi boy göstərir Ramizin şeirlərində. Hər misrasında itkilərin, itirilənlərin yeri göynəyir. Ümidlərin ləçək-ləçək tökülduyü yerdən başlayır. Qınaq da, ərk də, etiraz da, təəssüf duyğuları da var bu şeirlərdə. Ümidli, inamlı anların yaşantıları da! Ramizin lirik qəhrəmanları saf məhəbbətə, əhdə, vəfaya insanın təzələnmə məqamı kimi baxır. Könül dostları ilə hər yeni görüş, ünsiyyət onun ədəbi obrazları üçün vaxtın, zamanın təzələnməsidi. Və bu lirik ovqat şeirin şirin diliylə belə ifadə edilir:

Sənin gəlişinlə dünya dəyişib,
Dəyişib zamanın, dövranın üzü.
Köhnə əşyalar da lap təzələşib,
Mən də dəyişmişəm, lap sözün düzü.

Gəlmisən, hər yerdə gül açıb izin,
Otağın havası ətir qoxuyur.
Çiçəyi çırtlayır saf sevgimizin,
Ruhum naxış üstə naxış toxuyur.

Bir bəxtiyar, bəxtəvər məqamın əsintiləri, bütün istəklərin dilsiz baxışlardan duyulan anın ifadəsidi bu yazılanlar.

Ramiz Babayevin ədəbi qəhrəmanı öz könül dostuna, sevdalısına "sənə əziyyət verən qadanı alım" duyğusallığı ilə doğmalaşır oxucuyla. "Gəl ki, ötən günlərin qırılsın qol-qanadlı" istəklisidir.

Ramizin şeir dili axıcı və səmimidir. İfadə etdiyi fikirlərin özünəməxsusluğu hər misrada özünü büruzə verir. Bütün halıyla sevən ürəklərin ümidinə, inamına ayna tutur:

Bütün cizgilərin tanışdı mənə,
Gözlərim olmasa taparam səni.
Qoşulsan payızın küləklərinə
Dönüb bir dərəyə, tutaram səni.

İlkin hisslərə, xatirə hücrələrinə çağırış sədaları var Ramizin şeirlərində. Könül dostunu gətirəcək yollara, dilsiz küçələrə yalvarış nişanələri var.

Əməkdar mədəniyyət işçisi Rövşən Hüseynov haqlı olaraq yazır ki, Ramiz Babayevin "Məhəbbət nəğmələri" adlı şeirlər kitabında bədii sözün səsini eşidirik... Onun şeirlərində duyğular çeşid-çeşiddir... Ramizin özünəməxsus deyim tərzi var".

Şair Muxtar Qasımzadə də R.Babayevin, şeirlərindən bəhs edərkən onun yaradıcılıq imkanlarını bu yöndən incələyir. Qeyd edir ki, Ramizin yaradıcılığının əsas qayəsi məhəbbətlə bağlıdır. "Bu məhəbbət təkcə gəncliyin ünvanını göstərən hisslərdən ibarət deyil. Bu sevgi çağlayan bir ürəyin sevda yolçusunu "insanlara, kainata, Vətənə, gözəlliyə olan sevgisidir".

Ramiz müəllim tarixən çox qədim, özünəməxsus təbiət gözəllikləri olan bir bölgədə yaşayır. Bu bölgənin pak, "insanda insan oyadan" (R.Rza) ab-havası, təbiət gözəllikləri, orada yaşayan insanların həyat sevgisi və yaşam tərzi onun yaradıcılığının mövzu qaynağıdır. Bu səbəbdən də şeirlərində ifadə olunan duyğular öz təravəti, ürəyəyatmışlığı ilə oxucuya sirayət edir. Onun şeirlərində müdrik düşüncələrin poetik ifadəsi sərgilənib. Həyatın, insan yaşamının gerçək üzünə ayna tutur Ramiz müəllimin şeirləri. Bütün halıyla oxucunu halallığa, saflığa, ilkinliyə səsləyir. Yaxşılıq, xeyirxahlıq nümunələri kimi oxunur.

Sərvaz HÜSEYNOĞLU
Azərbaycan Yazıçılar Birliyi,
"Aran" bölməsinin sədri

Vətən, torpaq, sevgi



MƏN TÜRKƏM

Mən türkəm eşitsin dünya səsimi,
Türkün intiqamı yamandan yaman .
Lərzəyə salacam yer kürəsini,
Mən türkəm,yeni bir tarix yazıram!

Dərbənddən başlayıb Zəncana qədər
Alınan torpaqlar qayıdacaqdır!
Zaman yaxınlaşıb yer üzündəki
Bütün türk dünyası bir olacaqdır!

Mən türkəm, Koroğlu nərəsindəki
Gücüm qayıdıbdır artıq özümə.
Altay dağlarından doğan günəşin
Qızıl şəfəqləri düşür üzümə.

Mən türkəm, Atatürk babamdır mənim,
Qorquddan yadigar bir dastanım var.
Ankara,İstanbul mənim vətənim,
Mənə toxunanın yurdu dağılar.

Mən türkəm, qoy dünya eşitsin bunu,
Orxon Yeniseydən gəlir sorağım.
Bütün yer üzündə asılacaqdır
Mənim ay ulduzlu qızıl bayrağım!

Mən türkəm, Ərdoğan, İlham türküyəm,
Gücüm birləşəndə ölər yağılar.
Ürəyim içində illərdir yanan
Bir türk qeyrəti var, türk ocağı var.

ANA DİLİM

Vüqarlısan, uca, əziz,
Nəğmən şirin, sözün təmiz.
Bir aynasan saf-ləkəsiz,
MənimVaqif, Vurğun dilim.
Ana dilim, ana dilim.

Qoşmalısan, gəraylısan,
Araz kimi haraylısan,
O taylısan, bu taylısan
Bakı dilim, Təbriz dilim,
Ana dilim, ana dilim.

Ruhuma dilmanc olmusan,
Sıxılsan da ucalmısan,
Ürəklərdə kök salmısan,
Mahnı dilim, şeir dilim,
Ana dilim, ana dilim.

MƏNİM DOĞMA NAXÇIVANIM

Var dövlətdir hər bucağı,
Əzəmətdir, İlan dağı.
Çınqıllısı, Zor bulağı,
Çölləri inci, mərcanım,
Mənim doğma Naxçıvanım.

Türbələri vüqarlıdır,
Sərt qışlı, xoş baharlıdır.
Cəlil, Cavid soraqlıdır,
Ulu bir Heydər dastanım,
Mənim doğma Naxçıvanım.

Şərqin doğan günəşidi,
Nuhun sönməz atəşidi,
Qəhrəmanlıq nəğməsidi,
İgidlik, dostluq ünvanım.
Mənim doğma Naxçıvanım.

Gecələri nurlu şəhər
Küçələri tərtəmiz, tər.
Araz üstə yatan şəhər,
Sənə qurban olsun canım.
Mənim doğma Naxçıvanım.
Mənim doğma Naxçıvanım.

TƏBRİZ GÖZƏLİ

Gözlərin mavi bir dənizə bənzər,
Üzündə məhəbbət xoşbəxtlik gəzər
Kimdi səni sevən o tək bəxtəvər
Səni görən gündən olmuşam dəli
Ay Təbriz gözəli, Təbriz gözəli.

Ağappaq əllərin dağların qarı,
Qaşların ox kimi saçların sarı
Ay payız ömrümün güllü baharı
Dedim nə gözəlsən söylədin bəli
Ay Təbriz gözəli, Təbriz gözəli.

Nazından ətrafa naz tökülürdü
Dilin dinməsə də gözün gülürdü
Hamı ətrafında yanır, ölürdü
Yazmasa sınardı Ramizin əli
Ay Təbriz gözəli, Təbriz gözəli.

Şəmin vurğunudur hər vaxt pərvanə
Allah qələmini çəkibdir sənə
Sən məni gətirdin imana, dinə
Sözlərin bal kimi şkirin, məzəli
Ay Təbriz gözəli, Təbriz gözəli.

Hardan peyda oldun sən birdən-birə
Bəlkə bir hurisən enmisən yerə
Leylidən gözəlsən sən milyon kərə
Sənsən gözəlliyin eşqin sərvəri
Ay Təbriz gözəli, Təbriz gözəli.
Ay Təbriz gözəli, Təbriz gözəli.

ÇİÇƏKLƏNƏN NAXÇIVANIM

Mənim doğma diyarım,
Sənlə fəxr edirəm mən.
Gül-çiçək ətri gəlir,
Sənin küçələrindən.
Sən şəhərə boylanan,
Nurlu, aydın şəfəqsən.
İnsanların gülərüz,
Xoş sifətli mehriban.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan.

Tarixlərin yaddaşı,
Neçə abidələrin var.
Dünyaya səs salıbdır
Köksündən çıxan sular.
Daşında, kərpicində
Min illik tarix yaşar.
Günəş tək boylanmısan
Şərqin astanasından.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan.

Basılmaz hünərinlə
Səs salmısan cahana.
Qatil, azğın düşmənlər
Baxırlar yana – yana.
Dünya heyran qalıbdır,
Sənin Heydər oğluna.
Sən bitib göyərmisən

Onun arzularından.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan.

Gecələr ulduzlardan
Nur tökülür üstünə.
Xan Arazın gəlintək
Xumarlanır, nazlanır.
Fantanların, bağların
Yaraşıqdır hüsnünə.
Üç rəngli bayrağın da
Başın üstə dayanır.
Biz də qüvvət alırıq
Sənin arzularından.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan.

Durublar başın üstə
Oğulların nər kimi.
Hər daşında, çölündə,
Xoş arzular göyərir.
Bilmirəm necə bölüm
Sənlə mən öz sevgimi.
Sənin hər günün, anın
Yazılmamış əsərdir.
Sən həmişə Ramizin
Qüruru, vuqarısan.
Ey mənim doğma yurdum,
Çiçəklənən Naxçıvan.

VƏTƏN HEYDƏR-HEYDƏR VƏTƏN

Bir günəş tək parlayırsan,
Ömrümüzün zirvəsindən.
Arzuların əməllərin
Yolumuzda bir çıraqdır.
Bu gün qalxıb ucalırsan
Milyonların ürəyindən.
Yolumuzda mayak olan
Üç rəngli bir al bayraqdı.
Xalqımıza dayaq oldun
Doğulduğun o bir gündən,
Bu gün hamı bir söz deyir:
Vətən Heydər, Heydər Vətən.

Bakı, Ceyhan yollarında
Arzuların çiçək açdı.
Bütün dünya heyran qaldı
Səndə olan bu hünərə.
Neçə belə lahiyələr
Qanadlandı, şölə saçdı.
Nur, bərəkət, bar gətirdi
Şoranlaşmış boş düzlərə.
Qüvvət aldın yaratdığın,
Can qoyduğun hər bir işdən.
Bu gün hamı bir söz deyir:
Vətən Heydər, Heydər Vətən.

Bir şam kimi əriyərək
Ömrü belə vurdun başa.
Azərbaycan-doğma diyar

Sənin böyük əsərindir.
Heykəlləşdin bu diyarda
Döndün ulu vətəndaşa.
Keçsə yüz il, qərinələr,
Sən yenə də bizimləsən.
Yenə hamı deyəcəkdir:
Vətən Heydər, Heydər Vətən

XALQIN XİLASKARI

Rus vəhşilikləri
Baş alıb gedən zaman.
O geriyə qayıtdı,
Kremldən, Moskvadan.
Mətin addımlarıyla,
Girdi böyük meydana.
Hamı nicat yolu tək
Dönüb baxırdı ona.
Gedirdi, neçə illər
Zəhmət çəkdiyi yolla.
O, şöhrət qazanmışdı,
Xalq içində uğurla.
Qalxdı böyük kürsüdən
Səsi titirədi gəldi.
Xalqın coşan qəzəbi,
Rahatlandı, dincəldi.
Qəsbkar imperiyanın,
Sonu bu imiş demə.
Yüz yüksək vəzifələr
Dəyməz Vətən sevgimə.
Mən bu Vətənin oğluyam,
Bu gündə dözəmmərəm.
Gəldim ki, öz dərdimi
Xalqın dərdi ilə böləm.
Deyib yumuruqlarını
Qaldırdı Böyük rəhbər.
Onun ağrılarını
Xalqa çatdırdı sözlər.
Dedi ki, darıxmayın,

Hər şey yaxşı olacaq.
Dedi ki, heç vaxt sönməz
Mən yandıran bu ocaq.
Ağır addımlarıyla
Yendi böyük kürsüdən.
Vüqarlı əllərini
Göyə qaldırıb hərdən.
Onun hər bir kəlməsi
Lərzə saldı cahana.
Onu görüb sevindi
Oğul itirmiş ana
Getdi, onu ağlatdı
Şəhidlər xiyabanı,
Onu hiddətləndirdi
Axan hər şəhid qanı,
Dedi 20 yanvarı
Hər vaxt, hər il, hər zaman.
Bir matəm günü kimi
Anacaq Azərbaycan.
Azadlıq arzusuna,
Çatacaq Azərbaycan.
Dedi şəhidlər qanı
Heç zaman yerdə qalmaz.
Millət qurban versə də,
Azadlıqlar boğulmaz.

XALQIMIN SƏRKƏRDƏSİ

Xalqımın sərkərdəsi
Heydərin İlham oğlu.
Sən gəldin yurdumuzda
Yeni günəş doğuldu.

Bayraqlar sırasında
Ucaltdın bayrağını.
Canından artıq sevdin
Yurdunu, torpağını.

Qiymət verdin yurdumda
Hər işə, hər sənətə.
Sən öz yüksəlişinlə
Layiqsən hər hörmətə.

ƏGƏR BU TORPAĞIN QƏDRİNİ BİLSƏN

Lal axan çayların daşacaq suyu,
Quzeydə çiçəklər sevinəcəkdir.
Güllər səpilərək cığırlar boyu,
Meşələr səsinə səs verəcəkdir-
Əgər bu torpağın qədrini bisən.

Buludlar çapacaq köhlən atını,
Dür inci düşəcək üstünə göydən.
Ulduzlar quracaq toy-busatını,
Xoşbəxtlik öpəcək səni hər yerdən-
Əgər bu torpağın qədrini bisən.

Daşların lal dili açılacaqdır,
Dərələr qaçacaq duman əlindən.
Qayalar sevincdən cəng tutacaqdır,
Kirpiklər batacaq yaşa sevincdən-
Əgər bu torpağın qədrini bisən.

SƏNİN MƏKTUBLARIN

Sənin məktubların hələ də durur,
İllərdi qoruyub saxlamışam mən.
Nə vaxt ki, qəlbimə sənsizlik dolur,
Açıb oxuyuram onları hərdən.

Hər sətir, hər kəlmə sevgi dolusu,
Min arzu, min dilək yaşayır orda.
Vərəqlər içində ləçək qurusu
Sənin izlərini daşıyır orda.

Mənə göndərdiyin şəkillər ki, var,
Qat kəsib, əzilib,solub, saralıb.
Çoxuna yazmısan məndən yadigar,
Sevgin ayrılıqdan yadigar qalıb.

Sənin məktubların hələ də durur,
Tez- tez dəyişirəm yerini hərdən.
Kiminsə tapmağı məni qorxudur,
Deyirəm itirsəm, sən də itərsən.

Sənin məktubların hələ də durur,
O gündən bu günə xatirə kimi.
Sənin məktubların hələ də durur,
Yaşadır özündə o ilk sevgimi.

SEVİRSƏN

Eşitdim yenə də məni sevirsən,
Yenə qəlbindədir alovum-közüm.
Mənə tək sevgilim, canım deyirsən,
De, necə mən səndən əlimi üzüm.

Günlər saçlarıma ayrılıq səpib,
Vüsalın əlləri mənə uzaqdı.
Bizim hicranımız yaman tələsib,
Ayrılıq bizləri yandıracaqdı.

İlləri illərə satıb qalmışam,
Bu hisslər məhəbbət nağılı deyil.
Mən səni çoxundan xəbər almışam,
Sənlə qocalmışam mən də ilbəil.

Eşitdim yenə də məni sevirsən,
Yenə gözlərində gizlənib kədər.
Çox nahaq özünü sən incidirsən,
O günlər çox çətin geriyə dönər.
O günlər çox çətin geriyə dönər.

MƏNƏ VƏFASIZ DEMƏ

Gözlərinin yaşıtək
Axacam yanağına.
Xoş bir təbəssüm olub,
Qonacam dodağına.
Ürəyimin odunu
Verəcəyəm mən sənə-
Mənə vəfasız demə.

Yaxşı, mən günahkaram,
Bağışla bir yol məni.
Salma bir də yadıma
Çoxdan olub keçəni.
40 il ötüb keçsə də
Yenə sevirəm səni.
Tək sənsən bu dunyada
Əlac mənim dərdimə-
Mənə vəfasız demə

Səni yaddan çıxarsam
Günlər durar üzümə.
Sən qırışa dönmüsən,
Çökmüsən üz-gözümə.
Yaraşıqsan hər zaman
Mənim sənsiz ömrümə-
Mənə vəfasız demə,
Mənə vəfasəz demə.

GİZLİ GÖRÜŞLƏR

Bu gizli görüşlər aldadır səni,
Gizlincə, gizlincə gəlib gedirsən.
Bizə gələn zaman sevirsən məni,
Mən də sən günlüyəm, düzünü bilsən.

Qonağım olursan, deyib gülürsən,
Saxta niqabından üzün gorünür.
Elə ki, alışıb yanıb sönürsən,
Saxta gülüşlərin üstünə gülür.

Özünü aldadıb aldatma məni,
Nəyinə gərəkdir belə görüşlər.
Bir də qınamıram əzizim səni,
Yalançı eşq üstə qurulub əsər

SƏNİ SEVƏNDƏ

Məni qucaqlayıb,
Bağrına sıxıb,
Ağlaya-ağlaya,
Deyirdin ki sən
Əzizim sevgilim,
Hər vaxt mənimsən.

İndi yan keçirsən
Məni görəndə.
Kaş mən kor olaydım
Səni sevəndə.

Özgə gözlərinə
Öyrənib gözün.
Özgə üzlərinə
Öyrənib üzün.
And içib suyuna
Çayın, dənizin,
Deyirdin əzizim,
Deyirdun ki, sən
Hər zaman mənimsən.
Hər an mənimsən.

SƏNİ AXTARIRAM

Gəzərəm dağı, daşı,
Qurumaz gözüm yaşı,
Ay könlümün sirdaşı,
Səni axtarıram mən.

Aylar keçir, il gəlir,
Yağış yağır, sel gəlir.
Yaşıdlarım evlənir,
Səni axtarıram mən.

Harda qaldın, sən görən,
İl keçir son görüşdən.
Sən keçən küçələrdən
Səni axtarıram mən.

SƏN ALLAHIN, ÖRT SİNƏNİ

Belə baxma, yandıracaq
Gözlərinin odu məni
Sinən açıq, zülfün gözəl,
Sən Allahın, ört sinəni.

Naz, qəmzəndən üzülür can,
Dişlərin dür, inci mərcan,
Bir busə ver dodağından,
Sən Allahın, ört sinəni.

Zülfün dümağ, dağlar qarı,
Hörüklərin qara, sarı.
Əsər taleyin rüzgarı,
Sən Allahın, ört sinəni.

Naz eyləmə bilə-bilə,
Salma özün dildən-dilə.
Qorxmayırsan nar üzülə-
Sən Allahın, ört sinəni.

İşvən məni öldürəcək,
Qaşın kaman, gözün göycək.
Gəl Ramizdən xatanı çək,
Sən Allahın, ört sinəni.

MƏNƏ DEMƏ UNUT MƏNİ

Mənə demə unut məni-
Gözlərimdən yaş tökülər.
Sənlə keçən xoş günlərim,
Geri dönüb mənə gülər.

Mənə demə unut məni
Arzularım heçə dönər.
Boğazıma ip keçirib,
Məni asar keçən günlər.

Mənə demə unut məni
Olan olub, keçən keçib.
Məhəbbətin ürəyimdə
Ayrılığa bir don biçib.

Mənə demə unut məni
Unutmağa tabımmı var?
Əgər sən məni sevmirsən
Keçmişimi mənə qaytar.

SƏNDƏN SONRA

Başıma od ələndi,
Sevgim yasa bələndi
Artıq saclarım dəndi-
Səndən sonra.

Düşdüm oda-alova,
Hədəf oldum söz-sova.
Viran qaldı el-oba-
Səndən sonra.

Tənhalıq üzdü məni,
Eşitmədin səsimi.
Yalqızam Məcnun kimi-
Səndən sonra.

Sevgim düşdü dillərə,
Haray çəkdi dağ-dərə.
Baxmadım gözəllərə-
Səndən sonra.

Dünya mənə dar oldu,
Sevgim bezdi, yoruldu.
İstəyim məzar oldu-
Səndən sonra.

HARDAN YADIMA DÜŞDÜN

Hardan yadıma düşdün
Yenə bu gecə mənim.
Məni, əlində qoydun,
Sonsuz kədərin, qəmin.

Səni unutmaq üçün
Silmişdim yaddaşımdan.
Səni sevə bilmərəm
Bir də geri qayıtsan.

İndi yenə fikrimdə,
Yenə xəyalımdasan.
Bu gecə öz sevginlə,
Mənim otağımdasan.

MƏN BİR HƏSRƏTƏM

Mən bir pas bağlamış tüfəngəm, qardaş,
Çaxmağım qırılıb, lüləm qırılıb.
Köhnə hambal kimi hey daşıyıram,
Kədəri, qüssəni çiynimə yığıb.

Mən bir vüsal dolu qəm dəryasıyam,
Gücüm dalğa – dalğa öpür sahili.
Nə vaxt ki çətinə, dara düşürəm
Yetişmir əlimə doğma dost əli.

Mən bir çoban çatmış odsuz ocağam
Alışıb yanmağım müşkülə düşüb,
Gözlər bir-biriylə görüşməyən tək,
Mənim də bəxtimə ayrılıq düşüb.

Mən bir intizaram, mən bir həsrətəm,
Qurban olacağam bu sahillərə.
Şerimi, mahnımı həsr edəcəyəm
Sərhəd olan yerə, çay olan yerə.

UNUDACAM SƏNİ MƏN

Qəlbimin tellərіydin,
Bağçamın güllərіydin.
Sevgi dərdi-sərіydin,
Unutmuşam mən səni.

Uydun vara-dövlətə,
Aldandın boş şöhrətə.
Son qoydun məhəbbətə,
Unutmuşam mən səni.

Gəlmə mənlə üz-üzə,
Yalan deməz göz-gözə,
Söylədiyin son sözə
Unutmuşam mən səni.

SƏNİN DEYİLƏM

Çıxar ürəyindən çıxar, at məni,
Mən ki, daha artıq sənin deyiləm.
Səndən ola bilməz könül həmdəmi,
Yazıqsan, özünə gətirmə dərd-qəm.

Məhəbbət alovdur, yandırar səni,
Yalançı sevdalar alışmaz orda.
Saxla özgəsinə məhəbbətini,
Mən sahib deyiləm viranə yurda.

Başından düşübdür gəlinlik tacın,
Özün ürəyini tora salmısan.
Çoxdan qırılıbdır məslək ocağın,
Onunçün sən belə tənha qalmısan.

Sənin qismətindir bir günlük görüş,
Bu alın yazısı yazılıb sənə.
Məni yaxşı anla, düşün, başa düş-
Sabah bir özgəyə qonaqsan yenə.

ƏGƏR MƏNİ SEVMƏSƏN

Gözlərindən gözümə yol çəkibdir ürəyim,
Baxışlarım dikilib sənin baxışlarına.
Səndən ayrılan gündən heç bilmirəm neyləyim,
Bulanmışam dünyanın qarasına, ağına.
Hardasan? Bu körpülər uçulacaq deyəsən,
Dünya başıma uçar, əgər geri dönməsən.

Sevdalı günlərimin ilmələri əlində,
Amandı səhv salarsan çözələnər tökülər.
Nə vaxtdı sənsiz qalan sevgi gecələrində,
Sən dönub qayıdarsan göydən üç alma düşər.
Hardasan? Bu körpülər uçulacaq deyəsən,
Dünya başıma uçar, əgər geri dönməsən.

Arzular qollarına alıb aparır məni,
Ümidlərin çırağı hələ alışıb yanır.
Sən getdiyin yolları tutub dağların çəni,
O yollardan bir arzu ümid mənə boylanır.
Hardasan? Bu körpülər uçulacaq deyəsən,
Dünya başıma ucar əgər geri dönməsən.

GETMƏ

Getmə, baxışların itər gözümdən,
Bu fani dünyada tənha qalaram.
Sən getsən bezərəm özüm özümdən,
İnan, Məcnun kimi dəli olaram.

Sənə ürəyimin başında yer var,
Gəl, sığın qəlbimin atəşinə sən.
Sənsiz bir heç olar bütün arzular,
Çıxar bu dünya da çərçivəsindən.

SEVGİ GÜNAHI

İtib sənə qarşı olan hisslərim,
Daha ürəyimə qoymaram səni.
Sənli ünvanlara bitib səfərim,
Heç zaman, heç vədə gözləmə məni.

Nə vaxtsa çalınıb sınan saz kimi
Asılıb qalmısan divarda belə.
Mənim o saf, ülvi, təmiz sevgimi
Heç zaman, heç yerdə gətirmə dilə.

Özü yuvasını dağıdan quşu
Heç bağışlarmı o yurd, o Vətən.
Olmusan könlümün yaz qaranquşu
Payıza qoşulub, köçüb getmisən.

Könlüm arzulamır heç zaman səni,
Eh, səndən yadımda nə qalıb axı.
Səndən mənə qalan saçımın dəni,
Məndən sənə qalan sevgi günahı.

Get, sil ürəyindən çıxar sevgimi,
Bir də mənim üçün darıxma belə.
Dağlardan kükrəyib gələn sel kimi
Çətin mən görüşəm bir də səninlə.

Sən o məhəbbətə layiq deyilsən,
Bürünmə yalana, bürünmə şərə.
Mənim son sözümdür, özün bilərsən,
Keçirmə gününü sən hədər yerə.

SƏNSİZ SEVGİM QOCALIBDIR

Məni oda salan gözəl,
Ürəyim səndə qalıbdır.
Sən allahın, bir qayıt gəl,
Sənsiz sevgim qocalıbdır.

Düşür yarpaq - yarpaq ilim,
Lal olubdu sənsiz dilim.
Səni illərdir gözlədim,
Ürəyimi dərd alıbdır.

Getdin bir gedər-gəlməzə,
Su ələdin yanar közə.
Bir gün qonaqtək gəl bizə,
Könlüm qonaqsız qalıbdır.

YANIMA QAYIT

Bir gün sən yanımdan keçib gedəndə
Könlün od tutacaq, alışacaqdır.
Gizli axıtdığın o göz yaşların
Mənin həsrətimə qatışacaqdır.

Məhəbbət bu qədər ucuzmuş demə,
Hər gələn ünvana yolu düşərmiş.
Mən öz ürəyimi vermişdim sənə,
Sənsə çıxıb getdin bahar gəlməmiş.

Yanıma qayıdıb günün birində,
Həsrəti üstümə ələyəcəksən.
Mənim ürəyimi əlimdən alıb,
Hər dediyim sözə "can" deyəcəksən.

Barı ötən günü sən vermə yelə,
Yanıma tez qayıt, bir görüm səni.
Bilirəm, sən məni sevirsən hələ,
Heç nə əvəz etməz könül sevəni.

SƏNİN YOXLUĞUNA İNANANMIRAM

Getmisən, gözümdə izlərin itib,
Getmisən, gözündə gözüm qalıbdır
Hər şeyi almısan, aparmısan sən,
Sənə deyiləsi sözüm qalıbdır.
Aralı düşmüsən arzularımdan,
Sənin yoxluğuna inanammıram.

Xəyala çevrilən o xoş günlərin
Ağrısı, acısı canımda qalıb.
Sənինsə heç nədən yoxdur xəbərin,
Sevincim azalıb, dərdim çoxalıb.
Az qalıb həsrətdən alışıb yanam,
Sənin yoxluğuna inanammıram.

O qədər yaxınkən uzaq olmuşuq,
Bumudur həyatda sevgi, məhəbbət?
Sevgi dünyasından biz qovulmuşuq,
Qoy allah göstərsin bizə mərhəmət.
İllər bir an kimi keçir aradan,
Sənin yoxluğuna inananmıram.

İNANAN DEYİLƏM GÖZ YAŞLARINA

İnanan deyiləm göz yaşlarına,
Ağlama, gözünü silən deyiləm.
Yazıqlıq gətirmə baxışlarına,
Mən səni bir daha sevən deyiləm.

Eşqinin yolunda itib izlərim,
Bir də yol açmağa qoymaram səni.
İndi qan-yaş tökən qara gözlərin
Bir vaxt çox incidib, ağladıb məni.

Keçmiş xatirələr qoy qalsın sənə,
Mənim bu günümü əlimdən alma.
Sən çox yalvarırsan sevirəm səni,
Məni o atəşə bir daha salma.

De, necə unudum indi mən səni,
Ürəyim eşqindən ayrıla bilmir.
Nə vaxt ki, yatıram sənsiz gecəni,
Yuxuma hicranla ayrılıq gəlir.

TELEFON

Bu səsdə boğuldum, batdım ilahi,
Necə gözəl səsdir mənlə danışır.
Hərdən zəng eyləyir mənim nömrəmə,
Sonra da söyləyir, guya ki çaşır.

Çaşıb bu nömrəyə zəng edən gözəl,
Məni alışdırır səsinin tonu.
Səni tapacam mən axır, ya əzəl,
Bir gün biləcəyəm kim olduğunu.

Gündə zəng edirsəın mənim nömrəmə,
Bu qədər yanılıb, çaşmaqmı olar?
Səni bənzədirəm nakam sevgimə,
Hər gün düşünürəm, bəlkə qayıdar.

Görən kim olacaq bu zəng eləyən,
Ünvanı bilinmir, yeri bilinmir.
Bir zaman "əzizim", "canımsan" deyən,
İndi zəng eyləyir, danışmır, dinmir.

Deyirdim çıxmışam sənin yadından,
Sənlə olan günlər silinib, itib,
Görürəm sən mənsiz çox darıxırsan
Səni görüşümə nömrəm gətirib.

O ötən günlərə qayıtmaq üçün
Mənə zəng edirsən hər səhər, axşam,
Yəqin xəcalətdən özün dinmirsən,
Ancaq qoymursan ki, sənsiz darıxam.

AYRILSAQ ÖLƏRƏM DEMƏ SƏN MƏNƏ

Ayrılsaq ölərəm demə sən mənə,
Mən bu ayrılığı istəmirəm ki.
Bir gün zaman gələr sevərsən yenə,
Sönər ürəyində bugünkü sevgi.

Yanımdan səssizcə keçib gedərsən,
Qızarar yanağın, utanar gözün.
Sən məni bir özgə, bir yad bilərsən,
Mən də yad olaram artıq sənunçün.

Keçmiş xatirələr incidər səni,
Özün öz qəlbinə yalan deyərsən.
Mənlə qoşa olan şəkillərini
Hər yerdə ikiyə kəsib bölərsən.

Ayrılsaq ölərəm demə sən mənə,
Bu da bir həyatdır keçib gedəcək.
Mən layiq deyiləm sənin sevginə,
Özünü bu qədər üzmək nə gərək?

BAĞIŞLA MƏNİ

Gözüm kölgəlidir sənin yanında,
Sən keçən tərəfə baxa bilmirəm.
Sevgidən, vüsaldan söhbət düşəndə
Danışa bilmirəm, dinə bilmirəm-
Bağışla əzizim, bağışla məni.

Vüsalın buz kimi donub gözümdə
Borana dönmüşəm, qara dönmüşəm.
Sənin mənə olan məhəbbətini
Ötəri hiss bilib yanıb-sönmüşəm-
Bağışla əzizim, bağışla məni

İndi fikrimdəsən hər gecə-gündüz,
Gecə yuxuma da gəlmirsən daha.
Sənə bir sözüm var nə vaxtdır mənim:
Səni and verirəm böyük Allaha-
Bağışla əzizim, bağışla məni.

QAYIT GƏL

Bilirəm geriyə dönməyəcəksən,
Uçmusan əlimdən qaranquş kimi.
Yenə də yolunu gözləyirəm mən,
Yenə də üzmürəm son ümidimi.

Bu necə məhəbbət, bu necə sevgi,
Ayrılıb getmisən, sevirəm səni.
Üzümdən tökülən həsrət deyil ki,
Yenə yatmamışam bütün gecəni.

Fikrlər qatışıb arzularıma,
Hərəsi bir yanda yorulub, qalıb.
Qara şəvə kimi gur saçlarıma
Sən gedən o yollar ağ cığır salıb.

Yoxluğun intizar, yoxluğun kədər,
Varlığın nazik bir teldən asılıb.
Səni gözləyirəm, gəlməsən əgər,
Mənə bir Kərəmlik, Məcnunluq qalıb.

Ey, mənim yoxluqdan var yaradanım,
Qaytar o gözəli, qaytar yanıma.
Odur bu həyatda suyum, dərmanım,
O gəlsin son qoyum bu hicranıma.

BAXIM GÖZÜNƏ

Çıxar eynəyini baxım gözünə,
O qara eynəkdə gözün gizlənib.
Axır göz yaşların gözəl üzünə
Elə bil üzünə qar səpələnib.

Çıxar eynəyini baxım gözünə,
Ədalı gözlərin nazını çəkim.
Çıxar eynəyini baxım gözünə,
Gözünə məhəbbət toxumu əkim.

Çıxar eynəyini baxım gözünə,
Silim gözlərindən həsrəti, kini.
Çıxar eynəyini baxım gözünə,
Yazım gözlərinə məhəbbətimi
Yazım gözlərinə məhəbbətimi.

GİZLİ GÖRÜŞ

Bu gizli görüşlər, gizli öpüşlər,
Bir gün ürəyimə od salacaqdır.
Üzümə duracaq o tənha evlər,
Tavanı üstümə uçuracaqdır.

Başımda fırlanan hicranin səsi
Göyərib qalxacaq yerdən ot kimi.
Üzümə duracaq sevgi nəğməsi,
Hamıya açacaq mənim sirrimi.

Dəmir çarpayı da donub qalacaq,
Onu incitməyim, əyməyim deyə.
Mənsiz boşalacaq yenə bir qucaq
Əlvida deyəcəm mən o sevgiyə.

SƏNİ GÖZLƏR

Ələyirəm dərdimi
Dərdimdən dərd tökülür.
Sənsizlik məni əyib
Qədəmlərim bükülür.

Dönüb həsrətə, qəmə
Ömürdən keçən günüm.
Söylə niyə gəlmirsən
Deyirsən sənsiz ölüm?

Baxışını gözümdən
Silməyib ötən illər.
Gözlərim bir limandı
Sahildə səni gözlər.

SEVİRƏM HƏLƏ

Özüm öz ruhuma olmuşam qənim,
Hərdən hislərimə sığal çəkirəm.
Qaraya bulaşıb mənim əllərim,
Özüm öz içimdə bostan əkirəm.

Alıram çiynimə ötən günləri,
Səfil sərgərdan tək çıxıram yola.
Sıxıb ürəyimə gələn səhəri,
Deyirəm sonrası nə ola, ola.

Dərdimi verirəm dağlar götürmür,
Qayalar hayqırır üstümə mənim.
Küləklər içimdə közü üfürür,
Ürəyim boğulur tüstümə mənim.

Yanıram köksümdə oçaq çatılıb,
Bir niskil ocağı, bir dərd ocağı.
O qızın gözləri üzümdə qalıb,
Bir ilk məhəbbətdir tək umacağı.

Bilirəm son catıb öləcəm belə,
Bu istək ruhumda donub qalacaq.
Mən yenə o qızı sevirəm hələ,
Ayrılsam dünyanın sonu olacaq.
Ayrılsam dünyanın sonu olacaq.

SEVGİ MƏKTUBU

Səndən nə gizlədim, düzünü bilsən,
Mən necə illərdi sevirəm səni.
Sən mənə sirdaşım, dostum deyirsən-
Dartıb uzadırsan o məsafəni.

Üzüb ürəyimi gizli məhəbbət,
Gecə yuxularım ərşə çəkilib.
Səninlə üzbəüz edəndə söhbət,
Nələr çəkdiyimi bir Allah bilib.

Səndən ayrılanda tutub başımı
Nə qədər özümü danlamışam mən.
Bəzən axıtmısan lap göz yaşımı-
Şikayət etmişəm özüm özümdən.

MƏNƏ NAZ EYLƏMƏ AY DƏLİ CEYRAN

Mənə naz eyləmə, ay dəli ceyran,
Baxışın, duruşun özgə sayaqdır.
Belə baxışınla bil ki, nə vaxtsa
Gözlərin gözümü yandıracaqdır.

Mənə naz eyləmə, ay dəli ceyran,
Üstündən, başından məhəbbət yağır.
Nə qədər sevgini gizlətsən də sən,
Görürəm ürəyin sözünə baxmır.

Mənə naz eyləmə, ay dəli ceyran,
Səxavət ruhuna yağış, qar yağar.
Bir az gec, bir az tez mənim olarsan,
Vüsala çevrilər şirin arzular.

Mənə naz eyləmə, ay dəli ceyran,
Nazın məhəbbətə, eşqə oxşayır.
Bir az da geciksən yandıracaqsan,
Məhəbbət alova, közə baxmayır.

İTİB

Alıbsan ruhumu əlimdən yenə,
Hər dərdi-sərinə durub dözürəm.
Doğma həyətimə çəpər yerinə
Məhəbbət çəkirəm, vüsal çəkirəm.

İtiyin itibdi, tapmaq çox çətin,
Torpağı ələyib quma qatıram.
Gözümü kor edib ilk məhəbbətim,
Bəlkə ona görə səni tapmıram.

Saçımı saçına qatdığım gecə
Alıb yuxuları aparıb gedib.
Mənim məhəbbətim getməyib heçə,
Sənin gözlərinin içində itib,
Sənin gözlərinin içində itib!

NİYƏ ÜRƏYİMƏ DƏYİRDİN MƏNİM

Sən məni incidib əyəcəkdinsə,
Bu qədər xətrimə dəyəcəkdinsə,
Mən səni sevmirəm deyəcəkdinsə
Niyə görüşümə gəlirdin mənim?

Bir həsrət töküldü ömür-günümə
Bilmədim dərdimi söyləyim kimə,
Gözün kül üfürdü mənim gözümə-
Niyə görüşümə gəlirdin mənim?

Günahım tək səni sevməyim idi,
Sən mənə bəxş etdin bir sevgi dərdi.
Sənsiz məhəbbətin dadı zəhərdi-
Niyə görüşümə gəlirdin mənim?

Getdin, əllərimə çatmadı əlin,
Getdin ürəyimi yandırdı dilin.
Sakitcə, dinməzcə çıxıb gedəydin.
Niyə ürəyimə dəyirdin mənim?

SƏNƏ DEYİLƏSİ SÖZLƏRİM ÇOXDU

Sənə deyiləsi sözlərim çoxdur,
Nə sən danışırsan, nə mən dinirəm.
Səni sevdiyimdən xəbərin yoxdu,
Sevgimi mən sənə deyə bilmirəm.

Səni hamıdan çox sevən mən oldum,
Bütün dost-tanışlar bildilər bunu.
Dünyada tək sənə, sənə vuruldum
Amma hicran oldu sevginin sonu.

Sənə deyiləsi sözlərim çoxdu,
Elə ki, görürəm quruyur dilim.
Səni sevdiyimdən xəbərin yoxdu,
Amma mən deyirəm sənə sevgilim.

GETSƏN MƏN SƏNİN ÜÇÜN DARIXACAĞAM

Getsən, mən sənincün darıxacağam.
İtəcək ünvanım, itəcək yolum.
Nakam məhəbbətə yas tutacağam,
Mənə bir ümid ver, qurbanın olum.

Dolacaq həsrətin odu qəlbimə,
Məni yandıracaq gündə min dəfə.
Qurban kəsəcəyəm sən gələn günə,
Sənsiz günlərimi düzərək səfə.

Yorğun baxışların, gül dodaqların,
Qonağı olacam yuxularda mən.
Mənə uzanacaq sənin qolların,
Mənsə deyəcəyəm səni sevirəm.

Getsən mən sənincün darıxacağam,
Hər yerdə gözlərim gəzəcək səni,
Ayrılıq nəğməsi oxuyacağam,
Bəlkə eşidəsən mənim səsimi.

Bütün görüşlərin sonu ayrılıq,
Sirli bir aləmə gəlib düşmüşəm.
Yox, gülüm, sənlə bir olmalıyıq,
Yoxsa bu həsrətdən öləcəyəm mən.

SARI GƏLİN

Sən ki belə şirinsən,
Baldı baxışın, üzün.
Bir mahnı bir, nəğmədir
Hər söhbətin, hər sözün.
Günəşin şəfəqləri
Zərrəsidir tellərin-
Sarı gəlin.

Gülüşündən nur düşür,
İnsanların gözünə.
Bəsdi, bəzək vurursan,
Dodağına, üzünə.
Sən o qədər gözəlsən,
Tapammıram söz sənə.
Çayların nəğməsidi
Barmaqların, əllərin-
Sarı gəlin.

Bir sevgi dəryası var
Çağlayır ürəyində.
Bir həyat eşqi yaşar
Arzunda diləyində.
Qamətin gözəlliyin,
Hər bir şeyin yerində.
Gülüşündür dünyada
Var dövlətin, gövhərin-
Sarı gəlin.

GÖZLƏRİN KİMƏ BAXSA MƏNİ ORDA GÖRƏCƏKSƏN

Fikirləşmə ayrılıb getmisən məndən uzaq,
Ürəyim harda olsa, bil ki, səni tapacaq.
Çağır məni, əzizim, çağır eşqinə qonaq,
Bilirəm bu eşqimiz haçansa görüşəcək-
Gözlərin kimə baxsa, məni orda görəcək.

Əllərimin əlində sığalı var, izi var,
Gözlərimdən gözündə bir sevgi seli çağlar.
Hər nə varınsa məndə, gəl geri al, gəl apar,
Amma bu baxışların gözlərimdə gəzəcək-
Gözlərin kimə baxsa, məni orda görəcək.

Sən çıxara bilməzən məni öz ürəyindən,
Axı sən mənimkisən mən də ki, səninkiyəm.
Çoxları haray çəkir bu dəlisov sevgimdən,
Əgər bir az qocalsam, gözə taxsan da eynək-
Gözlərin kimə baxsa məni orda görəcək.

SEVƏNLƏR MƏKTUBU QƏLBİNƏ YAZIR

Sevənlər sevgisin məktuba yazmır,
Yazır ürəyinə, yazır gözünə.
Göydən vüsal yağır, ayrılıq yağır,
O, ən gözəlini seçir özünə.

Sevənlər sevgisin məktuba yazmır,
Bu arzu kağıza sığışan deyil
Hər bulud çaxanda yağış da yağmır,
Hər gələn sevgi də, bil, sevgi deyil.

Sevənlər sevgisin məktuba yazmır,
Gizlədir qəlbində heç kim bilməsin.
Heç vaxt eşq yolunda yolunu azmır,
Bir dəfə işlədir sevgi kəlməsin.

AYRILIQ GÖZ İLƏ QAŞIN ARASI

Sən ki, incimişdin, küsmüşdün məndən,
Demişdin bir daha qayıtmayacam.
Nə olub yenə də dönüb gəlmişəm
Deyirsən bir günlük sənə qonağam.

Üzündən, gözündən intizar yağır,
Sıxıla-sıxıla baxırsan mənə.
Get ötən günləri, keçmişi çağır,
Bəlkə kömək ola o günlər sənə.

Yanağın dayaqdı kirpiklərinə,
Tökülür gözündən həsrət, intizar
Hər nə istəyirsən yığ gözlərinə
Məndən xatirətək özünlə apar.

Ayrılıq göz ilə qaşın arası,
Orda ildırımlar çaxar çağlayar
Kamına çatmayan sevgi dünyası
Dönüb keçmişinə baxar, ağlayar.

MƏNSİZ DARIXACAQSAN

Mənsiz darıxacaqsan
Göz yaşların axacaq
Töküləcək üzünə.
Mənsiz darıxacaqsan,
Min lənət deyəcəksən
Bir vaxt özün-özünə.

Bu sevginin odunda
Alışıb yanacaqsan.
Ötən günlərə görə
Hər vaxt utanacaqsan.

Bu ayrılıq, bu həsrət
Saçında dən olacaq.
Məndən sənə ayrılıq,
Bir də həsrət qalacaq.

Mənsiz darıxacaqsan,
Mənlə keçən günləri
Yadına salan kimi
Hər vaxt daşıyacaqsan
Qəlbində gizli-gizli
Mənim gizli sevgimi

QALACAQ

Gözlərimin işığısan,
Getsən gözüm kor olacaq.
Əlim-əlinə çatmamış
Bu kül göyə sovrulacaq.

Sevdam küsüb itəcəkdir,
Qəlbimdə daş bitəcəkdir.
Sevda özü bir köynəkdir
Geyinməsə, boş qalacaq.

Gəl ayırma məni məndən,
Susuz olmaz yaşıl çəmən.
Bu əvvəlki sən deyilsən,
Qoyma sönsün o od-ocaq.

SON GÖRÜŞ

Dedin son görüşdür, bəsdir, ayrılaq,
Bütün olanların sonu yetişdi.
Ayağım altında titirədi torpaq,
Dünya da gözümdə döndü, dəyişdi.

Dedin gəl ayrılaq vaxtsız, vədəsiz,
Bir də görüşməyə gümanımız yox.
Demədin mən necə yaşayım sənsiz,
Səndən çox incidim, əzizim, lap çox.

Dedin gəl ayrılaq, qismət belədir,
Sən də özgəsiylə xoşbəxt olarsan.
Tək sənə yazılmadı ayrılıq dərdin
Sənin də bəsindir onu daşısan.

DEYİRSƏN TANIŞ OLAQ

Deyirsən tanış olaq,
Çox gecdi, gözəl qadın.
İnan səni sevməyə
Qalmayıb ruhum, canım.

Harda idin qəlbimdə
Alışanda ocaqlar.
Söylə yaydan çıxan ox
Bir də geri qayıdar?

Könlüm yaşada bilməz,
Bu gizli məhəbbəti.
Sən canın qoy oturum,
Qurtar bu boş söhbəti.

Mənim nəyimi sevdin,
Bilmirəm birdən-birə
Sən Allahın, sevgindən
Nağıl demə boş yerə.

GƏL KƏNDİNƏ QAYIT, QARDAŞ

Burda yaman duman-çəndir,
Sel bürüyüb bütün kəndi.
Arzularım sənlə təndi,
Qocalıram yavaş yavaş,
Gəl kəndinə qayıt, qardaş.

Soruşursan nə var, nə yox,
Çoxu acdır, acıysa tox.
Oğrusu yox, filanı yox,
Qul acıbdı daş üstə daş,
Gəl kəndinə qayıt, qardaş.

Keçəl Həsən, Eyvaz kişi,
Torbaya qoymur kişmişi.
Doğulanın çoxu dişi,
Yoxdu duyan-bilən bir baş,
Gəl kəndinə qayıt, qardaş.

Aşıq Qulu, aşıq Həsən,
Mahnı demir gur səsiynən.
Cavanların saçları dən,
Toylarda da yoxdu savaş,
Gəl kəndinə qayıt, qardaş.

QAYIT

Sən gedirsən, arxanca baxıram
İstəmirəm getməyini.
İstəyirəm səni geriyə çağıram
Bağışlayam mənə etdiyin hər nəyini.
Gücüm çatmır sənə qayıt sözün deməyə,
Bir kəlmə söz su dolu fincan tək
düşüb dağılır küçəyə.
İstəyərəm səni evnizə qədər ötürüm,
Heç olmasa son dəfə bizi həmişə
birlikdə görən qonşular görsün.
Getdiyin kiçik zamandı,
Yaman darıxıram sənsiz
Elə bil ölmüşəm qalmışam sən gedən küçədə,
Qəbirsiz, kəfənsiz.
Yox, yaşaya bilmirəm ürəyimi didən
Ağrı-acılarla.
Səni məndən alıb məni tənha qoyan
Bu vüqarla.
Ehey, qayıt, qayıt gəl, sənsiz mənə həyat yoxdu.
Baxıram bu ayrılıqda mənim günahım,
sənin kindən çoxdu,
qayıt, qayıt gəl!

BAĞIŞLA MƏNI

Ömür-gün yoldaşım, incimə məndən,
Sənə az deyilib şerimin sözü.
Sən elə bir gözəl şirin nəğməsən
Səndən bu qələmim yazammır, düzü.

Sən mənə dünyada ən yaxın həmdəm,
Dərdli günlərimin sirdaşı, yarı.
Sənin haq-sayından çıxa bilmərəm,
Sən Allah, sən məni bağışla barı.

Səni incitmişəm yerli, ya yersiz,
Heç nədən başına od ələmişəm.
Sən hər vaxt olmusan ləpəsiz dəniz,
Mən isə kükrəyib, coşub daşmışam.

Çoxlu yalanıma inanmısan sən,
Üzümdən bilmisən kefim necədir.
Mən səni söymüşəm, xoş söz demisən,
Demisən dədəniz dəlidir, nədir.

Qaçıb gizlənmisən hirslənən zaman,
Üzümə qayıdıb söz deməmisən.
Yaxşı yol demisən, su da atmısan.
Səndən ayrılanda, yol gedəndə mən.

Dərdimiz bir olub, sevincimiz bir,
Oğul-qız böyüdüb çatmışıq yaşa
Zaman saçımıza ağ dən səpibdir
Nümunə olmuşuq dosta, yoldaşa.

MƏNİM DEYİLSƏN

Eh, sənə nə deyim mən,
Uçub getdin əlimdən.
Neçə illər geçsə də,
Adın düşmür dilimdən.

Ürəyimi, eşqimi
Oda atıb getmisən,
Qəlbimdə nisgil qalıb,
Heyif mənim deyilsən.

Arzularım arzuna,
Qatışıq çıxıb gedib.
Ümüdlərim sən gedən
Yollarda düşüb itib.

Ümüdimi, eşqimi,
Oda atıb getmisən.
Qəlbimdə nisgil qalıb,
Heyif mənim deyilsən.

GÖZLƏRİM GÖZLƏRİNƏ QOŞULUB ÇIXIB GETDİ

Gözlərinə baxmaqdan utandı bu gözlərim,
İstəmədim gözündə o hicranı görüm mən.
Səni görəndən sonra gec açıldı səhərim,
İntizarın asıldı mənim kirpiklərimdən.

Nə qədər çalışdımsa baxammadım üzünə,
Gözlərin gözlərimi qovaladı üzündən.
Ümidlərim qul oldu sənin salam sözünə,
Quruca salamı da alammadım sevincdən.

İllərlə ağrısını çəkmişdim bu görüşün,
Səni görəndən sonra hər şey yox oldu, bitdi.
Sən hər yerdə həmişə mənimsən demək üçün
Gözlərim gözlərinə qoşulub çıxıb getdi.

23.12.2023.

SƏN ALLAH, AĞLAMA, MƏNİ GÖRƏNDƏ

Yaman qızarmısan, dolub gözlərin,
Üzündə həsrətin naxışları var.
Həmişə qəlbimdə görünür yerin,
Hər yerdə gözlərim səni axtarar.

Sən mənim qızılım, sən mənim zərim,
Səni unutmağa gümanım yoxdu.
Sən mənim göz yaşı bitən gözlərim,
Sənə ehtiyacım hamıdan çoxdu.

Sən Allah ağlama məni görəndə,
Gözlərim gözünə qoşulub ağlar.
Mən heç vaxt bilməzdim səni sevəndə,
Bu eşqin sonunda ayrılıq da var.

Axır yanağından isti göz yaşı,
Dolan bulud kimi baxırsan mənə.
Bəsdir ətəyindən tök sən bu daşı-
Bir də dönəmmərik o keçən günə.
Bir də dönəmmərik o keçən günə.

22.12.2023.

SƏNİ GÖRMƏYƏ GƏLMİŞƏM

Səni görməyə gəlmişəm,
Nıyə çıxmırsan önümə?
Niyə qənim kəsilmisən?
Mənim ömrümə günümə.

Səni görməyə gəlmişəm,
Bu qədər illər keçsədə
Yenə bir ümid yeri var,
Tənha qalan bu sevgidə.

Səni görməyə gəlmişəm,
Bitib, tükənibdir ömür.
Cavanlığım qəh-qəh çəkib
Bu günkü sevgimə gülür.

Səni görməyə gəlmişəm,
Bilən məni qınayacaq.
Bir də təzdən alışarmı
İllər boyu sönən ocaq.

Səni görməyə gəlmişəm,
Bir əlim daş biri qaya,
Səni görməyə gəlmişəm,
Sənlə gedəm o dünyaya.
Sənlə gedəm o dünyaya.

SƏNİ İSTƏMİRƏM, SEVMİRƏM DAHA

Ayrılıq hicranı yollara sərib,
Özüm öz içimdə olmuşam qərib.
Sənsizlik qəlbimi daşa döndərib,
Daha ümüd yoxdu gələn sabaha,
Səni istəmirəm, sevmirəm daha.

Göz yaşı üzümdə cığır salıbdı,
Sənsizlik məni məndən alıbdı.
Bütün dərd-kədərin mənə qalıbdı,
Eybi yox, qoy batım naləyə, aha,
Səni istəmirəm, sevmirəm daha.

Nə oldu, dəyişdin birdən yolunu,
Nə tez unutmusan sağın-solunu.
Özgə boyunlara dola qolunu,
Gəl məni batırma bir də günaha
Səni istəmirəm, sevmirəm daha.

Sən məni atmışdın dəli bir selə,
Nə üzlə qayıdıb gəlmisən belə.
Yox olub eşqimə qurduğun tələ
İndi gör ayrılıq ucuzdu, baha,
Səni istəmirəm, sevmirəm daha.

Elə yazıq-yazıq baxma üzümə,
Məhəbbət borcludur gözün gözümə,
Deyirsən, mən sənsiz ölərəm, ölmə,
Get, səni tapşırdım böyük Allaha,
Səni istəmirəm, sevmirəm daha,
Səni istəmirəm, sevmirəm daha.

25.02.2019.

YAXŞI Kİ, GƏLMƏDİN

Yaxşı ki, gəlmədin, görmədim səni,
O son görüşümüz nəyə gərəkmiş.
Demə həmin o gün mənim qəlbimdə
Səni ömrüm boyu gəzdirəcəkmiş.

Yaxşı ki, gəlmədin, o soyuq axşam
İllərdi üşüdür, dondurur məni.
Sənsiz tənha qalıb cox ağlamışam
Sən məni yad edib ağlayan kimi.

Yaxşı ki, gəlmədin yoxsa ölərdim
O son sözlərini eşidəndə mən.
Könlümə od vurub yandıran dərdim
Başıma ələrdi yandığım küldən.

Yaxşı ki, gəlmədin,utandığımdan
Gözünün icinə baxa bilməzdim.
Səni əvvəlki tək öpüb, oxşayıb
Bu soyuq köksümə sıxa bilməzdim.

Yaxşı ki, gəlmədin, eh nə deyim mən,
Bu sevda beləcə ötüşdü, itdi.
Sən o son görüşə gəlmədiyindən
Gözüm o yollarda düşüb itibdi,
Gözüm o yollarda düşüb itibdi.

SƏNLİ XATİRƏLƏRİM

Sənlə keçən günlərim yadıma düşüb yenə,
Fikirlərim dolaşır günün ilmələrində.
Bu gecə yuxumuzda sevirəm dedim sənə,
Yenə zığ-palşıq vardı kəndin küçələrində.

Yenə sudan gəlirdin vedrələrin əlində,
Köhnə ayaqqabılar ayağından qaçırdı.
Yenə məni görən tək donub qaldın yerində,
Gözlərindən gözümə bir ildırım çaxırdı.

Dedim sevirəm səni qızardı yanaqların,
Gözlərindən gözümə alov düşdü elə bil.
Mən də səni sevirəm söylədi dodaqların,
Bu bir düz həqiqətdir köhnəlmiş yuxu deyil.

O gündən məhəbbətin qoyuldu ilk təməli.
İlk məhəbbət adlanan sevda yağdı başıma.
Bir gün mən itirəndə sən tək nazlı gözəli,
Kəndin boş küçələri boğuldu göz yaşıma.

İllər keçib dəyişdi hökmünü verdi zaman,
Silinmədi qəlbimdən keçdiyin o cığırlar.
Sən məndən ayrılsan da hər gecə yanımdasan,
Səni mənə gətirir zığlı palçıqlı yollar.
Səni mənə gətirir zığlı palçıqlı yollar.

04.02.2024.

NEYNİRƏM BU DÜNYANI SƏN Kİ, MƏNİM DEYİLSƏN

Yağır yağışlar kimi üstümə yad baxışı,
Uzümdə bahar gəzir, könlümdə tale qışı,
Məni duyub-anlamaz, heç vaxt dilbilməz naşı,
Yenə payız yelidi başımın üstən əsən.
Neynirəm bu dünyanı, sən ki, mənim deyilsən.

Günlər, fəsillər keçir, dəyişir aylar, illər,
Məni öz aləmindən ayrı salır dərd-kədər,
Bir zamanlar deyirdim ötəri hisdir, keçər,
Sənsiz qalıb diksinib, ayılmışam bu səsdən,
Neynirəm bu dunyanı, sən ki, mənim deyilsən.

Daha inanmıram mən sevgi nağıllarına,
Çox Məcnun donu geyib cıxmışam yollarına.
İstəyirsən döy məni, istəyirsən lap qına,
Sənsiz dəli kimiyəm bu gün düzünü bilsən,
Neynirəm bu dünyanı, sən ki, mənim deyilsən.

Arzularım arzundan aralı düşüb qalıb.
Həsrətin ürəyimə hicrandan körpü salıb,
O günlərdən bu ğünə təkcə ayrılıq qalıb,
Geri dön, qayıt gülüm, əgər məni sevirsən,
Neynirəm bu dunyanı, sən ki, mənim deyilsən.

MƏNİ SEVDİYİNƏ AZ İŞARƏ VER

Məni sevdiyinə az işarə ver,
İllərdi gözümdə donub qalmısan.
Məcnun taleyimlə eyləmə alver,
Qəlbimdə nə vardı, sən aparmısan.

Sən gedən yolların tikişlərini,
Gözlərim nə vaxtdır söküb, atıbdır.
Sən çıxıb getmisən, olanlarımı
Ayrılıq nəverim pula satıbdır.

Tərs, avand görmüşəm yuxularımı,
Diksinib durmuşam gecəyarısı,
İllərdir qəlbimdə olanlarımız
Sənsiz tənha qalıb, ölüb hamısı.

Məni sevdiyinə az işarə ver,
Bu yaşda,bu çağda dəlisən, nədi.
Sənli günlərimi çağırdım geri
Baxıb gülümsədi, geri dönmədi,
Baxıb gülümsədi, geri dönmədi.

SƏN GƏTİRMİSƏN

Sənsiz darıxmışdım neçə illərdi,
Gümanım yox idi bir də görüşək.
Səni bu məclisə Allah göndərdi-
İtməsin sevgimiz xatirələr tək.

Gizlicə-gizlicə baxırsan mənə,
Saçının telləri qaralı-ağlı.
Bilirsən mən səni sevirəm yenə,
Sənsə sevginin sonu suallı.

Gəldin, ötən günlər başıma yağdı,
İtdim xatirələr dünyasında mən,
Gördüm ki, sevgimiz yenə də sağdı,
Onu bu məclisə sən gətirmisən.
Onu bu məclisə sən gətirmisən.

AĞLAMA

Ağlama, göz yaşlarına bulayıb
İtirərsən məni,
Kirpiklərin göz yaşlarının arxasınca
baxıb darıxar,
Sığallayar bir-birlərini.
Ağlama, gözlərində olan məhəbbət
qatışıq göz yaşları
Tökülər səni məndən ayıran
hicranın yollarına.
Ağlama, qoruya bilmədim nə səni,
nə də səndə olan sevgimi.
Ağlama, sevən gözlərindən
silərsən şəklimi.
Ağlama, ağlama.

HARDAN SƏN YADIMA DÜŞDÜN BU GECƏ

Taleyin günləri illərdən ağır,
Başıma göylərdən kədər, qəm yağır.
Ömrümün qüruba dönən çağıdır,
De, səni unudum indi mən necə.
Hardan sən yadıma düşdün bu gecə?

İllərin üstünə illər qalanıb,
Sənli məhəbbətim itib, talanıb.
Həsrət ürəyimi min yol dolanıb,
Sənsiz ağlamışam aşkar, gizlicə.
Hardan sən yadıma düşdün bu gecə?

İtib təqvimimdə günlərin adı,
Çönüb zəhrimara sevgimin dadı.
Qırılıb eşqimin qolu, qanadı,
Mən necə bunları almayım vecə,
Hardan sən yadıma düşdün bu gecə?

Zamanın çarxını qaytarmaq çətin,
Keçmiş xatirələr qalanıb çin-çin.
İtmişəm içində dərdin, möhnətin,
Həsrətəm xoş günə, adi sevincə,
Hardan sən yadıma düşdün bu gecə.

Ramizəm, sadiqəm o məhəbbətə,
Yaxşılar layiqdir hər bir hörmətə.
Hər şey sona yetib çox gecdi məncə,
Hardan sən yadıma düşdün bu gecə,
Hardan sən yadıma düşdün bu gecə.

SƏNİ İTİRMƏK

Həsrətdi, nisgildi, ürək dağıdı,
Səhərin axşama çatan çağıdı,
Bir qızın hönkürüb ağlamağıdı
Səni itirmək.

Obası dağılan, köçən el köçü,
Dərdlinin üstünə düşən dərd yükü,
Bir sevən ürəyin yarımçıq ömrü-
Səni itirmək.

Sazın simlərində yanan "Dilqəmi"
Dalğaya tuş gələn tənha bir gəmi,
Alışan, od tutan bir barlı zəmi-
Səni itirmək.

Yönünü dəyişən bulaqdı, çaydı,
Heç yerə çatmayan haydı, haraydı
Daşları sökülən, uçan saraydı
Səni itirmək.

Şaxtadı, çovğundu, qardı, borandı
Bir anda dayanan, duran zamandı,
Candan ayrı düşən bir ayrı candı-
Səni itirmək.

Simləri qırılan sədəfli sazdı,
Ürəklər oxşayan çiçəkli yazdı,
Bizi yarı bölən qəmli Arazdı-
Səni itirmək.

Dəli dağ çayının hay-harayıdı,
Bir ana sevgisi, haqqı, sayıdı,
Geriyə qayıdan bayram payıdı-
Səni itirmək.

Baharın vurduğu gül naxışıdı,
Sevgi yağışıdı, göz yağışıdı,
Üzdə donub qalan qız baxışıdı-
Səni itirmək.

SƏNSİZ

Gəl, ömrü yarıda qoyma, sən belə
Hələ keçilməmiş sədlərimiz var.
Gərək zirvələrə qalxım səninlə
Sənsiz bu yollarda ürək yorular.

Gəl, arzum, istəyim, ümidim ol, sən,
Bəyaz gecələrim sənsiz keçməsin.
Ömrümün darısqal keçidlərindən
Köhnə cığırların batıb itməsin.

Gəl, ətir qoxusun yenə çəmənlər,
Çəkilsin gözümdən həsrətin izi.
Eşitsin bugünkü sevib-sevənlər
Necə qaytarmışıq ilk eşqimizi.

AYRILIQ

Gözlərimdən həsrət yağıb
tökülür saçlarına,
Hörüklərin islanır.
Sən də, mən də bilirik
bu görüşün sonunda
hicran dayanır.
Aldadırıq bir-birimizi
sən məni, məndə səni,
Ağlayanda oyuncaq verib
susdurulan uşaq kimi.
Suni gülüşlərin arxasında
gizlənən hicran
gülür hər ikimizə.
Zaman kecəcək
bu görüşlər
çevriləcək dərdimizə
düşəcək arxamızca,
Biz gedəcəyik o qalacaq,
anası evdə qoyub gedən
tənha uşaq olacaq
Cağıracaq, səsinə səs verən
olmayacaq,
ağlayıb-ağlayıb yorulacaq.
Atasız anasız
yetim uşaq olacaq.

O QIZA DEMƏYİN, DƏLİYƏM ONSUZ

Sonuncu ocağı catıb gedirəm,
Hər şeyi bir yana atıb gedirəm,
Dərdimi, dərdlərə qatıb gedirəm,
O qıza deməyin dəliyəm onsuz.

Başımın üstünü duman-cən alıb,
Eşqimin üstündə dərd lövbər salıb.
Yaramın qaysağı bir az sozalıb,
Ö qıza deməyin dəliyəm onsuz.

Bu günüm yamaqdı xatirələrə,
Ömrü qurban verdim kecən günlərə.
İndi mən qonağam min dərdə-sərə,
O qıza deməyin dəliyəm onsuz.

Qoy məni sevməyib, sevməsin daha,
O sevda mənimcün bahadan-baha.
Sizi and verirəm böyük Allaha,
O qıza deməyin dəliyəm onsuz.

Soruşsa deyin ki eləcə varam,
Sevda yollarında qulam, zəvvaram,
Mənəm-mənəmliklə hec yoxdur aram,
O qıza deməyin dəliyəm onsuz.

Ramizi özünə bir özğə sanır,
Daşdır, ürəyində göyərib mamır,
Gözləri gözümü sevmir, oxşamır,
O qıza deməyin dəliyəm onsuz.

GƏL QAYIDAQ O GÜNLƏRƏ

Yalqız qalıb o dağ, dərə,
Həsrət yağıbdı çöllərə,
Sığal çəkib tər güllərə-
Gəl qayıdaq o günlərə.

Bitim qalım yolun üstə,
Sən də məni çağır, səslə,
O ilk arzu, ilk həvəslə
Gəl qayıdaq ogünlərə.

Yavaş-yavaş, asta-asta,
Yağış, qar bizi islatsa,
Səndə mənə istək varsa
Gəl qayıdaq o günlərə.

Coşaq,daşaq dəniz kimi,
Ziyandan dönmək gecdimi?
Sənə verəcəm eşqimi-
Gəl qayıdaq o gunlərə.

Gözlə qaş tək qoşa olaq,
Yolumuzda yansın çıraq.
Ötən günü tək qoymayaq-
Gəl qayıdaq o günlərə.

Yollar atsın, tutsun bizi,
Dağa verək dərdimizi,
Götürüb ilk eşqimizi
Gəl qayıdaq o günlərə.

TƏZƏDƏN SEVMİŞƏM

Nigaran-nigaran üzümə baxıb
Soruşma təzədən sevmək olarmı.
Sənin məhəbbətin qəlbimə axıb,
Belə bir sevgi də unudularmı.

Sənin tək gözəli sevməmək çətin,
Ürəyim daş deyil qala yanında.
Məni dəli edən bu məhəbbətin
Əsiri,quluyam mən də bu anda.

Ömürdən ötüşən, keçən günlərim
Buz olub donubdu kirpiklərimdə.
Yox olub qəlbimdən dərdim, kədərim
Təzədən sevmişəm səni sevəndə.

Mənə çox ağırdı bu hicran yükü,
Qamətim əyilə, qırıla bilər.
Qəlbimdən silinib hər qorxu-hürkü
Sevgiyə layiqdi hər an sevənlər,
Sevgiyə layiqi hər an sevənlər.

PEŞMANSAN İNDİ

Sən ki, bir zamanlar cox gözəl idin,
Nazından, qəmzəndən od tökülərdi.
Cavan olan vaxtı elə bilirdin,
Sənə aid deyil dünyanın dərdi.

Çiçək tək dolaşdın, gəzdin əlləri,
Çox gözəl məkanlar oylağın oldu.
Hər gün bir qucaqda açdın səhəri,
O gözəl bənizin saraldı, soldu.

Bütün gözəlliyin heç oldu getdi,
Oldun tənha qalan yalqız bir qadın.
O günlər ömründə bir qara xətdir,
Sən o gözəlliyə layiq olmadın.

Getdi gözəlliyin, getdi gəncliyin,
Hanı o günlərin abı-havası?
Lazımsız əşyaya döndü mənliyin,
Matəmə çevrildi sevgi laylası.

Üzündə-gözündə peşmançılıq var,
Sönub gözlərində o od, o ocaq.
Get ötən günləri geriyə qaytar,
Yoxsa ki, ürəyin ovunmayacaq.

HARA APARIRSAN BU GÖZƏLLİYİ

Məhəbbət tökülür baxışlarından,
Dünyanın nazına bulaşıb üzün.
Az qalır o qönçə dodaqalarından
Ətrafa bal süzsün, şəkər tökülsün.
İtir küçələrin sükut dincliyi,
Hara aparırsan bu gözəlliyi?

Gedirsən, saçını darayır külək,
Tellər yanağına, üzünə düşür.
O şıltaq küləklər səni öpərək
Yanıma tələsir, mənlə görüşür.
Rəssammı yaradıb bu qaş, kirpiyi?
Hara aparırsan bu gözəlliyi?

Kimdi o bəxtəvər gözləyən səni,
Bu qədər gözəllik yıxar kı, onu.
Səni ki, yaradan belə yaradib,
Vallah yetişəcək dünyanın sonu.
Burax bu ədanı, burax tərsliyi
Hara aparırsan bu gözəlliyi?

Günəş də düşübdü sənin arxana,
Yanında-yörəndə kölgəyə dönür.
Sən ki, yeriyirsən ayaqlarında,
Məhəbbət məhv olur, sevgi sürünür.
Hər kəsin özünə qalır pisliyi
Hara aparırsan bu gözəlliyi?

Görən Məcnunların xəbəri varmı
Təzə Leylilərin doğulmağından.
Əslinin yolunda Kərəm yanmışdı,
Sən ki, milyon dəfə gözəlsən ondan.
Şirindən öyrəndin sən bu mərdliyi?
Hara aparırsan bu gözəlliyi?

Get, ağlın, kamalın kölgəsindəsən,
Üstünə Allahın nuru tökülüb.
Sən insan deyilsən, vallah, mələksən,
Xoşbəxtlik ömürlük üzünə gülüb.
Yadımdan çıxardın bütün hər şeyi
Hara aparırsan bu gözəlliyi?

MƏHƏBBƏTİN BUDUR BELƏ

Məni oda salan gözəl,
Məhəbbətin budur belə?
Ay hər şeydən mənə əzəl,
Məhəbbətin budur belə?

Salmısan oda qəlbimi,
Unutmur könlüm eşqini.
Bu sevda düşdü itdimi?
Ya verdin sən əsən yelə,
Məhəbbətin budur belə?

Tənha qaldı xoş günümüz,
Yoxa çıxdı səs-ünümüz.
Vüsal bağı qaldı gülsüz,
Sən qoşuldun axan selə,
Məhəbbətin budur belə?

Gözün gözümdə gizləndi,
Bu nə duman, bu nə çəndi?
Sənsiz könlüm qəhərləndi.
Göz yaşlarım gəldi dilə,
Məhəbbətin budur belə?

Harda qaldı ötən çağım,
Niyə söndü od-ocağım?
Tək sən idin umacağım,
Gözləyirəm səni hələ
Məhəbbətin budur belə?
Məhəbbətin budur belə?

HƏR İKİMİZƏ

Bəhanə eyləmə olub keçəni,
Olanlar olubdur, keçənlər keçib.
Əgər sən bu qədər sevirdin məni
Niyə aldadırdın məni and içib.

Qısqanıb hamıya hər yerdə məni,
Deyirdin mən sənin eşqin, canınam.
Görünür nə qədər illər lazımdır,
Mən səni dərindən duyam, tanıyam.

Hər addım başında küsməyin nahaq,
Nəyinə gərəkdir bu naz, bu qəmzə.
Bizi bu ayrılıq darıxdıracaq,
Əziyyət verəcək hər ikimizə.

YAŞIN NƏ FƏRQİ

Saçımın ağ dəni üşüdür səni
Qəlbimin odundan xəbərin yoxdu.
Qocalığa görə qınama məni,
Hələ yaşayacaq günlərim çoxdu.

Hələ sevmək üçün qəlbimdə od var,
Hələ yormayıbdır yoxuşlar məni.
Tez ölsəm çox arzum yarımçıq qalar,
Bir də sevənmərəm məni sevəni.

Bir də bir ömürdü keçəcək belə,
Salma ürəyimə bu ağır dərdi.
Bu yaşda azacıq cavanam hələ,
Bir də ürək sevsə yaşın nə fərqi.

BU QIZA

Əllərinin istisi əllərimi yandırar,
Qalanda üşütməz məni yağış boran qar.
Ürəyimdə keçmiş bir məhəbbət baş qaldırar
Eşqim məni qaytarar gül-çiçəkli bir yaza
İndi mən nə söyləyim qarşımdakı bu qıza.

Ədası, göz qaşıyla məst eyləyir adamı,
Bu qıza heyran olub bütün şəhər, kənd hamı.
Alıb əlimədən alıb mənim sevgi dünyamı.
O bahara mənimsə yolum gedir payıza,
İndi mən nə söyləyim qarşımdakı bu qıza.

Saçına sığal çəkib çiçəklərin jaləsi,
Yanağında bitibdir dağların al laləsi.
Dodaqları ətirli qızıl gülün qönçəsi,
Hər tərəfi bürünüb xoş ətirə, xoş naza,
İndi mən nə söyləyim qarşımdakı bu qıza.

APAR MƏNİ

Apar məni o dağların qoynuna,
Çiçəkləri gözlərimə sürtəcəm.
Çıxacağam Bataabatın yalına,
Zor bulağın dodağından öpəcəm.

Qucacağam meşələri,yolları,
Dərələrdə ocaq qurub çatacam.
Oxşayacam çiçəkləri, kolları,
Alacıqda yatıb qonaq qalacam.

Apar məni o dağların qoynuna,
Xan bulaqda əl üzümü yuyum mən.
Apar məni o dağların qoynuna,
Öpüm yalın yamacların gözündən.

ÖZÜN GÜNAHKARSAN

Özün günahkarsan bu olanlara
Niyə ağlayırsan dalımca belə
Soyuq qış gətirdin güllü bahara,
Hər şeyi yox etdin sən bilə-bilə.

Ağlama göz yaşın isladar məni
Sənin həsrətinlə yandığım bəsdi.
Çox çəkdim məhəbbət sevgi dərdimi
Bugünkü olanlar bəsdi əbəsdi.

Özün günahkarsan bu olanlara
Qəlbimdən silinib gedəcək izin.
Ağlama göz yaşın axıb tökülər
Dəyişər rəngini çayın, dənizin.

Özün günahkarsan bu olanlara
Özü yıxılanlar heç vaxt ağlamaz
Bəsdi gözlərinin yaşı quruyar.
Bəsdi ağlamaqla heç bir şey olmaz.
Atalar bu haqda gözəl deyiblər
Özü yıxılanlar heç vaxt ağlamaz.

NAKAM SEVGİ

Gözüm gözlərini unuda bilmir
Bu nə ayrılıqdır, bu necə hicran.
Heç nə ürəyimdən izini silmir,
Gözümün içində durub qalmısan.

O hicran deyilən budurmu görən?
Heç nə unudulmur çıxmır yadımdan.
Hər gün ürəyimdən gəlib keçirsən
Təmasda olursan arzularımnan.

Unutmaq nə çətin iş imiş Allah,
Hər şey çözələnir qayıdır geri.
Bir anda yuyulur ən böyük günah
Yaranır sevginin bir şah əsəri.

Mən bu ayrılıqdan baş açanmıram
Saçımı ağardıb büküb belimi
Min yol alışmışam, min yol yanmışam.
Əsli xan Kərəmi yandıran kimi.

Ömürdə sayılı günlərim qalıb,
Buraxmır yaşıyam bu beş on günü
Kim deyir hicranın ömrü azalıb.
O hər vaxt çağlayır bulaqlar kimi.

YORULMUŞAM MƏN

Köçüb talehimin durna qatarı,
Payıza qız gəlib baharda ömrüm.
Həsrət bağlayıbdır bütün yolları,
Kədərlə ötüşür hər keçən günüm.
Eşqim imdad tapır xatirələrdən
Son vaxtlar yamanca yorulmuşam mən.

Fikrimi əlimdən var xəyallar,
Çiçəklər gözümdə xəzana dönür.
Yarımçıq yarımçıq neçə arzular.
Hələ doğulmamış qəlbimdə ölür.
Bir ləzzət almıram çöldən, çəməndən
Son vaxtlar yamanca yorulmuşam mən.

Yuxum gözlərimədn qaçır gecələr,
Uduzlar nurunu gözümə salmır.
Bir əzab gətirir hər gələn səhər
Kimsə həyan olub dərdimə yanmır.
Dərd kədər qalıbdır keçən günlərdən
Son vaxtlar yamanca yorulmuşam mən.

BU BİR SEVGİ DEYİL

Bu bir sevgi deyil məni sevirsən,
Ayrılıq odunda yanıram hər gün.
Açıb ürəyini mənə demirsən,
Niyə qismətinin gözündən düşdün.

Bu bir sevgi deyil məni sevirsən,
Xəyalın mənimki, özün özgənin.
Bəlkə də yenə də özün bilirsən,
Sevgidə bir müthi qulunam sənin.

Bu bir sevgi deyil məni sevirsən,
Sözünlə əməlin bir yerə sığmır.
Mənə məhəbbətim eşqim deyirsən,
Üstümə vüsalın yağışı yağmır.

Bu bir sevgi deyil məni sevirsən,
Həsrətim yükləmir qəmin boynuna.
Daha usanmışam belə sevgidən.
Qoy hər şey məhv olsun yetişsin sona.

SELLƏR SARALARI APARMIR DAHA...

Azalıb qızlarda sevgi, məhəbbət,
Hərə bir nəzərlə baxır sabaha.
Ucuzdan ucuzdur indi səadət-
Sellər Saraları aparmır daha.

İndi Xançobanın sınıb çomağı,
Yenişlər-yoxuşlar batıb günaha.
Bəylər də tərgidib qız ovlamağı-
Sellər Saraları aparmır daha.

Çayların suları çoxdan azalıb,
Sellər neçə ildir dönüb mataha.
Çoxlu Xançobanlar Sarasız qalıb-
Sellər Saraları aparmır daha.

Sular axıb gəlir Milə, Muğana,
Təbiət hay vermir naləyə, aha.
Gedin xəbər verin, o xan çobana-
Sellər Saraları aparmır daha.

Fərhad məhəbbəti, Məcnun həsrəti,
Bugünkü həyatda bahadan-baha.
Leylilər sevirlər zəri-zinəti-
Sellər Saraları aparmır daha.

Əslinin, Kərəmin adları qalıb,
Çox qara keşişlər batıb günaha.
Vallah, gözəllərdə sevgi azalıb-
Sellər Saraları aparmır daha,
Sellər Saraları aparmır daha.

BU GÜN, BU GÜN, SƏHƏR, SƏHƏR

Saçların tökür üzünə,
Sürmə çəkir qaş-gözünə,
Sahib durmur öz sözünə
Aldadır məni bir təhər,
Bu gün-bu gün, səhər-səhər.

Günlər gəlir gün üstünə,
Məni sıxır öz köksünə,
Çox arxayındır özünə
Hər gün bir mesaj göndərər,
Bu gün-bu gün, səhər-səhər.

Bilir çox sevirəm onu,
Əynində qırmızı donu,
Etişir hər ayın sonu.
Mənə verir başqa xəbər,
Bu gün-bu gün, səhər-səhər.

Martda gəlib yetişibdi,
Havalar da dəyişibdi
Şirin dili öyrəşibdi,
Məni bişirir bir təhər
Bu gün-bu gün, səhər-səhər.

QƏLƏBƏ SEVİNCİ

Bayrağım dalğalanır
Xankəndində, Şuşada
Bu böyük revans verir
Bu gün bütün dünyada.

Xocalıda, Laçında
Zəfər çaldı ordumuz,
Neçə illərdən sonra
Bütövləşdi yurdumuz.

Minlərlə qaçqınların
İntizarı söküldü.
El-obam ulduzlu
Bayrağıma büküldü.

Alqış bugünkü gündə
Zəfər çalan orduma
Alqış şirin canıyla,
İgid vətən oğluna.

İgidin hünəriylə
Dünyanı lərzə saldı.
Heç vaxt enməyən bayraq
Yenə qalxdı ucaldı

Xatirələr qanadında



NAĞIL İMİŞ BU MƏHƏBBƏT

Duyğulara sığal çəkən,
Ürəyimdə həsrət əkən,
Gah tələsən, gah gecikən,
Keçmiş aya, ilə həsrət
Nağıl imiş bu məhəbbət.

Gəlişindən nur tökülən,
Hər tərəfi yaşıl çəmən.
Çələng hörər çiçəklərdən.
Bülbül qalar gülə həsrət
Nağıl imiş bu məhəbbət.

Həm şirindir, həm də acı,
Başında cavanlıq tacı.
Sevənlərin yox əlacı.
Qəbul etməz söz, nəsihət
Nağıl imiş bu məhəbbət.

Ramiz, düşdün yanar oda,
Batdın seldə, qasirğada.
Səni yüz sevən olsa da,
Unudulmaz o hekayət
Nağıl imiş o məhəbbət.
Nağıl imiş o məhəbbət.

AYRILIQ GÖZ İLƏ QAŞIN ARASI

Sən ki incimişdin küsmüşdün məndən,
Demişdin bir daha qayıtmayacam.
Nə olub yenə də dönüb gəlmisən
Deyirsən bir günlük sənə qonağam.

Üzündən gözündən intizar yağır,
Sıxıla-sıxıla baxırsan mənə
Get ötən günləri keçmişi çağır
Bəlkə kömək ola o günlər sənə.

Yanağın dayaqdır kirpiklərinə
Gözündə dumanlı çiskinli yollar
Hər nə istəyirsən yığ gözlərinə
Məndən xatirə tək özünlə apar.

Ayrılıq göz ilə qaşın arası,
Orda ildırımlar çaxar, çağlayar.
Kamına çatmayan sevgi dünyası
Dönüb kecmişinə baxıb ağlayar.

25.05.2022.

HİCRAN QOCALIB

Cözüm cözlərini unuda bilmir,
Bu nə ayrılıqdır bu necə hicran.
Heç nə ürəyimdən izini silmir,
Cözümün içində donub qalmısan.

O hicran deyilən budurmu görən,
Heç nə unudulmur çıxmır yadımnan.
Hər gün ürəyimdən gəlib keçirsən,
Bir yerdə olursan arzularımnan.

Unutmaq nə çətin işimiş Allah,
Hər şey çözələnir qayıdır geri.
Bir anda yuyulur ən böyük günah,
Yaranır sevginin bir şah əsəri.

Mən bu ayrılıqdan baş açanmıram,
Saçımı ağardıb büküb belimi.
Min yol alışmışam min yol yanmışam,
Xan Kərəm Əslisiz yandığı kimi.

Ömürdə sayılı günlərim qalıb,
Buraxmır yaşayam bu beş-on günü.
Mənim ürəyimdə hicran qocalıb,
Mənim tək gözləyir öldüyü günü.

02.06.2024.

XATİRƏLƏRİM

Məni başqa cürə yaradıb zaman,
Alın qırışlarım əzablarımdı.
Bilmirəm dünyanın harasındayam,
Ölən xatirələr baş daşlarımdır.

Ötən günlərimin üzülüb sapı,
Fikrimdə qocalıq gəzir nə vaxtdır.
Gəncliyi üzümə bağlayan qapı
Məni sevilməyə qoymayacaqdır.

Düşüb xatirələr izimə yenə,
Xəyalım gəzəcək aranı, dağı.
Əhsən deyəcəyəm Məcnun eşqinə
Xəyal sanacağam Leyli tapmağı.

Yaşın bu çağında arzuya bir bax,
Keçir ürəyindən gör nələr, qoca.
Mənli də, mənsiz də sevgi olacaq
Həyat şirin olur sevgi olunca.

YORULMUŞAM MƏM

Köçüb talehimin durna qatarı
Payıza tuş gəlib baharda ömrüm.
Həsrət bağlayıbdır bütün yolları,
Kədərlə ötüşür hər ötən günüm,
Eşqim imdad umur xatirələrdən,
Son vaxtlar yamanca yorulmuşam mən.

Fikrimi əlimdən alır xəyallar
Gecələr gözümdə zülmətə dönür.
Yarımcıq-yarımçıq necə arzular
Hələ doğulmamış qəlbimdə ölür
Bir ləzzət almıram çöldən çəməndən.
Son vaxtlar yamanca yorulmuşam mən.

Yuxum gözlərimdən qaçır gecələr,
Ulduzlar nurunu gözümə salmır,
Bir əzab gətirir hər gələn səhər.
Kimsə həyan olub qeydimə qalmır,
Tənhalıq tökülür keçən günlərdən
Son vaxtlar yamanca yorulmuşam mən.
Son vaxtlar yamanca yorulmuşam mən.

20. 06.2025.

GƏL ŞƏKLİNİ ÇƏKİM DÜNYA

Qaş-qabağını yer süpürür,
Ulduzlara itlər hürür,
Baramalar çələng hörür,
Gəl şəklini çəkim dünya.

Yaxşı dayan bax üzümə,
Gözünlə vurma gözümə.
Bir az pis çıxsa incimə,
Gəl şəklini çəkim dünya.

Sil üzündən dərdi-qəmi,
Batmayıb yoldadır gəmi,
Yüz dərdim var sənin kimi,
Gəl şəklini çəkim dünya.

Sən ağ kağız mən karandaş,
Lazım deyil mənə kuaş
Çox tələsmə yavaş-yavaş
Gəl şəklini çəkim dünya.

Bir yanında uçuq evlər,
Bir yanında villa, şəhər.
Ortada dur sən birtəhər,
Gəl şəklini çəkim dünya.

Ac yalavac insanların,
Dərd bəlanın ahu-zarın,
Könlündəki duyğuların
Gəl şəklini çəkim dünya.

Danışılan hər yalanın,
Köhlən atın, zər palanın,
Hələ sağsan sağdır canın,
Gəl şəklini çəkim dünya.

Köksündəki hay-harayın,
Yoxa çıxan gölün-çayın,
Unudulan haqqı-sayın,
Gəl şəklini çəkim dünya.

Nakəslərin pis üzünü,
Qanmazların tərs sözünü,
Bir az yığışdır özünü,
Gəl şəklini çəkim dünya.

Yox insanın insan payı,
Dəli vurub keçir çayı,
Sıx köksünə günü-ayı,
Gəl şəklini çəkim dünya.

İlmə-ilmə naxış-naxış,
Gəlib keçir baharla qış
Qara rəngim qurtarmamış,
Gəl şəklini çəkim dünya.

Zülm eylədin mənə yaman,
Məni əydi sıxdı dövran.
Gəl mənimlə qoşa dayan,
Gəl şəklini çəkim dünya.
Gəl şəklini çəkim dünya.

19.02.2025.

GƏLİB ÇIXMADIN

Nə gəlib çıxmadın nə tək qoymadın,
Unutdun həyatda olub qalanı,
Mənim sevgim ilə qumar oynadın
Uduzdun mənimlə olan dünyanı.

Beləmi sevərmiş sevən sevəni,
Bir anlıq hər şeyi unudub getdin.
Bir yaz dumanına tapşırıb məni,
Özün buludların içində itdin.

Vaxt gəlib keçəcək ötəcək illər,
Nə vaxsa üzünə duracaq keçmiş,
Başıma açdığın o həngamələr,
Şirin yalan imiş sevgi deyilmiş.

Nə vaxtsa bitəcək günün birində,
Sənin ürəyinə uzanan yollar.
Bir də baxacaqsan sevgin yerində,
Keçmiş günlərinin dar ağacı var.

Xəbərsiz ətərsiz itirdim səni,
Sən oldun sevgimə naməlum məzar.
Artiq ürəyimdən silmişəm səni,
Yerində daşlaşmış bir heykəlin var.
Yerində daşlaşmış bir heykəlin var.

19.11.2024.

GÖRÜNÜRSƏN

Yenə yuxularım çəkilib ərşə
Yenə gözlərimə sən görünürsən
Bu bir xoş yuxudu xəyaldı bəlkə
Sən mənim eşqimə tən görünürsən.

Bu lal məhəbbətin sonu görünmür
Hər gecə yuxuma gəlirsən mənim.
Arzular qəlbimdə dirçəlir ölür
Sənsiz xatirələr olur həmdəmim.

Bilmirəm ürəyim niyə susubdu
Sənin ürəyindən güc ala-ala.
Ayrılıq qəlbimə həmdəm olubdu
Onunçün əzizim dönmüşəm lala.

SƏNİ AĞLAMAĞA GƏLMƏMİŞƏM MƏN

Boş yerə hədəfsiz atma bu daşı,
Qayıdıb özünə dəyər, ay naşı.
Sən mənim babamın ölən yaddaşı,
Səni ağlamağa gəlməmişəm mən.

Hər gün min ocaqda həsrətim yanır,
Gözündən od düşür, gözüm odlanır,
Get Dəli Domrulu,Tomrisi cağır,
Səni ağlamağa gəlməmişəm mən.

Düşünmə sevincdən sənə pay düşər,
Dərdləri bölsələr hay-haray düşər,
Ruhumda birləşib xeyir ilə şər,
Səni ağlamağa gəlməmişəm mən.

İtən günlərimdi axtardıqlarım,
Yox olub itibdi əhdim-ilqarım,
Dünyaya yayılıb bu ahu-zarım,
Səni ağlamağa gəlməmişəm mən.

Min arzum-diləyim ölüb icimdə,
Hər vaxt aldanmışam sözdə, bicimdə,
Bir qəbir qazmışam ruhum icində,
Səni ağlamağa gəlməmişəm mən.

Həsrətdir gözümdən axan, tökülən,
Belimdir bu dərddən sınan,bükülən,
Hec kim ölməyibdir, özüməm ölən,
Səni ağlamağa gəlməmişəm mən.

Dərdimin üstümdə dərd əkib zaman,
Ömrümü kül edib, yandırıb hicran,
Özünə boş yerə məzar qazırsan,
Səni ağlamağa gəlməmişəm mən.

Dünyanı çarmıxa çəkib qalacam,
Günlərdən, aylardan heyif alacam,
Qəbir zəmanəyə qazılıb, xocam.
Səni ağlamağa gəlməmişəm mən,
Səni ağlamağa gəlməmişəm mən.

GERİYƏ DÖNSƏ

Səni ürəyimdə gizlədəcəyəm,
Axtarıb tapmasın həsrət, intizar.
Mən səni heç kəsə verməyəcyəm,
Sən getsən ürəyim tənha, tək qalar.

Keçmişi andıran şəkillər kimi
Səni gözlərimə həkk edəcəyəm.
Sənin kədərini, sənin dərdini
Ömürlük özümə yük edəcəyəm.

Alışıb yanacam bu həsrətlə mən,
Gözümün yaşları selə də dönsə.
Mənim alovumu sən söndürərsən
Bir də gəncliyimiz geriyə dönsə.

HEYF O QIZ MƏNƏ QİSMƏT OLMADI

Onu çox sevirdim-dünyalar qədər,
O idi ömrümün xoş günü, anı.
Ona həsr etmişəm çoxlu şeirlər,
O idi qəlbimin sevgi duyanı.

Heyf o qız mənə qismət olmadı,
Itirdim arzumu, diləklərimi.
Bir də ayıldım ki, ömrün sonudu-
Onunla dəfn etdim eşq gövhərimi.

Heyf o qız mənə qismət olmadı,
Onunla itirdim məhəbbətimi.
O gedən bir gündən indiyə qədər
Gəzirəm yollarda sərgərdan kimi.

HEYF SƏNLİ O GÜNLƏRƏ

Mən sənin xətrinə dəydim,
Səni bir az sıxdım, əydim.
Günahsızdın, nə biləydim
Heyf sənli o günlərə.

Dilimdən töküldü zəhər,
Hisslərim şirə döndülər,
Bir-iki söz və nöqtələr...
Heyf sənli o günlərə

Yalan yaman tutdu məni,
Çəkdi gözlərimə çəni,
Ömürlük itirdim səni-
Heyf sənli o günlərə.

Sənin qarşında qırıldım,
Sənin idim sənsiz qaldım,
Qırıldı qolum-qanadım-
Heyf sənli o günlərə

İndi mən kədərəm, qəməm,
Sözüm yox sənə söz deyəm,
Bir də sənə dönəmmərəm-
Heyf sənli o günlərə,
Heyf sənli o günlərə!

KEÇMİŞƏ QAYIDA BİLSƏM

Keçmişə qayıda bilsəm,
Etməzdim mən bu səhvləri.
Başqa cürə yazılardı
Taleyimin şah əsəri.

Günlərimi, aylarımı,
Düzdüm sapa bir muncuq tək,
Nə biləydim o günlərim,
Mənə tənhalıq verəcək.

Dözə-dözə bir də baxdım,
Çatıb ömür astanası.
Xoş günlərim keçib gedib,
Mənə qalıb boş röyası.

İllərimdən illərimə
Sədalarım yetişmədi.
Hər şey qaldı bir kənarda,
Çəkəmmədim mən bu dərdi.

Yox, əzizim, yaşamadım,
Bu həyatı mən həyat tək.
Neynirəm o həyatı ki,
Mənə kədər, qəm verəcək.

Keçmişə qayıda bilsəm
Dəyişərdim çox şeyləri.
Mən keçmişi tapanacan
Bükülür ömrün dəftəri.

GƏTİRMƏZ SƏNİ

Səndən uzaqlarda yaşamaq, gülüm,
Avazsız qayığa döndərib məni.
Kədər dəryasında qərq olan könlüm
Axtarar hər zaman, axtarar səni.

Külək tellərini dağıdar-yolar,
Salar qasırğalar qoynuna səni.
Gözümün önündən keçər qatarlar,
Heç biri gətirməz, gətirməz səni.

Uçar təyyarələr öz ünvanına,
Xəbərsiz-ətərsiz ötüşər anlar.
Sən isə gəlməzsən mənim yanıma,
Yaman bəd olmusan axır zamanlar.

QAYTAR

Bu cığır haraya aparır məni?
Dağların sıldırım qayaları var.
Ürəyim həsrətin, dərdin məskəni
Allahım sən məni keçmişə qaytar.

Qaytar arzularım itən yerlərə,
Əlimi günlərin üzünə sürtüm.
Səsimdən diksinsin yatan dağ- dərə
Üstümə göylərdən leysan tökülsün.

İtim kənd yolunun toz-torpağında,
Qoyunlar mələşsin, itlər hürüşsün.
Yenə əl qaldırım bir kənd toyunda
Kölgəm bir gözəlin üstünə düşsün.

Yenə səhər olsun gedim məktəbə
Görüm doğmaları, görüm yadları
Çilingağac olsun mən qurum həbə,
Bir də haraylayım köhnə adları.

Gedim toy evinə toy qurtaranda,
Bəylər alma atsın gəlin başına.
Dağlara düzlərə ağ qar yağanda,
Tutum gözəlləri qar yağışına.

Qaytar, o günlərə qaytar sən məni
Getsəm bu yollarda itib bataram.
Qaytar,yalvarıram bir uşaq kimi
Qaytar evimizdə gözləyir anam.
Qaytar evimizdə gözləyir anam.

MƏKTUBLARIN

Bir zaman yazdığın məktublarını
İndi oxuyuram mən aram – aram.
Tikan, kol basıbdır eşq yollarını,
Daha mən geriyə qayıdammaram.

Saralmış vərəqlər tutub əlimdən
Məni keçmişlərə aparıb gedir.
Sənin sevgi dolu o sözlərindən
Axan duyğularım məni göynədir.

Heyif ki, yarımçıq qaldı bu sevda,
Her şey ayağına düşdü zamanın.
Bir arzum gözümdə qaldı dünyada-
Sən mənim olmadın, mənim olmadın.

İndi mənə qalan xatirələrdi,
Çəkirəm ozümlə o yan, bu yana.
O ilk məhəbbətim mənə nə verdi,
Mənim gəncliyimi yetirdi sona.

Hərdən danışıram şəkillərinlə.
Dinmirsən, sakitcə baxırsan mənə
İndi məktubdakı o sözlərinlə
Sən hər vaxt, hər zaman mənimsən yenə.

HARDAN BILƏSƏN

Yalana bürünüb aldatdın məni,
Süründüm illərin yedəyində mən.
Sənin arzuların hiylə məskəni,
Sən mənim sevgimi hardan biləsən?

Sevindin, şadlandın məni görəndə,
Dedin dünyalarca sevirəm səni.
Sənin sözlərinə inanıb mən də,
Qəlbimi eylədim həsrət məskəni.

Bu köksüz yalanlar doldu qəlbimə,
Həyatda hər şeyə yalandır dedim.
Sən mənim sözümdən küsüb, incimə,
Sənin yalanından kor oldu sevgim.

Daha inanmıram mən yalanlara,
Yalanlar qəlbimi didib tökübdür.
Mənim tək yalana inananlara,
Həmişə ayrılıq, həsrət düşübdür.

YANINA DÖNƏRDİM YENƏ

Yaman incimişəm səndən o gün mən,
Bilmirəm yanına gəlim, gəlməyim.
Bəlkə qisas alım sənsizliyimdən,
Bir də heç bir zaman geri dönməyim.

Bəlkə alovuma su səpim bir az,
Sənli duyğularım sönsün, közərsin.
Allahım bu eşqi o dünyaya yaz,
Mənə dərd verməsin, əzab verməsin.

Bu qədər əzaba dözdüyüm bəsdir,
Allahım, rəhm eylə yenə sən mənə.
Həsrət ürəyimin yolunu kəsdi,
Yoxsa mən yanına gələrdim yenə.

AXTARIR SƏNİ

Səni tapmağıma heç bir güman yox,
Yenə də gözlərim axtarır səni.
Bəlkə də heç səni axtarmır ürək,
Axtarır səndən çox məni sevəni.

Eh, sən taleyimin işinə bir bax,
Onsuz bir kimsəni sevə bilmərəm.
Onu axtarıram əlimdə çıraq,
Tapmasam, geriyə dönə bilmərəm.

Hərdən fikirləşib deyirəm bəlkə
Çıxarım yadımdan olub, keçəni.
Gözlərim göynəyib yaş tökə-tökə,
Yenə də hər yerdə axtarır səni.

ƏSİL MƏHƏBBƏTİN DEYİLƏM SƏNİN

Sənin gözlərindən, baxışlarından
Bir həsrət gizlicə axıb tökülür.
Sənin axıtdığın göz yaşlarından
Saxta məhəbbətin üzümə gülür.

Nə məni aldatma, nə də özünü,
Gözündən tökülür kədərin, qəmin-
Havayı həsr etmə mənə ömrünü,
Əsl məhəbbətin deyiləm sənin.

Baxıb gülümsəmə üzümə belə,
Məni aldadammaz o gülüşlərin.
İlk eşqin yadından çıxmayıb hələ,
Gözündən tökülür dərdin, kədərin-

Ürək bir aynadır, sınsa düzəlməz,
Əvvəlki görkəmdə göstərməz səni.
Özünə əziyyət verməyə gəlməz,
Onsuz da bilirəm sevmirsən məni,
Onsuz da bilirəm sevmirsən məni

SƏNİ TAPARAM

Tutub bu gecənin əlindən belə,
Gəzərəm hər yeri ocaqbaocaq.
Yalvarıb bu dilsiz lal küçələrə,
Ürəyim axtarıb səni tapacaq.

Sevdalı ünvanlar saysız-hesabsız,
Demə ki, itərəm yollar içində.
Yüz il yaşasan da ünvansız, adsız,
Mən səni taparam bir an içində.

İtirmək asandır, tapmaqsa çətin,
Səni itirməyə peşmanam yaman.
Sənə dəyişdiyim varın-dövlətin
İndi asılmışam dar ağacından.

MƏNDƏN SONRA

Dalımca boylanıb, çox baxacaqsan,
Yoracaq yolların izləri səni.
Məni hər bir yerdə axtaracaqsan
Qızıl zər itirən insanlar kimi.

Heç kim çatmayacaq bu harayına,
Ağlayıb-ağlayıb kiriyəcəksən.
Heyf deyəcəksən haqqı-sayına,
Bir daha sən məni görməyəcəksən.

Aylar ötüşəçək, illər keçəcək
Yağış qar yağacaq sənin sevginə.
Hər yerdə intizar səni öpəcək
Möhtac qalacaqsan hər gələn günə.

Beləcə, ayrılıb gedəcəyəm mən
Durnalar qatardan ayrılan kimi
Sənsə hər vaxt məni gözləyəcəksən
Gəlib sənlə bölüm sənsiz sevgimi.

QAYITMA BİR DƏ

Bizim yollarımız ayrılıb, gülüm,
Mən ayrı ünvana, sən özgə yerdə.
Yaşın çoxu gedib, ömür azalıb,
Məni o keçmişə qaytarma bir də.

Çağırma, itibdir ömrün günləri,
Onları tapmağım çox çətin olar.
Üzümə tutmuşam bu gecələri,
Mənə həmdəm olub sənsiz yuxular.

Çağırma, taleyin işidir belə,
Bizim alnımıza belə yazılıb.
Səni itirmişəm mən gilə-gilə,
Təkcə baxışların gözümdə qalıb.

Cağırma, yazığın gəlsin özünə,
Özünü yandırma odda-alovda
Çağırma, qayıtmaq olmaz o günə
Yolumuz yaxından yaxın olsa da.

TEZ QAYIT

Bilirəm haçansa tapacam səni,
İtən arzularım nağıllaşacaq.
Yenə öpəcəyəm qədəmlərini,
Sənli gecələrim səhər olacaq.

İtəcək gözümdə günlərin sayı,
Şadlıq ümmanında boğulacağam.
Qəlbində doğacaq vüsalın ayı,
Bir dəniz həsrətli çay olacağam.

Sənsiz ürəyimə həsrət naxışdır,
Kirpiklər bir oddur gözlərim üstə.
Subaylar yenə də səndən danışır,
Bir özgə həvəsdə, bir özgə səsdə.

Tez qayıt, son qoyaq bu ayrılığa,
Qoy hicran yaşasın öz ünvanında.
Tez qayıt, tez çataq bəxtiyarlığa,
Vüsal gecələsin sənin yanında.

ÖLDÜRƏCƏK MƏNİ

Qapısı bağlı evlərin,
Sinəsi dağlı evlərin,
Qaralı,ağlı evlərin
Dərdi öldürəcək məni.

Yamaclarda göy çəmənin,
Dağa cökən duman cənin,
Boynu bükük bənövşənin
Dərdi öldürəcək məni.

Dərələrdən axan selin,
Axşamüstü əsən yelin,
Gözüyaşlı bir gözəlin,
Dərdi öldürəcək məni.

İsti suyun, Turş bulağın,
Tənha qalan od-ocağın,
Ana yurdum Qarabağın
Dərdi öldürəcək məni.
Dərdi öldürəcək məni.

SƏN QAYITMADIN

Saçıma vədəsiz dən saldı illər,
Eşqim ayrılığın toruna düşdü.
Yağış tək üstümə yağdı fəsillər,
Həsrətim qorxudan əsdi, büzüşdü-
Sən qayıtmadın.

Əllərim buz oldu, saçlarım ağ qar,
Dağların quzeydə əridi qarı.
Mənə qəmli-qəmli baxdı tanışlar,
Göstərib başımda düm ağ saçları-
Sən qayıtmadın.

Gözlərim atəşə döndü yolunda,
Qaşlarım hicranlı cığırlar oldu.
Sevindim, şadlandım özgə toyunda,
Mənimsə həsrətim qayıtmaz oldu-
Sən qayıtmadın.
Mənimsə qismətim ayrılıq oldu
Sən qayıtmadın.

ÜRƏYİMDƏN DAŞ ASILIB

Ürəyimdən daş asılıb,
Çıxarıb ata bilmirəm.
Gözlərimin içindəsən,
Axtarıb tapa bilmirəm.

Harda gizlənmisən belə,
Sevgimə qurmusan tələ,
Can alırsan gülə-gülə,
Mənsə danışıb, dinmirəm.

Sevgim olub bir oyuncaq,
Sən alovsan, mənsə ocaq.
Söz verirsən qucaq-qucaq,
Mən bu yalana gülmürəm.

Bu məhəbbət qalmaz belə,
Gəl oynama sevgim ilə,
Ya sən mənə bir "hə" söylə,
Ya da ki, söylə sevmirəm.

BU GÜN ƏN KƏDƏRLI GÜNÜMDÜR MƏNIM

Bu gün ən kədərli günümdür mənim,
Gözlərim yollardan ayrıla bilmir.
Həsrətlə, nisgillə yüklənən gəmim
Bir də limanına qayıda bilmir.

Bu gün ən kədərli günümdür mənim,
Günəşim yox olub, ayım yox olub.
Vüsala açıla qalan əllərim
Mənə hicran olub, ayrılıq olub.

Bu gün ən kədərli günümdür mənim,
Səadət ulduzum sönüb düşübdü.
Bir zaman atəşlə məni sevənim
Omürlük ayrılıb, məndən küsübdür.

Bu gün ən kədərli günümdür mənim,
Ürəyim köçübdür öz yuvasından.
Günəşdən nur alan odlu gözlərim
Kor olub ayrılıb öz dünyasından.

UŞAQLIQ ÇAĞIM

Kaş geri dönəydi uşaqlıq çağım,
Yenə qamış atı minib çapaydım.
Bir anda aşaydım ən uca dağı,
İtən ümüdləri qovub tutaydım.

Kaş yenə dönəydi uşaqlıq çağım,
Çimərdim harayli, haylı çaylarda.
Bükəydim lavaşa pendiri, yağı,
Quzu otaraydım yaşıl dağlarda.

Kaş geri dönəydi uşaqlıq çağım,
Qıçlarım yanaydı qumların üstə.
Axşamlar çataydım hisli ocağı,
Üzüm qaralardı o qara hisdə.

Kaş geri dönəryi uşaqlıq çağım,
Qara tellərimi külək yolaydı.
Dimdikli balaca əyri papağım,
Toz-torpaq olaydı, palçıq olaydı.

Kaş geri dönəydi uşaqlıq çağım,
Qocalıq yanımdan çıxıb gedəydi.
Bitib tükənməzdi odum, ocağım,
Ölüm gəlməsəydi, yaş ötməsəydi.

BİR ARZU ÇAĞLADI QƏLBİMDƏ MƏNİM

Ayların üstünə qalandı aylar,
Qış gəldi lal oldu nəğməli çaylar.
Sənə həsrət-həsrət baxdı cavanlar,
Bir arzu çağladı qəlbimdə mənim.

Məktublar yazdılar ünvanı gizlin,
Ürəklər üstündə dolandı əksin.
Çoxları sızladı hey için-için,
Bir arzu çağladı qəlbimdə mənim.

Bir gün barmağında göründü üzük,
Cavanlar qəlbində sən oldun dönük.
Səni kəndimizdən gəlin köçürdük,
Bir arzu çağladı qəlbimdə mənim.

TANIMADIM

Necə tanıyım səni,
Düz qırx ildən sonra mən.
Sən o vaxt necə idin
Elə də gözümdəsən.

Bir zaman cavanların
Od salmışdın qəlbinə.
Səni oxşadırdılar
O vaxt itgin gəlinə.

Dünyanın dərd-qəmindən
Uzaq idik, gənc idik.
Həmişə belə olar,
O vaxt belə bilirdik.

Sən bu taleyə bir bax,
İl üstə il qalandı.
İlk məhəbbət ayrılıq
Həsrət odunda yandı.

Nə qədər məhləmizdən
Keçib gedənlər oldu.
Ürəyimə həmişə
Sənin həsrətin doldu.

Hər an toyda, düyündə
Axtardı gözüm səni.
Sənsə düşüb itmişdin
Dəryada üzük kimi...

Deyirsən ki cavanlar
O vaxt sevirdi məni.
Mən qırx ildi çəkirəm
Sənin sevgi dərdini.

Bu necə xoş təsadüf,
Necə xoş gündür, Allah!
Sevgi etiraf etmək
Heç vaxt deyildir günah.

Səni gördüm, ürəyim
Silkələndi yerindən.
Bilirdim görəcəyəm
Səni günün birində.

Sənin gözəl gözlərin,
O şirin səsin ki, var
O ilk məhəbbətindən
Qalıb mənə yadigar.

Şükür sənə, İlahi,
Necə xoş gündür bu gün.
Ən gözəl anlarıdır
Əlli illik ömrümün.

Danışdıq, ötənləri
Bir də gətirdik yada.
Dedik ki, ayrılıqdan
Pis şey yoxdu dünyada.

Telefona zəng gəldi
Dönüb baxdın üzümə.
Ayrılmaq istəmirəm
Dedi gözün gözümə.

FİKİRLƏR

Adam tək qalanda çox fikirləşir,
Dünyanın dərdini yığır başına.
Adam tək qalanda çox fikirləşir,
Əzabı, nisgili yetişmir sona.

Keçmiş xatirələr keçmiş nağıllar
İlləri gətirən küləyə dönür.
Keçmişi yaşadan gözəl qış, bahar,
Illərin içində əriyir, sönür.

Uşaqlıq səhvləri, gənclik səhvləri,
Hərəsi bir yerdən qınayır onu.
Məhəbbət adlanan sənət əsəri
Göstərir adamın kim olıuğunu.

Keçmişi töhfə tək alıb çiyninə
Daşıyır o gündən bu günə kimi.
Gündə milyon dəfə çevirir yenə,
Dünya da boynuna alır səhvini.

DEYƏ BİLMƏDİM

Sevirəm sözünü deyə bilmədim,
Dondu o bir kəlmə dodaqlarımda.
Sənin görüşünə gələ bilmədim,
Indi günahkaram sənin yanında.

Nə deyim illərə, illər keçibdi,
Ayların üstünə qalanıb aylar.
Ayrılıq ömrümə bir don biçibdir,
Nə qolu, nə çiynu, nə yaxası var.

O bircə kəlmənin oduna düşüb,
İllərdir yanıram, közüm bilinmir.
Aradan qırx illik zaman ötüşüb,
O köhnə yaranın yeri silinmir.

O bircə kəlməni deyə bilmədim,
Aldı ayrılıqlar qoynuna məni.
Söz də kəsilərmiş insana qənim,
O sözü demədim, itirdim səni.

YERİN GÖRÜNÜR

Bu köhnə küçədə yerin görünür,
Hər tində, dalanda izlərin qalıb.
Sənsiz tənhalığım qəmə bürünür,
Sənli günlərimi yadıma salıb.

Bu köhnə küçədə köhnə divarlar,
Keçmişdən bu günə gələn yolumdur.
Hər daşda, kəsəkdə bir xatirə var,
Bir anda keçmişim gözümdə durdu.

Bu köhnə küçədə köhnə evlərin
Tənha qapıları susub nə vaxtdır.
Gözlərim keçmişdən gələn günlərin
Xatirə gölündə boğulacaqdır.

Bu köhnə küçədə yerin görünür,
Dönüb alnımdaki sərt qırışlara.
Ötən günlərimiz xəzələ dönür,
Səpilir yollara düşür yollara.

Bu köhnə küçədə ilk məhəbbətin
Bu günə ağrısı-acısı qalıb.
Bu köhnə küçədə ağaclar kimi
Bizim sevgimiz də çoxdan qocalıb.

GƏL BAĞIŞLA, GÜLÜM MƏNI

Mən çəmənəm, sən rüzgarsan,
Yağıştək göydən yağarsan.
Səni atmaq deyil asan,
Gəl bağışla, gülüm mənim.

Selə dönüb gözümdə yaş,
Uzaq gəzir qohum-qardaş.
Səndən başqa yoxdur sirdaş,
Gəl bağışla, gülüm mənim.

Dünya səhvlərlə doludur,
Bir ümman ol, söndür odu.
İnsan nəfsinin quludur,
Gəl bağışla, gülüm mənim.

KAŞ MƏN ÖLƏYDİM

Sən öldün, mən qaldım, kaş mən öləydim,
Neçə nəğmələrim qaldı yarımçıq.
Həyat vəfasızmış, mən nə biləydim,
Sən mənə günəş tək salırdın işıq.

Yarımçıq nəğmədir səndən xatirə,
Qoşa gəzdiyimiz yollar üşüyür.
Niyə çıxıb getdin sən birdən-birə,
Sənsiz ürəyimin başı göynüyür.

Bu necə istəkdir, bu necə həvəs,
Məni alışdırıb özünə, getdin.
Səni çox çağırdı içimdəki səs,
Elə bil ayrılan heç sən deyildin.

Çağırdım qəlbimdə boğuldu səsim,
Əllərim havadan asılı qaldı.
Sənin məni atıb çıxıb getməyin
Bilirsən, heç məni nə günə saldı.

Bütün istəklərin budurmu sonu,
Silinməz qəlbimdən sənin izlərin.
Bir gündə itirdim Məcnunluğumu,
Puç oldu, yox oldu sənli günlərim.
Dönüb zülmət oldu sənli günlərim.

DAHA MƏN ƏVVƏLKİ O MƏN DEYİLƏM

Görsən tanımazsan indi sən məni,
O qara saçların yerində ağ qar.
Hər yerə od-alov salan gozümdən
İndi şimşək çaxar, yağışlar yağar.

Qalıb ürəyimdə ilmən, naxışın,
O günü bu günə dəyişmək olmur.
Gözümdə gizlənib sənin baxışın,
Daha payız yeli saçımı yolmur.

Çoxdandır batıbdır həsrətim yasa,
Üzümdə intizar, alnımda qırış.
Əgər sənlə keçən günlər olmasa,
Elə düşünərdim dünya yoxuymuş.

Daha mən əvvəlki o mən deyiləm,
O gündən bu günə sevgim qocalıb.
Ayrılıq özünə eyləyib sitəm-
Mənim ürəyimdə tək-tənha qalıb.

Daha mən əvvəlki o mən deyiləm,
Yükümü tutmuşam ölum apara.
Zər də qiymətini itirər gülüm,
Əgər ucuzlaşıb çıxsa bazara.

XATİRƏLƏR

Bir gözəli xatırladım,
Düşdü yadıma de nələr.
Ürəyimdən şimşək kimi
Gəlib geçdi ötən günlər.

O günəşdi, mən ay idim,
O dənizdi, mən çay idim,
Onsuzluğu indi bildim,
Haray çəkdi xatirələr.

Gumanımın gumanı yox,
Dindirməyin, siz məni çox.
O qız mənim qəlbimdə ox
Çıxarmayın dərd göyərər.

SƏNSİZ

Gözlərin gözümdən asılı qalıb,
Yumsan kirpiyini düşüb itəcək.
Ürəyim təkliyin oduna düşər,
Boş qalan gəmisiz tənha limantək.

Qaldır gözlərinə, baxsın gözlərim,
Gizlətmə üzünü-gözünü məndən.
Sübh vaxtı dənizdən doğan səhərin,
Sulara tökülən şəfəqlərisən.

Sən bahar yelisən, düşüb dənizə,
Dilsiz dalğaları yırğalayırsan.
Günəşin sulara düşən telini,
Zərif əllərinlə sən darayırsan.

Sən şirin nağılsan yuxularımda,
Sənlə bir yatıram, bir dincəlirəm.
Sən məndən nə qədər uzaq olsan da,
Hər gecə yanına durub gəlirəm.

Sevginin yolları qısadan qısa,
Həsrət bu yollarda yorulub itər.
Səndə mənə qarşı məhəbbət varsa,
Bir gül ləçəyinə bük mənə göndər.

SƏNİN MƏHƏBBƏTİNDİR

Yollar da yorulub ayağım altda,
Bu tale yükünü çəkmək çətinmiş.
Mənim bu dünyada ömrüm uzadan
Tək sənin, tək sənin məhəbbətinmiş.

İndi saçlarıma qar yağıb mənim,
Ürəyim üşüyür, gözüm üşüyür.
Özüm kəsilmişəm özümə qənim,
Yolum quzeylərdən güneyə düşüb.

Sevdalı günlərim çıxıb əlimdən,
Ovunu itirən, ovçuyam indi.
Küsmüşəm illərin fəsillərindən,
Keçmiş xatirələr mənim bəsimdi.

Xəyallar oylağı olubdur könlüm,
Xoş günlər pis günə qatışıb orda.
Məni addım-addım izləyir ölüm,
Bir gün batacağam o qasırğada.

Həyatda qalacaq xatirələrim,
Silinib izlərim gedəcək belə.
Bu gün dilsiz olan bu şerlərim
Onda danışacaq hər vaxt sənlə.

GƏLİB ÇIXMADIN

Nə gəlib çıxmadın nə tək qoymadın,
Unutdun həyatda olub qalanı,
Mənim sevgim ilə qumar oynadın
Uduzdun mənimlə olan dünyanı.
Beləmi sevərmiş sevən sevəni,
Bir anlıq hər şeyi unudub getdin.
Bir yaz dumanına tapşırıb məni,
Özün buludların içində itdin.
Vaxt gəlib keçəcək ötəcək illər,
Nə vaxsa üzünə duracaq keçmiş,
Başıma açdığın o həngamələr,
Şirin yalan imiş sevgi deyilmiş.
Nə vaxtsa bitəcək günün birində,
Sənin ürəyinə uzanan yollar.
Bir də baxacaqsan sevgin yerində,
Keçmiş günlərinin dar ağacı var.
Xəbərsiz ətərsiz itirdim səni,
Sən oldun sevgimə naməlum məzar.
Artıq ürəyimdən silmişəm səni ,
Yerində daşlaşmış bir heykəlin var.
Yerində daşlaşmış bir heykəlin var.

19.11.2024.

SON İMTAHANDA

Biri ağlayandı, biri güləyən,
Hərəsi bir evin nazlı xanımı.
Qızlar yadınıza düşürmü görən
Onuncu sinifin son imtahanı.

Hərəniz bir yerdə kədərli, qəmli,
Vaxtı uzatmağa çalışırdınız
Yığışıb bir küncə gözləri nəmli
Şirin xatirələr danışırdınız.

Xatirə dəftəri əllərinizdə
Deyirdiz sizlərə xatirə yazaq
Bizlər də çəkirdik o yan, bu yana
Düzü istəmirdik sizdən ayrılaq.

Heyif o günlərə, heyif o çağa,
Ötən o illərə qoşulub getdi.
Bizim də sevgimiz son imtahantək
Elə o günlərdə qurtardı bitdi.

MƏKTƏB İLLƏRİ

Uçdu əlimizdən qaranquş kimi,
O gözəl fəsillər, o gözəl illər.
Heyif ki, bilməzdik onun qədrini,
Ötənə hər zaman güzəşt deyirlər.

Küsüşdük, barışdıq bir-birimizlə,
Amma ürəyimiz heç incimədi
Bizi alışdıran ilk eşqimiz də
Heç vaxt danışmadı, heç vaxt dinmədi.

Sinif otaqları yaddaş kitabı,
Onu qəlbimizdən çıxarmaq olmaz.
Məktəb günlərinin dərdi, əzabı
Heç vaxt qəlbimizdən itib silinməz.

Yarıya bölərdik hər bir tikəni,
Səninki, mənimki olmazdı bizdə
Araya alaraq bir səhv edəni
Məzəmmət edərdik sinifimizdə.

Tələbkar müəllimlər coşub daşardı,
Sakitcə oturub qulaq asardıq.
Kef idi müəllimin xamı olanda
Dalda əyləşərdik pıqqıldaşardıq.

Elə ki, yetişdi son zəng zamanı,
Bildik ki, nə vaxtsa ayrılacağıq
Olduq əvvəlkindən daha mehriban
Dedik ki, həmişə bir olacağıq.

Amma həyat yolu ayırdı bəzi,
Qızlar nənə oldu biz baba biz baba olduq.
Hərdən bir görəndə bir-birmizi,
Bir az ağır olduq utancaq olduq.

Hərdən sizin ilə görüşəndə mən,
İstərəm çağıram uşaqlağımı.
O da Ramiz kimi durub yerindən
Öpsün qucaqlasın orda hamını.

MİNA XALA

İndi zaman dönüb tərsə
Fərq qoyulmur heç bir kəsə
Bir də həkim soyun desə
Bir fikir ver sağa, sola
Tez soyunma Mina xala.

Abır, həya itib tamam
Buğda yoxdur qalıb saman
Şikayətlənmə dövrandan
Get ərinlə gir qol-qola
Tez soyunma Mina xala.

Taleh sənə bir don biçib,
Hərə bir cürə süd içib
Səninki ta səndən keçib
Get gəz dolan bala-bala,
Tez soyunma Mina xala.

O kişilşər daha yoxdu,
Biqyerətlər indi çoxdu
Soyunma hava soyuqdu
Get bürün sən ala, şala
Tez soyunma Mina xala.
Tez soyunma Mina xala.

YARIMÇIQ MAHNI

Yarımçıq qalmış mahnı tək
Qalıbdır dillərdə Vaqif Mustafazadə.
O titrək əllərin
Sehirkar aləmi
Nə vaxtdır donubdur
O gözəl insanın
Sönməyən arzusu, əməli!
İllərin ardından boylanan
Xatirə olubdur.
Nə vaxtdır Yuranın
Sənətkar fırçası
Boyaya, kətana həsrətdi,
Günləri, ayları ucaldan
Həsrətin, kədərin əlləri
Qarşısı alınmaz əlacsız dərddi
Haçandı bir şair masası
Öz cavan dostunu gözləyir.
Bir vaxtsız ölümün özünə
«Öl deyir».
Qəzetlər, jurnallar
Nə vaxtdı bir ada həsrətdi
Bir şair oğlunu
Cavankən itirmək
Xalq üçün dərdi.
Darılır, gərilir hisslərim
Yox, hər vaxt bizimlə yaşayır
Ölməzlik sinvolu
Əli Kərim!
Ölməzlərin ruhuna

Bir nəğmə qoşuram,
Oxuyun
Dünyadan yarımçıq arzuyla
Köç edən nakamları
Heç bir vaxt, heç bir zaman
Unutmayın!

Təbiət lövhələri



BU NECƏ YAĞIŞDIR BELƏ

Bu payız yağışı yaman tələsib,
İslandım əynimə yapışdı paltar.
Bu şıltaq damcılar göz yaşı olub
Həsrət gözlərimdən axacaqdılar,
Ay Allah, bu necə yağışdı belə?

Çoxalıb çayların zümzümə səsi,
Bulaqlar itibdir yağış gölündə.
Buludun göylərə düşüb nərəsi,
Təbiət diz çöküb yağış önündə-
Ay Allah, bu necə yağışdı belə?

Quşların sədası batıbdı çoxdan,
Ağaclar lal, dinməz durub qalıblar.
Elə bil dünyanı tutub saçından,
Bir yağış ümmanlı suya salıblar-
Ay Allah, bu necə yağışdı belə?

BATABATA GƏLMİSƏN

Çiçəklər naxış vurub təpələrin belinə,
Dərələr toy qurubdur burda nərgiz gülünə,
Səhər doğan al günəş sığal çəkər telinə,
Arzumu, istəyimi göy çəmənə sərmişəm-
Batabata gəlmişəm.

Çadırlar səpələnib yenə köhnə yaylağa,
Qızlar səhəng götürüb gedirlər Zor bulağa.
Yenə qoyun sürüsü yayılıbdı göy dağa,
Mən də bu gözəlliyi söz tabloma çəkmişəm-
Batabata gəlmişəm.

Baldırqanın, cacığın gül açıb çiçəkləri,
Həmərsünün gül ətiri məst eyləyib hər yeri,
Bura cənnətdir deyir gələn qonaqdan biri,
Səhərdən yamaclardan min cür çiçək dərmişəm-
Batabata gəlmişəm.

Bulaqlar nazlı-nazlı axıb gəlir dərəyə,
Hamı qonaqdır burda xoş üzə, duz çörəyə,
Gecə ulu dağlara duman gəlibdir deyə,
Mən də öz paltarımı qonaqlara vermişəm-
Batabata gəlmişəm.

Üzən ada möcüzə, Üzən ada bir həyat,
Vətən oğlu, gəl burda ilham al, əsər yarat,
Naxçıvan torpağının baş tacıdır Batabat,
Mən ruhumu, canımı bu torpağa vermişəm-
Batabata gəlmişəm.

Ramizəm, xatirələr hələ bitib tükənməz,
Mənim doğma yurdumu heç bir yer etməz əvəz,
Get sən bütün dünyanı ələk-vələk elə, gəz,
Gəl söylə ki, hardasa belə məkan görmüsən?
Batabata gəlmişəm.
Batabata gəlmişəm!

YURDUMA BAHAR GƏLİR

Yurduma yaz gəlibdir güllü çiçəkli bir yaz,
Quşların nəğməsindən xoş təravət tökülür.
Yamacların qoynunda çiçəklər açır bəyaz,
Lalələrin qönçəsi butasına bükülür.
Yurduma bahar gəlir.

Əriyir quzeylərin gizlənib qalan qarı,
Sellər heyrətə salır sakit axan çayları.
Günəş öz qucağında bizə verir baharı,
Buludlar ormanlarda lövbər salır, dincəlir.
Yurduma bahar gəlir.

Yamacların qoynuna xalı salır göy çəmən,
Gündə min ruzi yağır ana torpağa göydən.
Bizə müjdə gətirir quşlar gəldiyi yerdən,
Torpağın sinəsini güllər çiçəklər dəlir.
Yurduma bahar gəlir.

Açılır budaqların qönçələri birbə-bir,
Qış öz ağ yorğanını götürüb çıxıb gedir.
Günəş doğma yurduma işıq verir nur səpir,
Təbiət cana gəlir təzələnir dirçəlir.
Yurduma bahar gəlir.

15 03.2025.

PAYIZDA

Saralmış yarpaqlar bəhsə-bəsdədir,
Sanki tələsirlər qopub düşməyə.
Yarpaqlar budaqdan beziblər nədi?
Belə tələsirlər yeri öpməyə.

Bir vaxt büründüyü yaşıl donunu,
İndi yarpaq-yarpaq soyundururlar.
Bəlkə heç bilmirlər qış olduğunu,
Ağacı paltarsız, donsuz qoyurlar.

Budaqlar boylanıb baxır aşağı,
Yarpaqlar torpaqda xəzələ dönür.
Quşlar da üşüyür bu payız çağı,
Yaxşı ki , həsrətdən ağaçlar ölmür.

Hicranın dadını bilmirlər deyə,
Təsəlli verirlər bir-birlərinə,
Yarpaqlar bənzəyir nakam sevğiyə,
Əziyyət verirlər öz köklərinə.

ƏLİNCƏ CAYI

Su dolanır bu çayda söyüdlərin başına,
Təpələri oxşayır almaz üzük qaşına.
Təbiət min rəng vurub, torpağına daşına,
Budur alıb ağzına dərəni hay-harayı,
Həzin nəğmə oxuyur yenə Əlincə cayı.

Daşlara dəyən sular parcalanıb dağılır,
Güllər çiçəklər burda bir-birini çağırır.
Onların sərkərdəsi ulu İlan dağıdır.
Bu zirvənin dünyada heç yerdə yoxdur tayı,
Həzin nəğmə oxuyur yenə Əlincə çayı.

Naxış-naxış düzülüb neçə arzu diləyi
O olub dar günlərdə igidlərin köməyi
Sıldırım qayalarda mifə dönüb hər şeyi.
Çoxdur onun boynunda illərin haqqı sayı,
Həzin nəğmə oxuyur yenə Əlincə çayı.

Körpüləri tarixin min illik yadigarı,
Qalaları bu xalqın ruhu, dövləti, varı,
İgidlərə arxadır qoca, ulu dağları.
Nəimi dühasının heç yerdə yoxdur tayı
Həzin nəğmə oxuyur yenə Əlincə çayı.
Həzin nəğmə oxuyur yenə Əlincə çayı.

YAĞIŞIN ŞƏKİLLƏRİ

Gecə keçir, gecədən
Bayırda külək əsir.
Baxıram pəncərədən
Hamı qaçır, tələsir.

Ağaclar yırğalayır,
Bir-birini durmadan.
Bayırda haray salıb
Mahnı oxuyur novdan.

Pəncərə şüşələri
Hərdən girir bir dona.
Yağışın şəkilləri
Bitib yetişmir sona.

Üşüyür dibçəkdəki
Güllərin ləçəkləri,
Yağış damcılarıyla
Çimizdirir səhəri.

Buludlar haray salıb
Dəyirlər bir-birinə.
Küçələr təslim olur
Axan yağış selinə.

Heç bir azca keçməmiş
Kəsilir o səs-səmir,
Havadan nəm torpağın
Yuyulmuş ətri gəlir.

YAĞIŞDAN MƏHƏBBƏT ƏTİRİ GƏLİR

Yağışdan məhəbbət ətri gəlir,
Bu yağış qəlbimə sevgi səpəcək.
Bulud yorğanını üstümə sərir,
Damcılar nur olub məni öpəcək.

Yağışdan məhəbbət ətiri gəlir,
Səpir damcıları başıma göydən.
Damcılar üstünə düşüb dincəlir,
Deyəsən yorulub düşüblər heydən.

Yağışdan məhəbbət ətiri gəlir,
Bəs indi görüşə gedim mən necə?
O qız yağış altda məni gözləyir,
Yəqin çıxıb gedər yağış kəsincə.

BAHAR

Bir təzə gəlindi, nazlanır bahar,
Güllər naxış-naxış bəzəyir düzü.
Yenicə qayıdıb gələn durnalar
Qaytarır bizlərə ilk eşqimizi.

Qaranquş səsindən oyanır tavan,
Kimsəsiz yuvalar sanki canlanır.
Nazənin bülbülün dodaqlarından
Bir sevgi dolusu səs ünvanlanır.

Yamaclar baharın gözəlliyindən,
Verir sinəsini gül-çiçəklərə
Bahar bu yerlərə tez gəldiyindən
Bayram təravəti səpir ellərə.

DAĞLAR YENƏ TOY LİBASI GEYİNİB

Daş asılıb qayaların sacından,
Yemişanlar sürmə çəkib gözünə,
Min çiçək var bu dağlarda azından.
Sal qayalar hana qurub özünə.
Hər tərəfi gül-çiçəyə bürünüb,
Daglar yenə toy libası geyinib.

Qayaları bir birinin dayağı,
Təpələri igid, qaçaq oylağı.
Ləl-qızıldı bu dağların torpağı
Hər bir zaman vüqarıyla öyünüb.
Dağlar yenə toy libası geyinib.

Hər daşında min illərin yaddaşı,
Bu dağları gəzə bilməz yad, naşı,
Sal qayalar ürəyimin sirdaşı.
Qəlbim hər an həsrətiylə döyünüb,
Dağlar yenə toy libası geyinib.

Qonağıyam baldırğanın, kəkliyin,
Dağlar qatı düşmənidir təkliyin.
Dostlar, məni bu dağlarda səsləyin,
Hər bir dərdim yoxa cıxıb silinib,
Dağlar yenə toy libası geyinib,
Dağlar yenə toy libası geyinib.

02.07.2020.

YAĞIŞ YAĞANDA

Güllər yaşmaq tutar gəlinsayağı,
Dərələr dumanda batıb qalarlar.
Nərgizlər ismətli gəlin duvağı
Lalələr közərmiş bir od olarlar-
Yağış yağanda.

Bulaqlar həsrətli, qəmli bir gözəl,
Çinarlar qamətli bir igid olar.
Durnalar göylərdə qalıb məəttəl,
Yalçın qayalara qonub sığınar-
Yağış yağanda.

Gecikən arılar islanıb qalar,
Sığınar güllərin ləçəklərinə.
Göydə haray çəkib ötən buludlar
Oxşayar düzləri ana yerinə-
Yağış yağanda.

YAĞIŞ

Bu yağış məhəbbət damcılarıdı
Düşür sevənlərin kirpiklərindən.
Bu yağış bir qızın arzularıdı,
Bir hə-yox cavabı istəyir məndən.

Bu yağış gecənin bu vədəsində
Yağır duyğularım oyana bəlkə.
Bu aylı-ulduzlu yay gecəsində
Bu necə mahnıdı, bu necə nəğmə.

Bu yağış həsrətim, ahımdı mənim
Yağır ürəyimə sərinlik gələ.
Bu yağış məhəbbət duyğumdu mənim
Yağır ki, ürəyim bir az dincələ.

DƏNİZ

Şirin yuxusu gəlir,
Dəniz yatır deyəsən.
Yorğunluq ətri gəlir
Onun ləpələrindən.

Pıçıltıyla sahili
Öpüb dönür geriyə.
Dəlisov ləpələri
Yox olub birdən-birə.

Göy suların üstündə
Uçuşur qağayılar.
Dənizin görkəmində
Bir məhəbbət rəmzi var.

Günəş saçaqlarıyla
Sığallayır dənizi.
Sarı şəfəqə dönür
Onun yaşıl bənizi.

İnsan taleyi kimi
Hey coşur, daşır dəniz.
Axı taleyimiz də
Heç vaxt olmur ləpəsiz.

PAYIZDA

Solub çiçəkləri solub gülləri,
Dağların döşündə həsrət uzanıb.
Baxıram zirvədə bayaqdan bəri
Bir qartal necə də məğrur dayanıb.

Təpələr bürünüb qızılı dona
Zirvələr həsrətlə boylanıb baxır.
Bulaqlar bahardan ayrıldığına
Gözündən buz kimi göz yaşı axır.

Kəsilib çöllərin hayı-harayı,
Dağ çayı səsini qaldırıb göyə.
Yaşıl yamacların çiçək sarayı
Sarı xəzan olub dönüb heçliyə.

Pozulub çöllərin xalça naxışı,
Rənglər qatışıbdı biri-birinə.
Dağları çimdirən payız yağışı
Sakitcə qayıdıb gedib yerinə.

Bulaqlar göllərə nağıl danışır,
Bu payız selində boğulur dərə.
Yarpaqlar həzincə hey pıçıldaşır:
Görəsən biz nə vaxt düşərik yerə.

GERİYƏ QAYIDIR DURNA QATARI

Payızda getdiyi yolları yorub,
Uçur nizam ilə yenə durnalar.
Tər-təmiz səmada bir qatar qurub,
Sevinir, şadlanır qaqqıldaşırlar
Səsləri oxşayır sərt qayaları,
Geriyə qayıdır durna qatarı.

Arabir bölünüb yarı-yarıya,
Sonra birləşirlər, bütövləşirlər.
Sanki şükr edirlər göydə tanrıya,
Bir də görüşməkçün sövdələşirlər.
Uçurlar çiçəkli bahara sarı,
Geriyə qayıdır durna qatarı.

Telləri dağılır üz gözlərinə,
Uçurlar çiçəkli havada belə.
Təsəlli verirlər bir-birlərinə,
Öz şirin rəngarəng nəğmələriylə.
Onlardır baharın ilki, nübarı,
Geriyə qayıdır durna qatarı.

Dünya və mən



DÜNYA

Əzablar çoxalır ömürdə, gündə
Çox arzum niyyətim qaldı gözümdə
Məndən bezib qaçdı dərddə, dözümdə
Məni keçmişimdən arala dünya.

Hayıma çatmadı hay verən kəsim,
Qocaldım təngidi batdı nəfəsim.
Ötən xoş günlərim qoy inciməsi.
Məni yarıya böl parala dünya.

Ürək dönüb oldu ləpəsiz dəniz,
Məni tapanmadı o cığır, o iz.
Dünyadan köçürəm səssiz, səmirsiz,
Məni yaddaşından qarala dünya.

DEYİRLƏR DÜNYANIN AXIRI ÇATIB

Deyirlər dünyanın axırı çatıb,
Bəzi adamlara düşüb vəl-vələ.
Qızılı, gümüşü dalına atıb
Onlar da düşəcək biz axan selə.

Deyirlər dünyanın axırı çatıb,
Bu malı, bu mülkü neyləyəcəklər?
Soyülə-soyülə yığılan pullar
Bir anın içində gedəcək hədər.

Deyirlər dünyanın axırı çatıb,
Binamus adamlar axacaq orda.
Öz doğma qızını qucağa atıb
Yenə bir vəzifə tapacaq orda.

Deyirlər dünyanın axırı çatıb,
Çoxunun ürəyi yumşalıb yaman.
Çoxu da gecəni gündüzə qatıb
Ozünə ev tikir qiymətli daşdan.

Deyirlər dünyanın axırı çatıb,
Bu sözlər ara bir deyilərdi kaş.

DÜNYA BİR PƏNCƏRƏDİ

Həyat belə yaranıb,
Yaşayırıq beləcə.
Çox şeyi biz həyatda
Bəzən almırıq vecə.

Xoş gümanla yaşayıb,
Günü vururuq başa.
Xəcalətli qalırıq
Bəzən yara, yoldaşa.

Dünya bur pəncərədir,
Gəlib baxıb gedirik.
Bilmirik xoş gün nədir?
Elə "şükür" deyirik.

Bu həyat yollarının
Yenişi, yoxuşu çox.
İş odur ki, həyatda
Yaşayasan gözü tox.

Biz varıq, bir çoxları
Köçüb gedib həyatdan.
Biz də bir gün köçərik
Bu sirli kainatdan.

DÜNYA MƏNLƏ İŞİN YOXDU

Heç bir şey yox sözdən baha,
Söz köhlənim qalxdı şaha,
Dərd almışam baha-baha,
Dünya mənlə işin yoxdur.

Bilməmişəm yalan-palan,
Həsrət səpib üstümə qan,
Tənha qalsam darıxaram,
Dünya mənlə işin yoxdur.

Bir əlim qış, biri bahar,
Məni sıxıb, əzib ruzgar,
Mənim çoxlu sevənim var,
Dünya mənlə işin yoxdur.

Yaşı yaşdı, quru quru,
Çox sular var lap dumduru.
Aç başımdan, çıx get, toru
Dünya mənlə işin yoxdur.

Hörmət tapır haqqı əzən,
Dağı-düzü dolaşır çən,
Haqqı nahaqqa verirsən,
Dünya mənlə işin yoxdur,
Dünya mənlə işin yoxdur.

HARA GEDİR BU DÜNYA

Satanı çox alandan,
Don geyinib yalandan.
Çapıb o yan-bu yandan
Hara gedir bu dünya?

Əyri düzünü kəsir,
Kasıb varlıya əsir,
Gedir,durmur tələsir-
Hara gedir bu dünya?

Çox sevdalar başında,
Tarix yaşar daşında,
Qoca, ahıl yaşında-
Hara gedir bu dünya?

Dəniz bulağa möhtac,
Toxdan xeyli çoxdu ac,
Nöqsanı qulac-qulac-
Hara gedir bu dünya?

Halala haram qatıb,
İnsafın çölə atıb,
Bütün varlığın satıb-
Hara gedir bu dünya?

Heç vaxt danışmır, dinmir,
Nə dərdi var, bilinmir,
Heç nöqsanı silinmir-
Hara gedir bu dünya?

Çoxdu yaxşı-yamanı
Saymır çisi, dumanı,
Qalıb quru samanı-
Hara gedir bu dünya.

İnsafı əldən verib,
Olub cahanda qərib,
Bizə dirsək göstərib-
Hara gedir bu dünya.

Çox arzu-dilək qalır,
Bizi bizlikdən alır,
Yol üstündən yol salır-
Hara gedir bu dünya?

Hər şey bitib tükənir,
Kəsilir haray, hənir,
Hamilədir, gücənir-
Dara düşüb bu dünya.

DÜNYA HƏMİN DÜNYA DEYİL

Üz-gözündən dərd tökülür,
Köhnə şam tək yanır, sönür,
Öz yolundan geri dönür
Dünya həmin dünya deyil

Hec bir şeyi gormür gözü
Yasa batıb çölü,düzü.
Özünə mat qalıb özü,
Dünya həmin dünya deyil.

Kəsilibdir hay-harayı,
Quruyubdur gölü-cayı.
Bilinməyir qışı, yayı
Dünya həmin dünya deyil

Dizi üstə köküb qalıb
Allahı yadına salıb
İnsaflar yox, dərd coxalıb
Dünya həmin dünya deyil.

Qurd axtarar dumanlı gün,
Fərqi yoxdu o gün, bu gün
Pula fəda edir özün
Dünya həmin dünya deyil.

Çox qınadım bu dünyanı
Şüşədədir divin canı
Allah yox et karonanı
Dünya həmin dünya deyil.
Dünya həmin dünya deyil.

DÜNYA

Deyəsən dünyanın dərdi azalıb,
Özünə təzə bir dərd gəzir dünya.
Cox ağır yükünü boynuma salıb
Məni hey sınayır, hey kəsir dünya.

Gözümü acmağa vermir amanı,
Yağdırır başıma sisi, dumanı.
Verdiyi dərdlərin yoxdur zamanı,
Məni hey sınayır,hey əzir dünya.

Gah qulam söyləyir, gah şaham deyir,
Birinə şər verir, birinə xeyir,
Döyür sinəsinə mənəm-mən deyir
Xəzan yarpağıtək hey əsir dünya.

Yoxdur anlayanı, bir baş biləni,
Hər vaxt qamcılayır gəlib kecəni.
Gözünə tökülür sacının dəni,
Yenə bəs eyləmir, yol kəsir dünya.

Dərdi bölüşdürür dərd cəkənlərə,
Dağlar ucaldıqca kicilir dərə,
Meylini salıbdır lələ-gövhərə,
Elə bil harasa tələsir dünya.

Hecə min illərdir belədir halı,
Cəkmir aramızdan bu qalmaqalı,
Gah mıxı bəyənmir, gah da ki, nalı-
Düşüb zəmanəyə bir əsir dünya.

27.07.2020.

NEYNİRƏM BU DÜNYANI

Məhəbbətsiz keçibdi
Sənsiz ayım-illərim
Sevgimə güc gəlibdi
Tənha qalan günlərim.

Cox axtarıb arama
Məni gəlib keçəndən.
Səndən ayrılan gündən
Bu dünyada yoxam mən.

Hər istəyim, ümidim
Dönüb həsrətli günə.
İllər gəlib keçsə də,
İnan, möhtacam sənə.

NƏVƏM SƏMAYA

Nənəsini görəndə
Səma sevinir gülür.
Gözlərindən üzünə
Sevinc yaşı tökülür.

Oynayar nənəsinin
Hər çaldığı havaya.
Gəzmək adı gələndə
Bənddi bir yalan haya.

Yapışar kuklasının
Sarı hörüklərindən.
Soskası gələn zaman,
Tez sıçrayar yerindən.

Nənəsinə oxşayır,
Gözləri qap-qaradır.
Adı Səma olsa da
Özü bütün dünyadı

Tanış üzlər



QƏRİBLİK

Dostum Mürvət Qədim oğlu Həkəriyə

Dünyanın qəriblikdən gələn yolu uzundu,
Hər gözəl başlanğıcın bil ki, axırı sondu.
Elə danışma, qağa, damarda qanım dondu.
Hayqırdı qulağımda tənha qalan qaya daş,
Gözünü nəmləndirib qəribəm demə, qardaş.

Hələ çox çəkəcəyik bulaqların nazını,
Qurban olduğum yazıb bizə belə yazını.
Hələ ki, əlimizdə misri qılıncın qını.
Darıxma, düşəcəkdir torpaq üstündə savaş.
Gözünü nəmləndirib qəribəm demə, qardaş.

Kəlbəcərdən Laçına gedən yoldu xəyalım,
Xocalıda, Şuşada qalıb cahu-cəlalım.
Elə düşünürsən ki, mən yanmıram, a zalım
Yenə quracayıq biz bulaqlar üstə bardaş,
Gözünü nəmləndirib, qəribəm demə, qardaş.

Qəribliyə gedən yol Vətəndən gəlib keçir,
Qəribə el obası həsrətdən bir don biçir.
Qəriblər ömrü boyu həsrət çəkir, qəm çəkir.
Həmişə xatirələr olur onlara sirdaş,
Gözünü nəmləndirib, qəribəm demə, qardaş.

Qəriblərin Vətəni ürəklərində olur,
Dodaqda açan güllər bəbəklərində solur.
Onlar ölən zaman da rahat məzarı olmur.
Cansız bədənləri də qalır məzarda çaş-baş.
Gözünü nəmləndirib qəribəm demə, qardaş.

QAYIT GƏL

(Yaxın dostum Hacı Füzuli müəllimin mərhum həyat yoldaşının əziz xatirəsinə)

Yolumu yarıda qoymusan mənim,
Qalmışam yolların ayrıcında tək.
Sönüb arzularım, sönüb istəyim,
Getmisən, nə olar, qayıt gəl, görək.

Ağrılı, əzablı günlərimdə sən
Mənimlə bölmüsən dərdi, kədəri.
Mənə əsgər kimi keşik çəkmisən,
Mən necə yaşayım sənsiz günləri.

Həyətdə, bağçada sənin əl izin,
Hər daşda, qayada ləpirlərin var.
Getdin uşaqların barın dərmədin,
Sənsiz çox tənhadır, yalqızdır onlar.

Mehrin, məhəbbətin çöküb otağa,
Hər yerdə görünür sənin izlərin.
Elə ki, girirəm tənha yatağa,
Yanımda boş qalır, görünür yerin.

Qədrini bilmədim yerli, ya yersiz,
Bəzən danladım da, söydüm də səni.
Heç nə söyləmədən, səssiz-səmirsiz,
Bir zaman yetişdi, tərk etdin məni.

Öldün qollarımın arasında sən,
Sənlə dəfn etdim məhəbbətimi.
Yox, sən ölməmisən, ürəyimdəsən,
Yenə mənimləsən əvvəlki kimi.

MƏMMƏD ASLANA

Dünya belə gəlib keçər,
Kim nə əksə, onu biçər,
Şairlər ölmür deyirlər,
Rövnəq verirlər cahana-
Güc verin Məmməd Aslana.

Yuva qurub başında dən,
Od götürüb kirpiyiynən,
Yalqiz qalib təkliyiynən,
Şeir yazıb yana yana-
Söz verin Məmməd Aslana.

Kitab olub dərdi-səri,
Sevməyib dürrü-göhvəri,
Gedib Laçın, Kəlbəcəri,
Sirrini verib pünhana-
Söz verin Məmməd Aslana.

Səsində bir sızıltı var,
Ürəyində kədər, qubar,
Qələmiylə dağ qoparar-
Güc verin Məmməd Aslana.

Sevir onu hər dağ, dərə,
Naxiş vurur sözə, şeirə,
Qiblə deyir Ələsgərə,
Səsi qalxır asimana-
Güc verin Məmməd Aslana.

Türk oğlu bir türkdür yaşar,
Ətrafında dərd dolaşar,
Bizdən başka kimsəsi var?
Qürurdu Azərbaycana-
Söz verin Məmməd Aslana.
Söz verin Məmməd Aslana!

TUT AĞACI

Yaxın dostum Cabbar müəllimə

Əl çatmaz zirvədir arzunun sonu,
Ha əl uzadaram əlim çatmayır.
Bu boş bir xəyaldı, bilirəm bunu,
İllərsə belimi əyir, qatlayır.

Bu tut ağacı da belədir qardaş.
Əlimiz yetməyir gözəl tutlara.
Tökülür budaqdan o, yavaş-yavaş,
Ya da ki, yem olur bəzi quşlara.

Alçaq budaqların hayı kəsilib,
Hələ yetişməyib biz yeyən tutlar.
Biz yeyən tutlara qar, yağış dəyib,
Yəqin ki, çox çətin yetişə onlar.

Bizə çatan tutlar ya boz, ya sarı,
Bozları yetişmiş, sarı tökülür.
Elə ki, başladı günün rüzgarı,
Onlar torpaq olur, yerə sürtülür.

Bizə çatan tutlar çox ucadadı,
Çıxma, yıxılırsan sən bu ağacdan.
Bu əli uzunlar yeyib doysaydı,
Biz də beş-on dənə yeyərdik ondan.

NƏ TEZ QOCALMISAN QARDAŞ

Dostum və tələbə yoldaşım
Rövşən Hüseynova

Qara saçın ağ olubdur,
Nə tez qocalmısan, qardaş?
Başın üstün çən alıbdır,
Nə tez dağ olmusan, qardaş?

İtib gənclik ilim-ilim,
Görür, inanmır gözlərim.
Ağarıb qara tellərin,
Nə tez qocalmısan, qardaş?

İllər belə tez keçərmiş,
Həyat demə bir cüt zərmiş.
Saça da payız gələrmiş,
Nə tez qocalmısan, qardaş?

Dünya atıb tutub səni,
Dəyişdirib qiyafəni.
Kaş heç görməyəydim səni,
Nə tez qocalmısan, qardaş?

MƏMMƏD ARAZA

Yaman gileyliyəm səndən, a şair,
Niyə bu yerlərə gec-gec gəlirsən?
Dağlar həm sənindir, həm də mənimdir,
Dağların dərdini heç dinləmirsən-
Niyə bu yerlərə gec-gec gəlirsən.

Batabat meşəsi yolunu gözlər,
Çiçəklər nur alar qədəmlərindən.
Səni qarşılayar səfalı çöllər,
Könlüm ilham alar söz gülşənindən-
Niyə bu yerlərə gec-gec gəlirsən.

Çınqıllı bulağı yolunu gözlər,
Qan damar yolların kirpiklərindən.
Çıxar pişvazına nazlı gözəllər,
İçərsən bal dadan şərbətlərindən-
Niyə bu yerlərə gec-gec gəlirsən.

Düşərsən dağlarda qara, yağışa,
Ötən günlərini xəyal bilərsən.
Əllərun toxunar torpağa, daşa,
Bir az gəncləşərsən, serləşərsən-
Niyə bu yerlərə gec-gec gəlirsən.

Qocalar, cavanlar arzular səni,
Uşaqlar tanıyar şerlərindən.
Kitabda görərik şəkillərini,
Deyərik bizləri atıb getmisən-
Niyə bu yerlərə gec-gec gəlirsən.

İslamsız yaşadıq neçə illəri,
Yəqin ayrılığa qəribsəyirsən,
Cəlillsiz, Cavidsiz keçən günləri
Bu gün o dağlara sən səsləyirsən-
Niyə bu yerlərə gec-gec gəlirsən,
Niyə bu yerlərə gec-gec gəlirsən?

ƏZİZ VƏ HÖRMƏTLİ MÜƏLLİMİM, DƏRƏƏLƏYƏZ MAHALIMIZIN AĞSAQQALLARINDAN BİRİ ZƏHMƏT MÜƏLLİMƏ

O yerlərdən söhbət acma,
Qopur yaramın qaysağı,
Deyirlər ki, yaman olur,
Kişilərin ağlamağa.

O bal kimi bulaqların
Damağımda qalıb dadi,
O günlərçün ağlamaqdan,
Gözlərimdə yaş qalmadı.

Ata-baba qəbirləri
Nigarandı necə vaxtdır,
Bizsiz kecən o gunlərdən
Qəlbim qisas alacaqdır.

Deyirsiniz bulaqlarda
Tez-tez şənlik, toy olardı,
Hər bulağın damlasında
Həyat eşqi cağlayardı.

Yamacların sinəsinə
Yayılardı qoyun, quzu,
Göllərində yuyunardı
Səhər doğan dan ulduzu.

Qonaqları heyran qoyan
Caylar nəğmə oxuyardı,
Al yanaqlı gözəl qızlar
Xalca, kilim toxuyardı.

Qayaları titrədərdi
Ayqırların kişnəməsi,
Cicəkləri oxşayardı
Bülbüllərin şirin səsi.

Zəhmət muəllim, o torpağa,
O ocağa gedir yolun,
Gəl, qardaşım birgə gedək
Mən də sizə yoldaş olum.

Necə illər sönmüş şamlar
Alışacaq, yanacaqdır.
Ay eloğlum, o torpaqlar
Yenə bizim olacaqdır.
Yenə bizim olacaqdır.

DƏRƏƏLƏYƏZ MAHALININ AĞSAQQALI HÖRMƏTLİ HƏSƏN MİRZƏYƏ İTHAF OLUNUR

Bilgəh şeir məclisində
Səndən dedi Həsən Mirzə.
O yerlərdən, o yurdlardan
Dərd gətirdi dərdimizə.

Dağlarının vüqarını,
Sərt qışını,baharını,
Həlim, sakit rüzgarını
Qatdı bizim sevgimizə.

Danışdıqca yandı,söndü,
Fırtınaya, selə döndü.
Sənin adınla öyündü,
Bir qürur bəxş etdi bizə.

Yurdumuzun ağsaqqalı,
Ruhən gəzdi o mahalı,
Hər dərəni, düzü,yalı
Yazdı bizim qəlbimizə.

Çox sevindi görüb bizi,
Yarı böldük dərdimizi.
O yurdun, elin əzizi
Mövzu oldu şeirimizə.

Danışdıqca sinəsindən
Vətən odu tökülürdü.
Ayrılığı, dərdi,qəmi
Həsrətinə bükülürdü.

O deyirdi şeirindəki
İlmələri düzə-düzə.
Vətən dərdi yazılmışdı
Şeirindəki hər bir sözə.

Danışdıqca ruhundakı
Yatan illər oyanırdı.
Gözlərinin qarşısında
Dərələyəz dayanırdı.

Gözlərindən bizə sarı
Bir qığılcım parlayırdı.
Bizi doğma elimizə
Əsgər kimi yollayırdı.

Öz yurdunu candan artıq
Vəsf eylədi Həsən Mirzə.
Sevgisini yarı bölüb
Ərməğantək verdi bizə.

MƏN RAMİZ RÖVŞƏN DEYILƏM

Mən Ramiz Rövşən deyiləm
Göydən günəşi endirəm.
Ayrılıq adlı dünyanın
Əyninə həsrət geydirəm.

Hamı sevir öz-özünü,
Peşə çəkir öz düzünü
Çoxu deyəmmir sözünü-
Əyrisindən düzü çoxdu.

Biri qara biri ağdı,
Məğrur qalan uca dağdı.
Günəş buludları sağdı,
Yağışı var, südü yoxdu.

ÖZÜMÜZ BİLMƏDƏN YAŞ GƏLDİ KEÇDİ

Dostum Musa müəllimə

İtirdik həyatda olub qalanı,
Əyləncə oyuncaq sandıq zamanı.
Aldıq çiynimizə qoca dünyanı,
Başımız üstündən daş gəldi keçdi,
Özümüz bilmədən yaş gəldi keçdi.

Tez keçdi bilmədik uşaqlıq nədi,
Eşqimiz hicrana dəyib göynədi.
Hər keçən günümüz bir qərinədi,
Zaman bulağından su içdi keçdi
Özümüz bilmədən yaş gəldi keçdi.

Kölgəyə çevrildi sevən baxışlar.
Bizə dərd gətirdi hər gələn bahar,
Bir gün yox olanda biz keçən yollar,
Gördük ki bu dünya fənadı heçdi,
Özümüz bilmədən yaş gəldi keçdi.

Yığdıq boxçamıza ötən günləri,
Çağırdıq keçənlər dönmədi geri.
Yandı sızıldadı min yara yeri,
Biri düz o biri səhv yolu seçdi,
Özümüz bilmədən yaş gəldi keçdi.

Hicranla doludur gecə gündüzüm,
Zamanın çarxında qalıbdır gözüm
Tanıya bilmirəm özümü özüm,
Ömrümün qatarı boş gəldi keçdi,
Özümüz bilmədən yaş gəldi keçdi.
Özümüz bilmədən yaş gəldi keçdi.

02.11.2024.

TƏBRİZİM

Görürəm nə qədər neməti səndə,
Çörəyə dönürsən dost qollarında.
Təsəlli olmusan bu ürəyimdə,
Öpürsən torpağı, opürsən daşı,
Sulara qatışır gözümün yaşı.

Ustad Şəhriyarın əllərində sən
Çiçəyə dönürsən, gülə dönürsən.
Təbrizli gözəlin kirpiklərindən
Silib aparırsan qarı, yağışı,
Sulara qatışır gözümün yaşı.

Gözlərim üstündə körpülər tikər,
Həsrətli ürəklər keçib görüşər.
Bakıda qatardan Şəhriyar düşər,
Çıxıb qarşılayar qardaş qardaşı,
Bax o vaxt kəsilər gözümün yaşı.

AYRILIĞIN YOLLARI

Ayrılığın yolları
Gah yeniş gah da yoxuş
Soruşmaq istəyirsən,
Sən məni məndən soruş.

Qəlbimin alovunda
Alış bir az, yan bir az.
Sevgi qədrin bilməyən
Məhəbbəti anlamaz.

ÖMRÜMÜN AXIRI YETİB DEYƏSƏN

Gözümün nurunu yuyub aparıb,
Özümü özümdən çəkib qoparıb.
Mənim bu dünyaya sözüm qurtarıb-
Ömrümün axırı yetib deyəsən.

Hay-hayım gedibdi, vay-vayım qalıb,
Zaman ünvanımı yoxuşa salıb,
Ürəyim qocalıb, fikrim qocalıb-
Ömrümün axırı yetib deyəsən.

Gözümdən silinib sevda dənizi,
İtib taleyimdən illərin izi,
Daha istəmirəm ilk eşqimizi-
Ömrümün axırı yetib deyəsən.

Başıma göylərdən od töküb fələk,
Oxşamır könlümü nə gül, nə çiçək,
Yaşasam sevgimiz sənsiz öləcək-
Ömrümün axırı yetib deyəsən.

YALTAQ ADAMLAR

Sözünü söz kimi deyənlər azdır,
Artıb qələmələr, artıb söyüdlər.
Çoxu kökdən düşmüş, qırıq bir sazdır
Gələnə, gedənə tərif deyirlər.

Kişi tək unudub əsl sözünü,
Hərdən bir cilidə girən çoxalıb.
Çoxları unudub əsil kökünü,
Yadında bir naqis yaltaqlıq qalıb.

Quyruq bulayırlar vəzifələrə,
Heçliyə enirlər boynuyoğunlar.
Ölüb dirilirlər gündə min kərə,
Guya çalışırlar kişi olsunlar.

Onlarçün bir fərqi yoxdur havanın,
Gələn nə çalırsa, oynayacaqlar.
Züy tutub yanında zurna çalanın
Alçala-alçala pul yığacaqlar.

TÖKÜLƏR

Silkələmə bu dünyanı,
Nəyi var yerə tökülər.
Köhnə, cırıq yamağının
Hamısı birdən sökülər.

Kal qarışar yetişmişə,
Sözün düşər dilə-dişə
O namərd olub həmişə,
Dərdim dərdinə bükülər.

Ağ günündən qarası çox,
Bir qarnı ac, birisi tox,
Heç insafı, mürfəti yox
Baxar, gülər, çıxıb gedər.

DƏYMƏ

Allahın evinə dəymə,
Uçurar sənin başına.
Çırpar ora, çırpar bura
Döndərər əhəng daşına.

Tanrı sevməz boş sözləri,
Yaltaq, rəzil, sərt üzləri,
Hər yeri görər gözləri
Heç nə deyil özbaşına.

Onun evi ürəyimiz,
Hər arzumuz, diləyimiz
Onsuz heçik, heç nəyik biz-
Zəhər qatma öz aşına.

Danışsanda bil sözünü,
Yekə tutma öz-özünü,
Kor eyləyər o gözünü
Kül ələyər gic başına.

ANA

Sən idin gecələrdə
Mənə lay-lay çalanım.
Sən idin by dünyada
Mənim olub qalanım.
Sənինlə itib getdi
Mənim ən gözəl anım-
Anam, ay anam.

Səni itirən zaman
Bu dünyanı itirdim.
Sənin arzularını
Mən həyata keçirdim.
Heyf öz əllərimlə,
Səni torpağa verdim-
Anam, ay anam.

Bütün söhbətlərimin
Yenə əzəli sənsən.
Dünyanın ürək dolu
Şeri, qəzəli sənsən.
Sən mənim ürəyimdən
Özgə yerdə deyilsən-
Anam, ay anam.

NƏNƏLİ GÜNLƏRİM

Yuxuda görürəm hərdən nənəmi
Nənəli çağlarım düşür yadıma.
Yapışıb əlimdən aparır məni
Çətinə düşəndə catır dadıma.

Hərdən qulağımı dartan barmağı
Xalça toxumaqdan olmuşdur qabar,
Keyfimiz olardı bayramqabağı
Çölə töküləndə sandıqdakılar.

Sağıb camışları qaymaq sərərdi
Nehrə çalxayardı ayda bir dəfə.
Bütün qonşulara pay göndərərdi
Qonşu uşaqları baxardı kefə.

Oturub gözlərdik gecə olanda
Nənəm layla deyib yatırsın bizi.
Həmişə yatmayıb sona qalanın
Yasdığı olardı nənəmin dizi.

Xəşıl biçirərdi hədik qoyardı
Ərişdə kəsərdi payız gələndə.
Yapdığı çöçənin bir tamı vardı,
Adam məst olardı onu yeyəndə.

Mənim ürəyimdə arzuya bir bax
Nənə istəyirəm ahıl yaşımda
Bir azdan qızlarım nənə olacaq.
Mən kimin nəvəsi olum bəs onda.

ÖVLADLARIMA

Siz gəlib gedirsiz tək qalıram mən,
Bu tənha divarlar sıxır qəlbimi.
Siz gəlib gedirsiz kirpiklərimdən
Od-alov tökülür səhərə kimi.

Siz gəlib gedirsiz tək qalıram mən,
Hər sözdən, kəlmədən ləzzət alırsız.
Siz gəlib gedirsiz ötən günlərdən
Mənim ürəyimə izlər salırsız.

Siz gəlib gedirsiz yuxularımın,
Hər bir dəqiqəsi dara çəkilir.
Siz gedəndən sonra göydə tavandan
Üstümə ayrılıq, həsrət tökülür.

Siz gəlib gedirsiz evin hay-küyü,
Siz gedən gecənin qoynunda itir.
Yanıma buraxıb zalım təkliyi,
Hərə öz yurduna-evinə gedir.

Bu da bir taledi, bu da bir ömür,
Alnıma ayrılıq yazılıb mənim.
Artıq küçələrin işığı sönür,
Durum, doqquz olsun işə tərpənim.

NƏVƏM İNCİYƏ

İnci yatmazdan qabaq
Gedib əlini yudu.
Sonra da asta-asta
"Cücələri" oxudu.

Dedi nənə, yatıram,
Gəl bir nağıl de mənə.
Keçi gedib süd versin
Yenə öz körpəsinə.

Canavar qamışlıqda
Gözləsin oz ovunu.
Balıqçı da dənizə
Atsın öz tilovunu.

Cırtdana qoy nənəsi,
Yağlı qoğal bişirsin.
Atam evə gələndə
O da qoğaldan yesin.

MƏN ŞEİR YAZANDA ŞAİR OLURAM

Dağlardan gül-çiçək dərib gəlirəm,
Dərdimi yamaca sərib gəlirəm,
Mən kim olduğumu yaxşı bilirəm,
Mən şeir yazanda şair oluram.

Bir qız gözləriylə öpürsə məni,
Yağış damcısıyla qovursa çəni,
Biri yandırırsa sevgi şəklini,
Mən onu görəndə şair oluram.

Biri dərd üstünə dərd gətirirsə,
Biri göz yaşıyla gül bitirirsə,
Birinin işləri düşəndə tərsə,
Mən onu görəndə şair oluram.

Bir eşqin ümidi parçalanırsa,
Bir dilək min yerə haçalanırsa,
Bir ana gözləri yolda qalırsa,
Mən onu görəndə şair oluram.

Biri ayrılanda öz sevdiyindən,
Ürəyi yananda həsrətdən, qəmdən,
Bezəndə həyata gəldiyi gündən,
Mən onu görəndə şair oluram.

Bir arzu yarımcıq yolda qalırsa,
Birinin haqqını biri alırsa,
Vallah durammıram, dünya dağılsa
Mən onu görəndə şair oluram.
Mən onu görəndə şair oluram.

ANALI GÜNLƏRİM

Anamın laylası çıxmır başımdan,
Həyət-bacamızın mehri azalıb.
Onun gülüşündən, xoş baxışından
Bizə göz yaşları xatirə qalıb.

Dadlı yeməklərin qoxusu gəlmir,
Hər şeyin ləzzəti qaçıb elə bil.
Heç nə bir anamin yerini vermir,
Elə bil evimiz həmin ev deyil.

Yatdığı çarpayı tənha-tək durub,
Elə bil əyilib qəddi onun da.
Analı günlərim yolda oturub,
Gözləyir qayıdam günün sonunda.

ÖLMƏZ ŞƏHİDLƏR

Ölümün ən böyük zirvəsində siz
Aybaay, günbəgün yüksəlirsiniz.
Torpaqdan göyərib çıxan çiçəklər
Sizin eşqinizdir, şizin nəğməniz.

Doğma Vətən üçün yanan iğidlər
Ay ölməz şəhidlər, ölməz şəhidlər.
Ana vüqarına, torpaq eşqinə,
Düşmən süngüsünə gərdiniz sinə.

Döndünüz Vətənin bir sevgisinə
Oldunuz Vətənə qurban bir əsgər.
Ay ölməz şəhidlər, ölməz şəhidlər,
El üçün keçdiniz siz canınızdan.

Çiçəklər su içdi al qanınızdan,
Adınız düşməyir dildən, ağızdan.
Yüz illər keçsə də, xalq sizi sevər
Ay ölməz şəhidlər, ölməz şəhidlər.

TƏNHA QADIN

Göz yaşından su içir,
Məzarlıqda gül-çiçək.
Ağlama, tənha qadın,
Gəl inadından əl çək.

Ötən günlərinin seli,
Alıb götürüb səni,
Ürəyin dönüb olub
Ayrılıqlar məskəni.

Bir zamanlar sevdiyin
İndi dönüb məzara.
Sənin ürəyindəsə
Bitişməyir bu yara.

Ağlama, tənha qadın,
Göz yaşından od yağır.
Qayıt ötən günlərə,
Onu yanına çağır.

Səndəki bu məhəbbət,
Bu istək ki, hələ var.
O sevdiyin insanı
Allah sənə qayatarar.

Hər an yanında olar
Fikirləri, xəyalı.
Onla birgə gəzərsən
Düzü, dərəni, yalı.

Ağlama, tənha qadın.
Dünyanın üzü qara.
Bir gün gələr dönərsən,
Yanında bir məzara.

BİLMİRƏM

Bu dünyanın saçı uzun,
Hörə bilmirəm, qardaş.
Ha baxıram görəm sonun
Görə bilmirəm, qardaşım.

İllər gəlir ilin üstə,
Bir arzu var hər nəfəsdə,
Yollar uzaq, ürək xəstə,
Gələ bilmirəm, qardaşım.

Arzu hara, dilək ora,
Güman sığmaz etibara.
Dünyanın hər üzü qara,
Silə bilmirəm, qardaşım.

Biri alan, biri satan,
Gözəl olur can üstə can,
İstəyim var bu dünyadan,
Ala bilmirəm, qardaşım.

Zaman mənə qurur tələ,
Göz yumuram bilə-bilə.
Çarpışıram ölüm ilə,
Qala bilmirəm, qardaşım.

HEÇ KƏSİN XƏBƏRİ YOXDU

Dünya naşıların əlində talan,
Alanı görünmür, satanı çoxdu.
Yalanın üstünə qalanır yalan,
Elə bil heç kimin xəbəri yoxdu.

Min ilmə üstündə yatır bir naxış,
Göydən palçıq kimi yağır qar yağış.
Getdiyin ünvana gedib çatmamış
Min cığır ayrılır, izləri yoxdur.

Eşitmir Allahı da kar qulaqlar,
Onların olundu çaylar, bulaqlar,
Yüz yerdə mülkləri sarayları var.
Kasıbı görməyə gözləri yoxdur.

Qaçıb gözlərindən çoxunun yuxu,
Kürkə birə düşüb, canına qorxu.
Naşıdı hədəfə vurammır oxu,
Artıq kor olubdu, gözləri yoxdu.

Ramizəm dərd gəlir dərdimin üstə,
Mən də boğuluram bu bəhsə-bəhsə.
Get Qorqud babanı, Tomrisi səslə.
Denən bu millətin dərdləri çoxdu.

OXU

Çal, qardaş, qoy düşüm mahnı selinə
Aparsın ümmandan ümmana məni.
Oxu, qurban olum, sənin dilinə,
Oxu, yadıma sal "Yanıq Kərəmi".

Oxu, sevənləri sal bir yadıma,
Dünyada sevgisiz yaşamaz heç kəs.
Aşiqlər minərək quş qanadına,
Məhəbbət dalınca getməyibdi bəs.

Oxu bu dünyanın dərdi-sərindən,
Ayrılıb başqa bir aləmə düşüm.
Oxu məhəbbətin şah əsərindən,
Məcnun Leylisini tapıb görüşsün.

Oxu, zəngulələr çatsın hayıma,
Dünyanın azından, çoxundan keçim.
Allah bəxş etdiyi sevgi payıma
Ayrılıq dəyməsin, hicran dəyməsin.

ÖMÜR KARVANI

Qardaşım, qəlbimdən keçən sözləri,
Əıllərim kağıza köçürə bilmir.
Elə sözlər var ki, mənim qəlbimdə,
Desəm cılızlaşır, sözüm kiçilir.

Tale yollarında tapışmışıq biz,
Dostluq körpüsündə gedirik qoşa.
Bilirəm nə vaxtsa bizim sevgimiz
Çöküb qatışacaq torpağa, daşa.

Ömür karvanının sonu yetişir,
Qəlbimiz məhəbbət, sevgi yuvası.
İl keçir, saçların rəngi dəyişir,
Gəlir üstümüzdən ölüm qoxusu.

HARA ƏYİLİRSƏN ZALIM BALASI?

Bu qədər alçaqlıq hardandı səndə?
Səni doğan ana bir daş doğaydı.
Bir müdir görəndə, rəis görəndə
Belin dikələydi, bir dik duraydı.
Çıxaydı başından bu pul sevdası
Hara əyilirsən zalım balası?

Əlini sinənə az qoyub danış
Səndə bir kişisən axı bir evdə,
Üzünə min dəfə söyən adamın
Yanına qayıdıb gedirsən birdə
Atandı müdirin ölən atası
Hara əyilirsən zalım balası.

Hərdən xoruzlanıb cuşa gəlirsən
Yalmana yalmana yer axtarırsan
Əynində şalvar var kişi deyilsən
Min yerə cırılmış köhnə çarıqsan.
Tökülsün üstünə düzün qadası
Hara əyilirsən zalım balası

Yoğun peysərindən qan damır sənin
Gövdənə baxırsan qürrələnirsən
Min lənət goruna sənin dədənin,
Hər yerə yaltaqlıq dəni səpirsən
Başında dolanır müdür sevdası,
Hara əyilirsən zalım balası

Evdə arvad uşaq nə deyir sənə
Hərdənbir bığını tumarlayanda
Qeyrətin olaydı bığın yerinə
Sən də bir kişicik olardın onda
Xəcalət çəkməzdi qadın dünyası
Hara əyilirsən zalım balası.

Bu qədər alçaqlıq hardandı səndə
Bir gün əyilməkdən sınaçaq belin.
Xəcalət çəkirəm səni görəndə
Sözünə çevrildin mənim şerimin
Bir ipin yoxdumu özün asası
Hara əyilirsən zalım balası
Hara əyilirsən zalım balası

SƏN GÖRƏN KİŞİLƏR AZALIB, QAĞA

(Dostum Məmməd Əlizadəyə)

Sən görən kişilər azalıb, qağa,
Dünya talanıbdı, talan olubdu.
Oğrunun dediyi sözlər düppədüz
Düzün dedikləri yalan olubdu.

Sən görən kişilər azalıb, qağa,
Pul ilə ölçülür indi hər nə var.
Kimin çox pulu var gedir qabağa,
Pulu olmayanlar çəkir ahu-zar.

Sən görən kişilər azalıb, qağa,
Yeznə qaynatadan böyük olubdu.
Elə dəvələr var girib pambığa
Kollar arasında evcik qurubdu.

Sən görən kişilər azalıb, qağa,
Çoxdu çalıb-çapıb haram yeyənlər
Namus-qeyrətini atıb küçəyə,
Sonra da bahalı maşın minənlər.

Sən görən kişilər azalıb, qağa,
İndi gədələrin işi asandı,
Çoxunun nəyi var verir qabağa
Deyir istedaddı, oddu, filandı.

Sən görən kişilər azalıb, qağa,
Aləm qatışıbdı biri-birinə,
Gədələr başına parik keçirib
Gecələr işləyir arvad yerinə.

Sən görən kişilər azalıb, qağa,
Yoxdu Kərbəlayı, Abbasqulu bəy,
Əgər şübhə etsən dediklərimə
Bir gecə Bakıda Tarqovuya dəy.

Sən görən kişilər azalıb, qağa,
Deyəsən çatıbdı dünyanın sonu.
Sən görən kişilər azalıb, qağa,
Görüb duyduqlarım söyləyir bunu,
Görüb duyduqlarım söyləyir bunu.

BİR AĞ TAPIB GƏTİRİN SİZ MƏN ƏYNİMƏ KƏFƏN GEYİM

Ürəyimdə qurub yenə məhkəməni,
Etmədiyim günahlarım qərar verib
asır məni.
Şahidlərin dedikləri yalan-palan,
Ancaq mənəm bu yalanlar ortasında
tənha qalan.
Yaddaşımdan cıxıb coxdan kimə
harda nə dediyim,
Bir ağ tapıb gətirin siz, mən əynimə
kəfən geyim.

Deyirlər ki, yalanlardan nəyə görə
danışmısan,
Niyə bəzi düz işlərə qaynamısan
qarışmısan.
O gün yenə bir naqisin bostanına
daş atmısan,
Deyirəm ki, qınamayın, qocalmışam,
yoxdu heyim,
Bir ağ tapıb gətirin siz, mən əynimə
kəfən geyim.

Əgər ürək hakim olub ədaləti
qorumursa,
Əgər o da dəbdə olan yaltaqlığa
qul olursa,
Onda nədən danışım mən, nəyi kimə
acıb deyim,
Bir ağ tapıb gətirin siz, mən əynimə
kəfən geyim.

Düz sözlərim ürəyimə çox yerlərdə
çəkib çəpər,
Çox vaxt sıxıb saxlamışam mən
özümü lap birtəhər,
Soruşmuşam, ürək qardaş, dözmək
olar de nə qədər,
Bilirsənmi heç nələrdi illər boyu
itirdiyim,
Bir ağ tapıb gətitin siz,
Mən əynimə kəfən geyim.

Ürəyimsə çox tərs olub, öz hökmünü
dəyişməyir,
Bu günahsız günahlını, vicdanından
asın deyir,
Vicdanımsa hey ağlayır, hey yalvarır
xeyir-xeyir,
Dayanın siz, tələsməyin qoy mən
sizə həqiqəti açıb deyim
Qışqırıram, heç nə demə, artıq gecdi
mən ölürəm,
Bir ağ tapıb gətirin siz,
Mən əynimə kəfən geyim.

MƏNİ O YERLƏRƏ QAYTAR AY ALLAH

Mərhum dostum Məmməd Əlizadənin
Kəlbəcərli is adamının atası haqqında yazdığı
kitabda olan "Məni yerlərə qaytar ay Allah"
şerimi sizlərlə bölüşmək qərarına gəldim.

Cuxur bağ yolunda itib izlərim,
Dik daşın üstündə qalıb gözlərim,
Talanıb, dağılıb kəndim, şəhərim-
Məni o yerlərə qaytar, ay Allah.

Ağdaban, Bazarcay yaylağım hanı?
Ver mənə Damcını, o Əhlimanı.
Neynirəm onlarsız nən bu dünyanı-
Məni o yerlərə qaytar, ay Allah.

Hanı Xanımdaşı, o şəfa pirim,
Onlarsız coxalıb, artıbdı dərdim.
Ağ düz, Şükürbəyli mənim yurd yerim-
Məni o yerlərə qaytar, ay Allah.

Ruhum Ozıl qaya, Gəlinqayada
Hər nə xatirəm var qalıb orada
Hasar məhəbbəti düşübdür yada-
Məni o yerlərə qaytar, ay Allah.

Səbrim tükənibdir, az-acıq qalır
Üstümə qəm yağır, ayrılıq yağır,
Nənəmin, babamın ruhu cağırır,
Məni o yerlərə qaytar, ay Allah,
Məni o yerlərə qaytar, Ay Allah.

HƏR PAPAQ QOYANA KİŞİ DEMƏZLƏR

İtir yavaş-yavaş soyu-kökümüz,
Kəsərdən düşübdü kişi sözümüz.
Əyri qarşısında ikiqatdı düz,
Hələ qarşıdadı bundan da betər,
Hər papaq qoyana kişi deməzlər.

Kəlbayı çoxalıb, Hacı çoxalıb,
Çoxu insanlığı pul ilə alıb.
Aqillər, alimlər kənarda qalıb,
Yalanla doludur indi kənd-şəhər,
Hər papaq qoyana kişi deməzlər.

Saqqalı yerində, bığı yerində,
Hər gün yol gözləyər dalanda, tində
Arvad aldığıdı başda, əyində,
Dəyər peysərinə dəyən hər xəbər,
Hər papaq qoyana kişi deməzlər.

Zatı, qeyrəti yox, kökdən danışır,
Bir düz söz deyirsən, yanır-alışır.
Pislər yaxşılara yaman qarışır,
Çönüb xoruzlanır dindirsən əgər,
Hər papaq qoyana kişi deməzlər.

Qeyrət dərman deyil vurasan qana
Ölən hislərini gətirə cana.
İnsan bircə dəfə gəlir cahana,
Oğluna, qızına qoyur bir əsər,
Hər papaq qoyana kişi deməzlər.

Kişi hüceyrəsi yoxdu genində,
Baş üstə, bəlisi hər vaxt dilində.
Qəbrini tanımır dədəsinin də,
Özgənin qəbrinə göz yaşı tökər,
Hər papaq qoyana kişi deməzlər,
Hər papaq qoyana kişi deməzlər.

KOSA BİR SAQQAL QOYUB

Kosalar saqqal qoyur indi dəlləyi çoxdu,
Sən deyən o kəlamlar çoxdan itibdi yoxdu.
Ballı nənə gördüyün aclar hamısı toxdu.
Qonşular, dost tanışlar hərəsi bir yandadı,
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.

Güləşmir toy-düyündə əvvəlki tək cavanlar,
Tez-tez yadıma düşür sən dediyin kəlamlar.
Deyirdin diqqət etsə qurbağa da dil anlar
İndi toylar kənddə yox,daha restorandadı.
Kosa bir saqqal qoyub tamaşa qırxandadı

Daha zurna calanlar getmir köhnə bəy gilə,
Kənd də parçalanıbdı hey seçilə-seçilə,
Yaddan çıxıb sizlərin oynadığı" Nargilə"
İndi təzə mahnılar istənilən sandadı,
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.

Bəylər damın üstündən alma atmır gəlinə,
Daha örpək zad yoxdu,açıqdır boyun-sinə
Kənd diksinib oyanmır daha güllə səsinə,
İndiki bu cavanlar başqa bir dövrandadı.
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.

Deyərdin ki, elə ye mismarı olsun bədən,
Elə yemə yırtılıb göyə dağılsın gödən.
Vallah kənddə qalmayıb bir ağsaqqal, başbilən,
İndi evlərin çoxu "Üçqulaq"xırməndadı,
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.

Deyərdin Əlo kişi çox bilirdi nağıllar,
Xatın nənə paslanmış bağlı qıfılı açar.
İndi sən görən deyil kənddə çox ziyalı var,
Camaat yeyib içir yaxşı bir dövrandadı.
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.

Baxişların,sözlərin hər vaxt düşür yadıma,
Oğul balam deyərdin mənim Ramiz adıma.
Bu gündə baş əyirəm sən tək aqil qadına
Hənişə yaşayacaq Ballı nənənin adı,
Kosa bir saqqal qoyur tamaşa qırxandadı.
Kosa bir saqqal qoyub tamaşa qırxandadı.


Təmsillər

TƏMSİLLƏR

Bir gün bülbül oyandı
Boz sərçənin səsinə.
Gördü sərçə həvəslə
Döyür öz sinəsinə.

Deyir mənəm bağçanın
Nəğməkarı, bəzəyi.
Bülbüllər öyrənibdir
Məndən gülü sevməyi.

Bülbül sakit, dinməzcə,
Çıxdı öz yuvasından.
Gəldi tutdu sərçənin
O nazik boğazından.

Dedi bəsdir, bir utan,
İşindən əməlindən.
Bu cür hərəkətinlə
Elə bu gun sərçəsən.

Hərə bir yandan düşüb,
Tez kəsdilər qoyunu,
Sonra da eylədilər
Canavarın toyunu.

Bir eşşəyi bəzəyib,
Mindirdilər maşına.
Zər, qumaş da tökdülər,
Üzünə, üst-başına.

Dedilər bundan sonra
Adın dəyişib sənin.
Bu gözəl insan oldu
Sənin ağan, rəhbərin.

Çoxlu ot-saman verib,
Kökəldəcək o səni.
Amma anqıran zaman
Alcaq eylə səsini.

Eşşək bir az duruxdu
Deyilən bu sözlərə.
Dedi mən anqırmaram,
Bilin heç vaxt boş yerə.

Xoruz gəldi, toyuqlar,
Düşdülər vəl-vələyə.
Bir çil fərə tez qalxdı,
Yerindən söz deməyə.

Dedi bu ferma ki, var
Sənin mülkiyyətindi.
Fikirləşmə bizlərlə
İşləmək çox çətindi.

Biz sənin qul əsirin,
Sən bizim ağamızsan.
Bu fermanı almaqla
Sən bizi də almısan.

Bir kəndli yük vurmuşdu,
Yenə yazıq ulağa.
Onun taqəti yoxdu
Uca dağı qalxmağa.

Kəndli daldan ağacla,
Hey vururdu eşşəyi.
Yazıqsa düşünürdü
Yaşamaqdan ölməyi.

Yükü aşırıb yerə,
Aradan çıxdı ulaq.
Tez gözdən itib getdi
Ordan uzaqlaşaraq.

Yükün sahibininsə
Yaman qaraldı qanı.
Eşşəyi söyə-söyə
Döyəclədi palanı.

Meşədəki heyvanlar
Yığışdılar bir yerə.
Dovşan yerindən qalxıb
Söz dedi birdən-birə.

Dedi ki, bu meşədə,
Döyür bizi hər görən.
Mən dovşanlar adından
Bir imdad istəyirəm.

Şir yerindən qalxaraq
Sığalladı telini.
Dedi ki bu dovşanın
Tezcə kəsin dilini.

Gündə üçdörd yol sağıb,
Üzmüşdülər inəyi.
Quru saman olmuşdu
Axşam-səhər yeməyi.

Dəvə fili görməmiş
Yaman xoşallanırdı.
Özünü bu dünyada
Uca heyvan sanırdı.

Elə ki, fili gördü,
Tez əyildi qulaqlar.
Dedi mən kiməm axı?
Məndən də yekə fil var.

TƏMSİL

Yaralı şir gəzirdi
Meşədə neçə vaxtdı,
Ən çox sevdiyi məkan
Yuvasıydı, yataqdı.

Heç kim gəlib demirdi
Halın necədir sənin,
Yadına da düşmürdü
Meşədə bir kimsənin.

Bir balaca siçan da
Gəzirdi yan yörədə
O da həmdəm olmuşdu
Şir tutulan o dərdə.

Tülkü çaqqal keçirdi
Tez-tez o yan bu yana,
Şirin düşməni sənsən
Deyirlər dovşana.

Siçan sığal çəkirdi
Şirin uzun telinə,
Şirə də pay bölürdü
Nə düşsəydi əlinə

Deyirdi ay şir qağa
Darıxma sən heç zaman,
Allah köməyin olar
Qalxarsan,sağalarsan.

Amma sağlam olanda
Dost düşməni tanı sən,
Uzaq dur hər bir zaman
Yaltaqların felindən.

KİRPİ

Kirpini görən kimi
Cəvahir çəkildi dala.
Elə bərk diksindi ki,
Yıxılmışdı az qala.

Çağırdı nənəsini,
Dedi, nənə, bura bax.
Gəl gör bu nədir belə?
Məni indi sancacaq.

Nənə tez gəldi gördü
Balaca kirpiciyi.
Dedi sənsən qorxudan
Bu gözəl Cəvahiri.

Dedi, balaca balam,
Kirpi azıb yolunu.
İndi anası gəlib
Tapıb aparar onu.


Rəvayət

RƏVAYƏT

Bir şah vardı yüz illər, min illər bundan qabaq,
İstəyirdi ruhuna yandırsın sönməz çıraq.

Böyük ədalətlə səs salmışdı cahana,
Eşidənlər, bilənlər əhsən deyirdi ona.

İstəyirdi dünyada yadigar bir şey qoya,
Hər vaxt yardım edərdi şərə, xeyirə, toya.

Çağırıb əyanları dedi, deyin, görüm mən,
Hansı xeyir iş görsəm, gül cənnəti görərəm.

Biri dedi körpü tik adını yazdır sala,
Ya da geniş bir yerdə tikdir basılmaz qala.

Bir nurani qoca da həmdəm idi söhbətə,
Dedi şahım yaxşı söz unudulmaz heç vədə.

O gündən şah başladı ömrün sələnməsi,
Koçürdü ağ kağıza ürəyinin səsini.

Çoxlu şeirlər yazdı gecələri, gündüzü,
Ancaq saraydan çölə çıxmadı heç bir sözü.

Sarayın əyanları tərif dedilər ona,
Onu geyindirdilər bir peyğəmbər donuna.

Şah dedi, eşitmişəm bir şair var şəhərdə,
Adı dillərdə gəzir, hörməti var hər yerdə.

Gedin tapın şairi gətirin hüzuruma,
Qoyun, arxayın olum bir gün kim olduğuna.

Şairi gətirdilər dinlədi şeirləri,
Dedi şahım sözündə yoxdu sənət əsəri.

Sən bu şeirlərində səs salmazsan cahana,
İstərsən məni öldür, istəyirsən lap qına.

Şahsa çox fikrə gedib hökm etdi bir anlığa,
Dedi ki, bu şairi qatın bir samanlığa.

Aylar, illər ötüşdü şah hey yazdı durmadan,
Əyanlarsa dedilər yaxşısı yoxdu ondan.

Bir gün şahın yadına düşdü zavallı şair,
Dedi gətirin görüm, indi şair nə deyir.

Şairi gətirdilər baş əydi hüzurunda,
Şair gördü sənətdən bir əsər yoxdu onda.

Dedi şahım yalan söz deyəmmərəm mən sənə,
O əvvəlki sözümün üstündəyəm mən yenə.

Bir zərrədən heç zaman nur olmaz qaranlığa,
Şahım buyur, qoy məni qatsınlar samanlığa.

Bu dünyada yaxşı söz qoyub getmək üçün sən,
Gərək hər vaxt, hər zaman zəri zərdən seçəsən.


Elə bu minval ilə şah vurdu ömrü sona,
Zamansa qiymət verdi onun kim olduğuna.

RƏVAYƏT

İnsanların həyatı həmişə qalmaqaldı,
Çoxları yaxşı bilir nə haram, nə halaldı.
Amma bütün dünyanı qucaqlayıb qalırlar.
Çoxlu pul yığa-yığa enirlər, alçalırlar.
Gözləri doymur heç vaxt bu dünyanın malından
Heç xəbərləri olmur kasıb ahu-zarından
Elə bilir dünyanı belə tutub qalacaq
Heç bir vaxt sönməyəcək yandırdığı bu ocaq.
Amma həyat dəyişir bəzən bircə andaca
Yüz yerə parçalanır tüstü çıxan bir baca,
Qocaman ağaclarda dözmür yağış selinə,
Amma çox insanların bəsdi gəlmir dilinə.
Belə bir rəvayəti söyləyibdi qocalar.
Çox söylənən kəlamda gizli bir həqiqət var.
Çoxun çoxluca dərdi, azında az dərdi var.
Bir kişi saxlayırmış tövləsində bir inək
Qazanarmış özünə, ailəsinə duz, çörək.
Aylar gəlib ötüşür inək bir bala doğur.
Kişinin ailəsinə gətirir böyük uğur.
Bu tövlədə kişinin bir ulğaı da varmış.
İnəklərə ot, ələf bu ulaq daşıyarmış.
Ulağın da var imiş balaca bir balası,
Başqa imiş onların yaşam tərzi, dünyası,
Ev sahibi hər səhər tezdən durub yenidən
İnəyə ot verərmiş, otun çiçək yerindən.
Ulağın balasının gözü qalardı yolda,

Quru küləş qalardı ona hər zaman sonda
Bir dəfə astacana soruşur ki, ay ana
Niy qonaq etmirlər bizi ota, samana
Həmişə çör-çöp olur axşam səhər payımız.
Belə keçir nə vaxtdır hər günümüz ayımız.
Anası deyir dinmə gözlər işin sonunu
Vaxt yetişər bilərsən bunun nə olduğunu.
Bir gün bir qəssap gəlib aparanda dananı
Qopub düşdü yerindən qoduğun xırda canı
Dedi qorxuram ana məni də apararlar
Bizim də başımıza gələr belə ahu-zar.
Anası dedi sənə söyləmişdim əzəldən
Çox yemək az yeməyi alıb aparar əldən
SƏn heç qorxma, darıxma düşmə belə təşvişə
Quru saman yemişik biz qış boyu həmişə
Yağlı ot kəpək verib kökəldəndə yiyəsi
Bizi cana yığmışdı dananın axmaq səsi
Həmişə çox yeməklər gətirər cana.....
Çoxun çoxluca dərdi, azında az dərdi var.
Bu minvalla bu qoca məsəli vurdu başa.
Dedi ki, sizdə deyin yaxın dosta sirdaşa
Qoy dünyanın malına uyub yaşamasınlar
Nə vara, nə dövlətə heç vaxt qul olmasınlar.

Bulağın nağılı



HEYDƏR BABA

Elin xilaskarıdı,
Dövlətidi, varıdı,
Xalqın arzularıdı
Heydər baba.

Millətini sevəndi,
Dərdi xalq ilə təndi,
Azad, doğma vətəndi
Heydər baba.

Gül açan arzulardı,
Solmayan bir bahardı,
Qorquddan yadigardı
Heydər baba.

Odur elin atası,
Sərkərdəsi, dühası,
Qəhrəmanlıq qalası
Heydər baba.

Solmayacaq heç zaman
Yaratdığı gülüstan.
Ürəyi Azərbaycan
Heydər baba.

ANAMA

Dünyada hamıdan çox
Üç şeyi sevirəm mən.
Ana, mənə əzizdi
Vətən, bayraq, bir də sən.

Vətən mənim atamın,
Babamın məslək yeri.
Mənimçün çox əzizdi
Vətənin sərhədləri.

Bayrağım bu dünyada
Hər vaxt tanıdır məni.
Onunçün mən bayrağı
Sevirəm sənin kimi.

Sənsə mənim gözümün
İşığı, eşqi, canı.
Sənsən mənə sevdirən
Doğma Azərbaycanı.

BULAĞIN NAĞILI

Deyirsən göz yaşıdı
Bulaqdan gələn sular.
Baba, söylə bu qədər
Məgər ağlamaq olar?!

Bulaq niyə ağlayır
Görən neçə illərdi?
Niyə bu bulaqların
Bitib-tükənmir dərdi?

Hardandı bu zirvədə
Bu qədər göz yaşları.
Niyə bulaq sakitcə
Qucaqlayır daşları?

Suları niyə donmur
Qış vaxtı bulaqların?
Axı zirvəsindədi
Çoxu uca dağların.

Niyə onlar tələsik
Həmişə axıb gəlir?
Qayadan çıxan kimi
Rahatlanır, dincəlir.

Baba, niyə dinmirsən,
Sakit baxırsan yenə.
Deyəsən çox suallar
Bu gün mən verdim sənə.

Baba ovuşduraraq
Alnında qırışları.
Dedi: - heç vaxt qurtarmaz
Dünyanın sualları.

BABANIN NAĞILI

Nəvəm məndən soruşur:
- Söylə, babam, niyə sən
Nağıllar bitən zaman
Bizə alma bölürsən.

Həmişə üç almadı,
Niyə çoxalmır axı?
Dərələr, düzlər keçib
Hardan tapırsan dağı?

Az gedib, üz gedirsən,
Dərəylə düz keçirsən.
Bir aylıq məsafəni
Bir anda qət edirsən.

Gah divlə savaş qurub
Su alırsan əlindən.
Gah da böyük sarayı
Yox edirsən yerindən.

Gah Məlikməmmədləri
Yendirirsən quyuya.
Gah da Əlibaba tək
Qoymursan yağ soyuya.

Həmişə nağıllarda
Şahlar zülmkar olur.
Kasıb bir ailədəsə
Qəhrəmanlar doğulur.

Sehirli çıraq tapıb
Verirsən Ələddinə.
O da əmrlər edir
Çıraqdan çıxan cinə.

Balıqçının toruna
Qızıl balıq salırsan.
Sonra da qarısından
Hər bir şeyi alırsan.

Boyu xırda olsa da,
Güc verirsən cırtdana.
Divi məcbur edirsən
Yemək bişirsin ona.

Quşların qanadında
Uçurursan adamı.
Zəhərlə doldurursan
Şərin içdiyi camı.

Elə ki, mən yatıram
Hər şey qalır səhərə.
Mən yatan ana qədər
Əldən düşür dağ-dərə.

Nəvəmin sualları
Heç vaxt yetişmir sona.
O, mən babanı tapıb,
Mənsə özümə ana.

QUŞLARIN DOSTU

Qışda qar yağan zaman
Hər yer olur ağappaq.
Bilirəm ki, sərçələr
Tezdən yem axtaracaq.

Dururam süpürürəm
Həyətin bir küncünü.
Görürəm ki, sərçələr
Tez yetirdi özünü.

Elə ki, dən səpirəm,
Lap çoxalır sayları.
Siz də dən verin, dostlar,
Quşlara qış ayları.

DƏNİZDƏ ÇİMƏN AY

İnci dedi: - ay nənə,
Bir bura gəl səssizcə.
Bax gör ay necə çimir,
Gecə vaxtı dənizdə.

Bilirəm anası da
İcazə verməz ona.
O isə özün atıb
Ləpələrin qoynuna.

Yəqin soyuqlayacaq,
Xəstə olacaq, nənə?!
Axı o baxmayıbdı
Nənəsinin sözünə.

BEŞ ALAN QIZ

Mən hər gün beş alıram,
Evdə sevinir hamı.
Qoymurlar ki, əlimdən
Yerə qoyam çantanı.

Nənəm öpür üzümdən,
Sığallayır telimi.
Babam deyir, bu hər gün
"Beş" alan qız deyilmi?

Gətir görüm yanıma
Qucaqlayım onu bir.
O hər gün evimizə
Yağlı "beş"lər gətirir.

QURBAĞALAR

Onun qur-qur səsindən
Yatmaq olmur gecəni.
Tezcə səsini kəsər,
Yaxında görsə səni.

Biri quruldayan tək
Qışqırır o birsilər.
Elə bil qamışlığa
Nəyisə söyləyirlər.

Suya bircə daş atsan,
Sakit, lal dayanarlar.
Bir az keçsə səsini
Qaldırar qurbağalar.

BALACA KÌRPÌ

Kirpini görən kimi
Əsmər çəkildi dala.
Elə bərk diksindi ki,
Yıxılmışdı az qala.

Çağırdı nənəsini,
Dedi:- nənə, bura bax.
Gəl gör, bu nədir belə,
Məni indi sancacaq.

Nənə gəlib görəndə
O balaca kirpini.
Dedi: -balam, dəyməsən,
O heç vaxt sancmaz səni.

Gəl gedək evimizə,
Kirpi azıb yolunu.
İndi anası gəlib
Tapıb aparar onu.

ÖRDƏK

Qartopu oynayardı
Həyətdəki uşaqlar.
Onları qorxutmurdu,
Nə soyuq, nə də ki, qar.

Xizək sürən, sürüşən,
Hərə bir iş görürdü.
Bapbalaca bir ördək
Suda batır, üzürdü.

Səma, Aylın, İnci də
Qışqırırdı uzaqdan.
Deyirdilər:- ay ördək,
Çıx çölə, boğularsan.

BAHARDA

Bağçanın həyətində
Oynayırdı uşaqlar.
Deyirdilər:- baxın bir,
Gör nə qədər çiçək var.

Qırmızı, yaşıl, sarı,
Hərəsi bir rəngdədi.
Güllər elə açıb ki,
Elə bil çələngdədi.

Quşların cəh-cəh səsi,
Yayılıbdı hər yana.
Arılar şirə çəkib
Aparır yuvasına.

Qaranquşlar, sərçələr
Uçuşurlar havada.
Hər yer cənnətə dönür
Gül üzlü xoş baharda.

TISBAĞA

Tısbağanı görəndə
Sevindilər uşaqlar.
Dedilər:- ay nənə, bax,
Burda gəzən papaq var.

Çanağından başını
Hərdən çıxardır çölə.
Yavaş-yavaş yeriyir,
Yeriş öyrənir hələ.

Ayaqları görünmür,
Gizlədib hər yerini.
Ciblərinə qoyubdu
Yəqin ki, əllərini.

Nənə dedi: - ay bala,
Çəkilin bir qırağa.
Sizi görüb qorxubdu
Bu balaca tısbağa.

Çox səs-küy qaldırmayın,
Qoy getsin yuvasına.
O da şirin baladı
Axı öz anasına.

MƏKTƏBƏ GEDƏCƏYƏM

Ayaqqabım təptəzə,
Corablarım tərtəmiz.
Koftam ütülənibdi,
Qar kimidi, ləkəsiz.

Artıq oyuncaqlarım
Qalıb kiçik bacıma.
Bütün gəlincikləri
Hədiyyə etdim ona.

Məktəbdə kitabları
Səliqəli saxlayacam.
Dərsləri oxumaqda
Birinci mən olacam.

KEÇİNİN BALALARI

Keçinin balaları
Yaman dəcəldi, baba.
Qoymurlar arpa tökəm
Balaca, xırda qaba.

Kiçik buynuzlarıyla
Vururlar bir-birini.
Tökürlər quzuların
Burnundan yediyini.

Hərdən ki, aparıram
Onları su içməyə
Ora-bura qaçırlar,
İtim gəlir köməyə.

Elə ki, axşam olur,
Sürü gəlir obaya.
Dağlar əks-səda verir
Obadakı o haya.

Ana mələyib tapır
Balaca körpəsini.
Onda dəcəl çəpişlər
Tez kəsirlər səsini.

GÜLLƏRİN DOSTU

Çiçəkləri oxşayır
Zərif ayaqlarıyla.
Özü də bir çiçəkdi
Gözəl qanadlarıyla.

Gəzdiyi çiçəkləri
Sığallayır, oxşayır.
Çiçəklərin eşqiylə
Bahar ömrü yaşayır.

Sanki salam aparır
Bir güldən başqasına.
Onunçün "güllər dostu"
Adı qoyublar ona.

MƏSTAN

Bu balaca məstanı
Sevir həyətdə hamı.
Səyyad ona düzəldib
Balaca pişik damı.

Əllərinə nə keçsə
Tez qaçırlar yanına.
Ya özünə verirlər,
Ya qoyurlar damına.

Anasıyla oynayır,
Onu yığır lap cana.
Uşaqlar şirin deyir
Xırda, toppuş Məstana.

HÖRÜMÇƏK

Arı çabalayırdı
Hörümçəyin torunda.
Gördü ki, uduzubdu
Düşdüyü bu oyunda.

Nə qədər əl, qol atdı,
Haya çatan olmadı.
Damağındaca qaldı
Yediyi balın dadı.

Hörümçəksə torunu
Yavaş-yavaş çəkərək
Yuvası ağzındaca
Tapdı özünə yemək.

ŞAXTA BABA VƏ GÜNƏŞ

Şaxta baba düzəldib
Oynayırdı uşaqlar.
Xariqə yaratmışdı
Kiçik heykəltəraşlar.

Günəşin çıxmasıyla
Hər şey dəyişdi birdən.
Heykəlin baş-ayağı
Qopub düşdü yerindən.

Nə qədər çalışdılar
Bir şey hasil olmadı.
Şaxta baba uçuran
Qaldı günəşin adı.

CÜCƏLƏR

Balaca cücələri
Görən kimi uşaqlar
Yerlərində tullanıb,
Düşməyə başladılar.

Biri dedi, bu mənəm,
O biri dedi, bu mən.
Qışqırdılar, sevincdən
Yaş gəldi gözlərindən.

Anası qaqqıldayıb
Çağıranda cücələr
Bir-birinin dalınca
Qaçıb çıxıb getdilər.

BAĞÇAYA GEDƏN QIZ

Gülay gül kimi qızdı,
Hər gün tezdən oyanır.
Səhər yeməyin yeyib
Bağçasına yollanır.

Dostları da bağçada
Çox sevirlər Gülayı.
Axı bu şirin qızın
Heç yerdə yoxdu tayı.

Bayramlar olan zaman
Gəlin oyması geyir.
Bilirsiniz heç Gülay
Nə qədər şeir bilir?

Bacısı İncinin də
Çox qalır qayğısına.
Çətinə düşən zaman
Kömək eyləyir ona.

Ata-anasının da
Hər vaxt baxır sözünə.
Babası eynək alıb,
Hərdən qoyur gözünə.

Yumdu-qaçdı oynayır
Babasını görən tək.
O bir adi qız deyil
Gözəl çiçəkdi, çiçək.

ÇİL XORUZ

Səhər tezdən oyanıb
Aləmə səs salırdı.
Toyuqlara nə atsan
Əllərindən alırdı.

Uşaqları görəndə
Yüyürürdü üstünə.
Xırda, bala beçələr
Görünmürdü gözünə.

Banlayırdı, səsindən
Yatanlar oyanırdı.
Çil xoruz bu həyətdə
Özünü şah sanırdı.

SİRKDƏ

Sirkdə bütün heyvanlar
Ağıllı, mehribandı.
Ay ana, bax o halqa
Yenə od tutdu yandı.

İndi şir tullanacaq
O halqanın içindən.
Meymun ləzzət alacaq
Atları minməsindən.

İtlər faytonlarında
Daşıyacaq dovşanı.
Ana, dayan görək bir,
O balaca fil hanı?

Dünən öz anasının
Tutmuşdu quyruğundan.
Balaca şir balası
Yaman qorxurdu ondan.

Ayı çəpik çalırdı,
Fırlanırdı yerində.
Hələ top da tutmuşdu
O böyük əllərində.

Sirkdə bütün heyvanlar
Ağıllı, mehribandı.
Onları ram eyləyən
Yenə böyük insandı.

PİŞİKLƏ SİÇAN

Bir pişik oynadırdı
Balaca bir siçanı.
Onların bu oyunu
Qorxutmuşdu toplanı.

Öz kiçik yuvasında
Əyilirdi, qalxırdı.
Onların oyununa
Gizli-gizli baxırdı.

Birdən siçan qaçaraq
Girdi öz yuvasına.
Pişiyin bu oyunu
Bitdi, yetişdi sona.

TƏYYARƏÇİ QIZ

Baba təyyarə aldı
Bir gün gözəl Gülaya.
Dedi:- baba, bununla
Uçacağam mən Aya.

Bir az gəzib-dolanıb,
Qayıdacağam yenə.
Bir ulduz gətirəcəm
Hədiyyə verəm sənə.

Baba dedi: - qızım, sən,
Məgər məndən küsmüsən?
Məni tənha buraxıb
Uçub Aya gedirsən.

QARANQUŞ

Kənddə eyvanımızda
Yuva qurub qaranquş.
Nənəm deyir dəyməyin
Eyləyər sizə qarğış.

Növbə ilə gəlirlər,
Baş çəkirlər yuvaya.
Biri yemək gətirir,
Biri qalxır havaya.

Ana böyük sevinclə
Yedizdirir onları.
Qanadları qısadı,
Dimdikləri sapsarı.

Bir də gördün anası
Uçmaq öyrədir ona.
Balaca uçub qonur
Ağacın budağına.

Hər il bahar gələndə
Təzə yuva qururlar.
Yenə eyvanımızda
Bizə qonaq olurlar.

AĞILLI QIZ

Gecə yatmazdan əvvəl
Gedib dişini yudu.
Tez gəlib nənəsinin
Qucağında oturdu.

Dedi: - nənə, yatıram,
Yenə nağıl de mənə.
Keçi gəlib süd versin
Öz şirin körpəsinə.

Canavar qamışlıqda
Gözləsin öz ovunu.
Balıqçı da dənizə
Atsın öz tilovunu.

Cırtdana qoy nənəsi
Yağlı qoğal bişirsin.
Nənə:- qoyma quzunu
O boz canavar yesin.

Ağıllı qız bunları
Deyib qurtaran zaman
Nənə ləzzət alırdı
Onun mışıltısından.

ÇİÇƏYƏ DƏYMƏ, GÜLÜM

Çiçəyə dəymə, gülüm,
Ləçəkləri tökülər.
Görürsən onlar necə
Gözəl, rəngbərəngdilər.

Qızıl gülün tikanı
Batar əlinə, dayan.
Üzünə şeh çilənər
Lalənin yanağından.

Bənövşə də boynunu
Əyib qalıb nə vaxtdı.
Onu bir az qısnasan
Durub ağlayacaqdı.

Odur, bax çəmənlikdə
Təzə açır çiçəklər.
Bir azdan oxşayacaq
Onları kəpənəklər.

Bu çiçək dənizində
Hər şey gözəl bir əsər.
Balam, sən də gözəlsən,
İnan, çiçəklər qədər.

KƏNDİ ÇOX SEVİRƏM

Yayda kəndə gedirəm
Orda çox dostlarım var.
Onlar həm yaşıdımdı,
İgid və qoçaqdılar.

Kənddə nənə-babamın
Çatıram köməyinə.
Onlarla ot yığıram
Babamın inəyinə.

Həyətdə toyuqlara
Dən verirəm nənəmlə.
Samovarı salıram,
Çay içirəm əmimlə.

Bağçadakı meyvənin
Sayı yox, hesabı yox.
Gözləyirəm yay gələ,
Kəndi çox sevirəm, çox.

TÜLKÜ

Kənddə toyuq-cücəni
Salıbdı vəlvələyə.
Nə qədər çalışırlar,
Salammırlar tələyə.

Heç kim baş açа bilmir
Tülkünün kələyindən.
Toyuqlar qorxusundan
Çıxmaq istəmir hindən.

Bir də gördün üç-dörd gün,
İtib-batır hardasa.
Elə ki kəndə gəlir,
Toyuqlar batır yasa.

AĞACDƏLƏN

Yenə ağacdələnin
Səsi düşüb meşəyə.
Hər yerə hay-küy salıb,
Bir qurd yeyəcək deyə.

Dimdikləyir ağacın
Budağını durmadan.
Elə bil hayıf alır
Qurumuş o budaqdan.

Onun uzun dimdiyi
İti neştər kimidi.
O, adi bir quş deyil,
Meşənin həkimidi.

DAHA NAĞILLARA İNANMIRAM MƏN

Nağılı danışır hərə bir cürə,
Nağıl geçmişlərin yadigarıdı.
Nağıl var divləri qaldırar göyə,
Nağıl var hədəfi qoca qarıdı.

Nağıl var şahların taxtı-tacını,
Bir anda kül edib üfürər göyə.
Nağıl var Allahın adi acını,
Şah edib qaldırar uca göylərə.

Nağıl var nakəslər at oynadarlar,
Kasıblar-kusublar qalar qıraqda.
Nağıl var gədanı vəzir qoyarlar,
Xalqı diri-diri çatar ocaqda.

Nağıl var quşların qanadlarında,
İnsan illər boyu yol gedib-gələr.
Nağıl var ağacın budaqlarından,
Adi yarpaq deyil, qızıl tökülər.

Daha nağıllara inanmıram mən,
Daha taleyimin keçib o vaxtı.
Nəsə gözləmirəm nağıl deyəndən,
O da köhnə nağıl danışacaqdır.

MƏNİM NAĞILIM

Kirpiklərim gecənin qaranlığında gizllənib
əl edir gözlərimə,
Ürəyimdə nə vaxtdır dərd göyərib
vüsal yerinə.
Nağıllara dönüb
kecən günümün hər saatı,
Alıb belinə gəzdirir məni
dünyanın köhlən atı.
Məlikməmmədin nağılında olduğu kimi
Ağ atı, Qara atı.
Qara atın belində gəzirəm,
atmır məni qaranlıq dünyaya,
Divləri öldürdükdən sonra
diksinəm bu xülyaya.
Gözləyirəm alma yetişsin,
Şahın yeyib cavan olacağı alma.
Mən də yeyim o almadan
inanım o röyaya.
Yetişmir alma,
gah kulək aparır, gah, nə bilim nə
Mən isə qorxulu yuxular görürəm
alma yerinə.
Catır nağılın sonu,
bir azdan Simurq quşu gələcək.
Yarımcıq arzularım
mənimlə birlikdə bir nagıla donəcək.
Yox, istəmirəm o almanı,
yorulmuşam yatmaq istəyirəm,
Bu dünyada cata bilmədiyim arzularıma
o dünyada catmaq istəyirəm.

QOCALMIŞAM

Tutacağam günəş kimi
Sənin gözəl əllərini.
Deyəcəyəm sənə çoxdan
Demədiyim sözlərimi.

Elə bilmə sənsiz olub,
Bu illəri tək qalmışam.
Həsrətinlə tənha qalıb
Saclarıma dən salmışam,
Qocalmışam.

Gözlərimdə sənli keçən
Günlərimin izi qalıb.
Sən gördüyün baxışlarım,
Duruşlarım tam qocalıb.

Ömrüm dönüb, ağac üstə,
Saralmış bir tək yarpağa.
Gəl, əzizim, görüm səni
Gömülməmiş bu torpağa.

QOCALAR

Danışanda cavanlıqdan söz salar,
Deyər, gülər, fikrə dalar qocalar.
Ürəyində neçə arzu-xəyallar,
Keçmişlərdən söhbət salar qocalar.

Asta-asta, şirin-şirin danışar,
Xəyalında oba aşar, el aşar.
Bütün günü bağ-bağçada dolaşar,
Ötən günü, ayı sanar qocalar.

Övladları nazlarını çəkəndə,
Yadlarına xoş günləri düşəndə,
Biri bir gün bu dünyadan köçəndə
Ölümünü yada salar qocalar.

QOCALIRAM DEYƏSƏN

Zirvəsini duman örtmüş bir dağam,
Gül çiçəyi xəzan olmuş bir bağam,
Sönmək üçün su səpilən ocağam,
Daha məni qucaqlamır göy çəmən
Yavaş-yavaş qocalıram deyəsən.

Dizdə taqət,gözdə işıq azalıb.
Ümidlərim arzularım sozalıb.
Altmışdayam, yetmişimə nə qalıb
Büdrəyəndə hay umuram küləkdən,
Yavaş-yavaş qocalıram deyəsən.

Dost tanışlı cərgələrim seyrəlir
Bahar gedib, payız gəlir qış gəlir
Ürək indi rahatlanır,dincəlir.
Hər addımda imdad umur fələkdən,
Yavaş-yavaş qocalıram deyəsən.

Bu günümdən sabahıma gümanlar
Ümidimə sığal çəkir yağış-qar
Yarımçıqdır, bitməyibdir arzular.
Xatirələr soraq verir keçmişdən,
Yavaş-yavaş qocalıram deyəsən.

Boş kecməyib yaşadığım o illər,
Vicdanıma qoymamışam girə şər,
Eşq üstündə qurulubdur bu bəşər.
O qız hələ silinməyib qəlbimdən,
Yavaş-yavaş qocalıram deyəsən.

Həyat dəniz, mən yelkənsiz bir gəmi,
Ötən günlər bu qəlbimin həmdəmi,
Bu dünyanın həm zili var, həm bəmi.
Gərəkdir ki hər üzünə dözəsən
Yavaş-yavaş qocalıram deyəsən.

Mən Ramizəm yüz əzabdan keçmişəm
Bu həyatda qovrulmuşam, bişmişəm.
Var dövlət yox, insanlığı seçmişəm.
Varlığımı duyğularla bölüb tən,
Yavaş-yavaş qocalıram deyəsən.
Yavaş-yavaş qocalıram deyəsən.

KAŞ ARZULAR QƏDƏR ÖMRÜM OLAYDI

Bir tale yüküdür ömrün hər anı,
Ünvana çatmağa hələ az qalır.
Boş yerə xərclədik günü, zamanı,
Hər dağda, aranda bir oba salıb.
İllərsə ömürdə günləri saydı
Kaş arzular qədər ömürüm olaydı…

Bir sirli dastandı sonu bilinməz,
Hər gün pöhrələyib gül açar təzə.
Arzular lal olar, danışmaz, dinməz,
Hər gün sevinc, fərəh bəxş edər bizə
Qış gəlib çıxmamış görərik yaydı
Kaş arzular qədər ömrüm olaydı.

Bir arzu, min arzu bitib tükənməz,
Qismət arzuları geyər əyninə.
Arzular heç qorxu, qadağa bilməz,
Hər gün məhv olduqca doğular yenə.
Arzular ürəkdən gələn haraydı,
Kaş arzular qədər ömrüm olaydı,
Kaş arzular qədər ömrüm olaydı.

SÖZ

Danışanda elə din
Söz xəcalət çəkməsin.
Hərzə- hərzə danışıb
Özünü atma çölə.
Dostu düşmən eyləmə
Yüz qramlıq dilinlə.
Sözlərin naz qəmzəsi
Çaş-baş salmasın səni.
Layiq olmayanlara
Demə şirin kəlməni.

Yaltaqların dilində
Əriyir, sınır sözlər.
İnan xəçalət çəkir
Yazıq dilsiz kəlmələr.
Hər məclisdə sözlərə
Ədəb-ərkan ver, danış.
Aqil sözünü kəsmə
Sözünü qurtarmamış.
Kişilərin dilində
Sözlər kəsərli olur.
Söz də çiçək kimidir,
O da saralır, solur.

DEYƏSƏN QƏLBİMDƏ ATƏŞ AZALIB

Ayları ayların üstünə yığıb,
Bir çələng hörmüşəm özumə ildən.
Üstümə ayrılıq yağışı yağıb,
Yenə taleyimdən küsməmişəm mən.

Nağıla bələnmiş ömrün günləri,
Haraylı keçibdir, haylı keçibdir.
Könlümdə həsrətin dərdi-kədəri,
Əllərim özümə kəfən biçibdir.

Dözmüşəm bu yolda hər dərdə-sərə,
Yanmışam, ocaqda közlərim qalıb.
Ömrümü vermişəm otən illərə,
Onunçün qəlbimdə atəş azalıb.

QONAQ GƏL

Səsin gözəl gəlir, avazın gözəl,
Səni tanıyıram telefonda hələ.
Bir gün Naxçıvana bizə, qonaq gəl,
Yatmış ürəyimə düşsün vəlvələ.

Baxım gözlərinə, baxım hüsnünə,
İtim gözlərinin giləsində mən.
Min şükür eyləyim sən gələn günə,
Görüm ay gözəldir, ya sən gözəlsən?

Məhəbbət əsiri dəlidi könlüm,
Məni alışdırma özünə belə.
Ay mənim əzizim, sevgilim, gülüm,
Sənə çox şerlər yazaçam hələ.

MƏN NEYLƏRƏM ÖLÜM GƏLSƏ

Ölüm adlı bir məkana,
Neçə ildir yol gəlirəm.
Yollarımın yoxuşları
Enişindən çox olubdur.
Qaya görüb gölgəsində,
Nəfəs dərib dincəlirəm.
Axı mənim bu ürəyim
Məhəbbətdən yorulubdur.
Bir gün dönsə zaman tərsə
Mən neylərim ölüm gəlsə?

Kişi kimi yaşamışam
Bu həyatı kişi kimi.
Mən özümdən yüksəklərdə
Görməmişəm heç bir kimi.
Əqidəmi, amalımı
Əyməmişəm heç bir kəsə.
Sözlərimi söyləmişəm
Hədəfinə bir nəfəsə.
Alnımdakı qırışlarım
Ötənlərdən xəbər verib,
Bəzən özüm diksinmişəm,
İçimdən bu gələn səsə.
Mən neylərəm ölüm gəlsə?
Men neylərəm ölüm gelsə?

DƏRDİM ÇOXDU ÜSTÜMÜ ÖRT

Dərdim çoxdu, üstümü ört,
Dərd üstünə dərd tökülər.
Zaman belə gəlib qağa,
Dövran sürür boz sərçələr.

Haqqı nahaq basıb əzir,
Qız-gəlinlər qalıb əsir.
Çox şeylər var hələ də sir,
Tapanacan bel bükülər.

Gəl qınama sən dövranı,
Sabir, Cəlil, Cavid hanı?
Ört üstünə sən yorqanı-
İlməsi qaçar, sökülər.

Biri vardı, biri yoxdu,
Olmayan olandan çoxdu.
Bu gün qarnın bir az toxdu-
Sabah qazanın tökülər.

Mən nə yazım bu çox dərdə,
Qoy durum durduğum yerdə.
Əsər qalmayıb sözlərdə,
Çoxu baxıb mənə gülər.

XOŞBƏXT OLASAN

(Qızıma)

Evimizin gərəyiydin,
Arzusuydun, diləyiydin.
Vaxt yetişdi oldun gəlin,
Get, səni xoşbəxt olasan.

Məhəbbət, sevginin sonu,
Əynində gəlinlik donu.
Çoxdan gözləyirdik bunu,
Get, səni xoşbəxt olasan.

Çıxdın gəlinlik taxtına,
Çox yaraşır sənə xına.
Çatasan hər bir arzuna,
Get, səni xoşbəxt olasan.

Ramiz deyər gül gülündür,
Bu gün xoşbəxt, şad günündür.
Sevgin sevgiyə büründü,
Get, səni xoşbəxt olasan.

DİLƏNÇİ

Gəlib otursan hər gün bu tində,
Utana-utana pul dilənirsən.
Bir əlin havada, biri cibində,
Hamı elə bilir dilənçisən sən.

Üzündən-gözündən kübarlıq yağır,
Sınıb, əyilirsən tanış görəndə.
Kimsə pul uzatsa sən fağır-fağır
Alıb otursan yenə yerində.

Sən də pay verirsən kiməsə yəqin,
Aldığın pulları tez-tez sayırsan.
Gənclik çağlarında sən nə biləydin,
Dilənçi olarsan, fəqir olarsan.

TƏNHALAŞMIŞ AĞACLARIN QƏFİL SINMAQ QORXUSU VAR

Dünya yaman çönub dağa,
İtibdir vəfa, etibar.
Böyük saraylar yerində
Qalıbdır bir ucuq divar.
Çox evlərin qapısında,
Çürüyübdür qıfıl – açar.
Ömür boyu əzab çəkib
Təkliyindən çox insanlar.
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.

Bir ağacdır əyilibdir,
Bar verməkdən min budağı.
Ağaclar da sevinirlər
Sıx olanda solu-sağı.
Gülə hər vaxt yaraşıqdır
Yanındakı öz yarpağı.
Ömrü boyu əzab çəkib
Təkliyindən çox insanlar.
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.

İnsan ömrü bir çiçəkdir,
Vaxt çatanda solub gedir.
Həyat belə qurulubdur,
Yüz illər, min qərinədir.
Güclü yağış yağan zaman,
Köhnə izlər batır, itir.

Dərələrə həyan olur
Hər vaxt uca, böyük dağlar.
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.

Bir həyatdı verilibdir,
Bizdə belə yaşayırıq.
Çiynimizdə övlad yükü,
Nəvə yükü daşıyırıq.
Ömrümüzün o dünyaya
Gedən yolu çatıb artıq.
Qismətimiz olacaqdır
Bu həyatdan boş bir məzar.
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.

İnsanlar da tək olanda
Ağac kimi tənhalaşır.
Öz məhəbbət dünyasından
Ayrı düşür, uzaqlaşır.
Hər gün axşam olan zaman
Tənhalıqla qucaqlaşır.
Ömrün gözəl günlərini
Arxasınca çəkər qatar,
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.
Tənhalaşmış ağacların
Qəfil sınmaq qorxusu var.

SÖZ VERMƏ NAŞIYA

Niyə söz verirsən naşıya, qardaş,
Gözləri yumulsun, ağzı açılsın.
Şirin dilimizin gözəl sözləri
Bir naşı əlində əyilsin, sınsın.

Niyə söz verirsən naşıya, qardaş,
Ədayla sözlərin qırsın belini.
Onun söylədiyi mənasız sözlər
Yerindən qoparsın məzhəbi, dini.

Niyə söz verirsən naşıya, qardaş,
Misralar üşüsün onun dilində.
Bilirsən onlara söz verən zaman
Xətrinə dəyirsən sən sözlərin də.

Sərraf məclisində naşıya söz yox,
Hər vaxt zər qədrini zərgərlər bilər.
Elə adamlara sən söz vermə çox,
Onlar söz ustası arif deyillər.

MƏNSUR ŞEİRLƏR

Taleyimin hicran yükü ürəyimdən asılıbdı,
Sən gedəli sənsiz eşqim əzilibdi, sıxılıbdı, harda qaldın...
Gözlərinin həsrətinə dözə-dözə yaşadım mən,
Pay ummadım bir özgədən, bir kimsədən, harda qaldın.

Bəs deyirdin məni heç vaxt unutmazsan. Durub səni gözləməkdən göz yaşımı kirpiklərim gizlətdilər. Mənlə yaşıd olanlara mağar qurub toy etdilər, harda qaldın? Bu qədərmi insafsızmış səni məndən alan zaman. Əsdi payız küləkləri, illər gəlib keçdi bir-bir. Gəl, əzizim, geri qayıt, gəl sən məni bir sevindir. Sən gəlməsən mən neynirəm bu həyatda yaşamağı. Sən gəlməsən inan mənə bir dəfəlik könül verib sevəcəm qara torpağı. Qayıt, gülüm, qayıt yenə gəl yanıma. Qayıt gəl ki, son qoyulsun hicranına.

* * *

Niyə gəlməyirsən, gülüm? Yoxsa unutmusan məni? Yoxsa keçən aylar-günlər sənə unutdurub məni? Axı səni gözləyirəm, ümidimi qırma belə, sənlə keçən günlərimi xəzan vurmuş yarpaq kimi vermə yelə. Bir vaxt məni gözləyəndə deyərdin ki, gözləməkdən pis şey yoxdur. Axı mən də gözləyirəm, axı mən də sənin kimi ayrılığa dözməyirəm. Bəlkə məni bir dəfəlik unutmusan. Yox, unutma, bir az dayan. Eşqin hələ gül açmamış bir ləçəkdi. Hamı mənə söyləyir ki, gözlə heç vaxt darıxma sən. O, tezliklə gələcəkdir. Günlər keçir, həftə olur gəlməyirsən, çiçək açmış güllər solur gəlməyirsən.

Ümidimi həsrətinlə boğursan sən. Öz eşqinin ünvanından. Məni keçən günlər kimi qovursan sən. Mənsə durub gözləyirəm günəş çıxır batır sənsiz. Ay da gedib ünvanına şirin-şirin yatır sənsiz. Mən səni gözləyirəm, gecə kimi, gündüz kimi! Sənsiz gəlməz olduğunu bilən zaman danlayıram öz eşqimi, öz sevgimi...

ALMA AĞACI

Bu alma ağacı həmin ağacdı,
Çoxlu çiçək açıb bar gətirərdi.
Onu bir evin yox, bütün məhlənin,
Dəcəl uşaqları dərib yeyərdi.

Bu alma ağacı həmin ağacdı,
Bir az böyüyübdür qol, qanadları.
Qonşu uşaqları görünmür gözə,
Çoxunun yadından çıxıb adları.

Bu alma ağacı həmin ağacdı,
Zaman qocalıbdır bizləri yaman.
Çağırdım səsimə heç kəs çıxmadı,
Deyəsən beziblər alma yığmaqdan.

Bu alma ağacı həmin ağacdır.
Özgə uşaqlardı onu daşlayan
Yenə təbiətdə bahardır, yazdır,
Bizlərik almaya əli çatmayan.

DAĞLAR

Başı qar, sinəsi gül-çiçəkli dağ,
Necə qürurlusan, necə mətinsən
Bir azdan başını duman alacaq.
Utancaq gəlintək gizlənəcəksən.

Üşüyən çiçəklər büzüşəcəkdir,
Çəkilib qalacaq otların üstə
Bir azdan çəmənə şeh düşəcəkdir
Çaylar boğulacaq harayda, səsdə.

İgid çobanların hay haray səsi,
Yorğun çobanları oyadacaqdır.
Qoyun quzuların hey mələşməsi
Dağlara daşlara qıy vuracaqdır.

Oba oyanacaq sübh yuxusundan
Sağmal qoyunlar da sağılacqdır
Yaxında gizlənən qurd qorxusundan,
Bir anda gizlənib yox olacaqdır.

Ocaqlar yanacaq tüstülənəcək,
Yeni oba günü başlayacaqdır.
Qızlar bulaq üstə suya gələcək,
Gecə yuxusundan danışacaqdı.

Ərlər atlanacaq çıxacaq çölə,
Kərənti çalacaq ot yığacaqdır.
Qızlar gözaltısı tez dönsün deyə
Yollara baxmaqdan darıxacaqdır.

Bir də görəsən ki, yetişdi payız,
Lalənin, nərgizin saraldı üzü.
Gülləri görəndə belə ləçəksiz,
Dolacaq dağların ağlamaz gözü.

Oba çadırları söküləcəkdir,
Bulaqlar göz yaşı axıdacaqlar
Adamlar dağlarla öpüşəcəkdir
Gələn bahara tək ayrılacaqlar.

PİLLƏLƏR

Pillələr qurtarır bu da sonuncu,
Bu da yetişdiyim ən uca məkan.
Əlimdən çıxıbdı kələfin ucu
Çıxdığım zirvədən qayıdammıram.

Qınayır yanımdan keçənlər məni,
Gəldiyim yollara dikilir gözüm.
Bir vaxt vəsf edərdim çölü, çəməni,
İndi danışmağa qurtarıb sözüm.

Yenməyə ürəyim gəlmir zirvədən,
Yüyürüb çıxdığım yol yorulubdur.
Ayağım altından qaçır pilləkən,
Hər addım qarşımda hicran olubdur.

Mən əkdiyim güllər indi solubdu,
Yoxluğa çəkilib yox olub onlar.
Çox da tələsməyin pillə çıxmağa,
O yolun geriyə qayıtmağı var.

QALIR

Qaldıra bilmirəm tale yükünü,
İllərin əzabı qalıb canımda.
İnsanlar bilsəydi öldüyü günü
Hər işi görərdi öz zamanında.

Qəribə dünyada qəribə işlər,
Hərənin alnında bir yazısı var.
Uzaqdan gələnə qərib deyirlər,
Onda qəriblərdən, qəribdir dağlar.

Zamanın sahibi dünyanın özü,
Baharda gül açır, qışda sozalır.
Tale dəyişdirir üz-gözümüzü,
Bizə cavanlıqla qocalıq qalır.

DEMƏ NİYƏ DOĞULMUŞUQ

Rasim müəllimə

Tək Allahın hökmü ilə
Doğulur bütün insanlar.
Hər bir gizli möcüzədə
Ay dostum, bir həqiqət var.

İnsan əgər doğulmasa,
Bu dünyanın bəzəyinə
Kimlər naxış vurub gedər
Kainata, yer üzünə.

Həvva ilə tək Adəmin
Yaratdığı bu dünyada.
Əcdadımız səcdə edib
Gah günəşə, gah da oda.

Sorma niyə doğulmuşuq,
Nədən ötrü yaşayırıq?
Çiynimizdə torpaq yükü,
Övlad yükü daşıyırıq.

PAXILLAR

Həyat yaşadıqca, zaman durduqca,
Onların gözündən kədər, qəm yağar,
Qarnını eyləyib bir qara boxça,
Hər şeyi qarnına yığar, paxıllar.

Biri ucalanda əriyər, itər,
Deyər ki, tor qurum ona bir təhər.
Özü öz içini daraşıb yeyər,
Daim tənhalıqda qalar, paxıllar.

Heç nədən, heç kimdən xoşları gəlməz,
Baxarsan üzünə, danışıb dinməz.
Özü ulağa da arpa bölənməz-
Özgədə adicə söz axtarar, paxıllar.

İstəyər gizlətsin öz çirkabını,
Qoymasın ortaya çirkli qabını.
Elə ki, çıxartdı oz niqabını,
Yaxına, uzağa qara yaxar, paxıllar.

Zaman daşdan-daşa çırpar onları,
Cırılar əynində, qalmaz donları.
Amandı, qoymayın bu nadanları
Aramızda nifaq salar, paxıllar.

Yaxşı ki, onların sayı çox azdır,
Xisləti, avazı köhnə avazdır,
Ramiz də bu şeri onunçün yazdı,
Həmişə arxada, dalda qalar, paxıllar.

DEMƏ Kİ, AYDA BİR YOL GEDƏNMİRƏM BAZARA

Kasıbsan get başını aşağı sal dolan gəz,
Sənə yeyilən paydan heç kim pay bölə bilməz.
Get işində ol bala tap özündə bir həvəs,
Bir də özünü salma bu dərdə, bu azara.
Demə ki , ayda bir yol gedənmirəm bazara.

Çoxdaki burnun almır balın, yağın ətrini,
Get bir təhər tap ye sən penirini ,qəndini.
O yan bu yan eyləsən vallah döyərlər səni.
Deyərlər ki, ay yazıq kasıb hara yağ hara,
Demə ki, ayda bir yol gedənmirəm bazara.

Uşaqların başmağı yoxdu olsun dözərlər,
Kasıb uşaqlarıdır ayaqyalın gəzərlər.
Çox darıxma bir azdan hər şey artar, düzələr
Bilirsən ki həyatda əl çirkidir pul, para.
Demə ki ,ayda bir yol gedənmirəm bazara.

Ət insanı qocaldır tamahını çək ətdən,
Kartof ye ay qardaşım axı əti neynirsən?
Təzyiqin qalxar əgər.bircə qaşıq bal yesən,
Penir ye səhər axşam bax əlində qabara,
Demə ki, ayda bir yol gedənmirəm bazara.

Tükanlar borc verirlər get unu al, bişir, ye,
Yeyəndən sonra durub arvadına sağ ol de.
Zərin yek düşəcəkdir gözləmə ya şey, ya se,
Get sən tək adam coxdu çoxu qalıb avara.
Demə ki, ayda bir yol gedənmirəm bazara.

Deyəndə ki, iş yoxdur səhv eyləyirsən yaman,
Çoxunun səsi gəlir Türkiyədən, İrandandan.
Darıxma qum göyərsin düzələcək bu dövran
Sən də onda bəzənib çıxacaqsan yollara.
Demə ki , ayda bir yol gedənmirəm bazara.

Bu dünyanın işidir çoxu ac, azı toxdur,
Boş yerə söz söyləmə heç bir faydası yoxdur.
Bu dəqiqə dünyamızda qırğındı, soxa-soxdur
Ölünü də heç pulsuz buraxmırlar məzara.
Demə ki, ayda bir yol gedənmirəm bazara.

Hər şey yaxşı olacaq, düzələcək deyirlər,
Kasıba çatan pulu bölüşdürüb yeyirlər.
Sən də on min alarsan ,deputat olsan əgər.
Biz kasıbların günü dönüb olub qap-qara
Demə ki ,ayda bir yol gedənmirəm bazara.

Uşaqlar dərs oxumur restoranda pul gəzir,
Onun bunun üzünə baxırlar fəqir- fəqir .
Bir vaxt deyərdik gənclər xalqın gələcəyidir.
Oxuyanlar küçədə indi qalıb avara.
Demə ki ,ayda bir yol gedənmirəm bazara.

Sabir yazıq ha dedi çatmadılar dadına,
Hər şey gec gəlib çatır bu vətən övladına.
Ramizəm bunu yazdım məni töhmətlə, qına
Görək kimsə gələcək mən çəkdiyim havara,
Demə ki, ayda bir yol gedənmirəm bazara.
Demə ki ,ayda bir yol gedənmirəm bazara.

22.11.2024.

BU GECƏ

Gecəni üstümə yorğan tək örtüb,
Ulduzu köksümə sıxıb yatıram.
Ayın işığının sehrinə düşüb,
İtmiş gümanlara gedib catıram.

Buludu götürüb çiyinlərimə,
Ayı çəlik kimi alıram ələ.
O dan ulduzunun şəfəqləriylə,
Mən öz düz yolumu gedirəm hələ.

Külək daradıqca ağ saçlarımı.
Umidim gümana qatışıb itir.
Son vaxtlar gördüyüm yuxularımın,
Hamısı mənasız sonluqla bitir.

Göydə tapanmıram karvanqıranı,
Karvanım dərədə-təpədə azır.
Gözüm görə-görə hər keçən günüm,
Mənə əbədilik bir məzar qazır.

Yoxsa talehimin sonumu çatıb,
Hər şey gözlərimdə dönür bir heçə.
Ötən günlərimə bir kəmənd atıb,
O ilk məhəbbəti tutdum bu gecə.
O ilk məhəbbəti tutdum bu gecə.

01.12.2022.

ÖZÜN GÜNAHKARSAN

Özün günahkarsan bu olanlara,
Niyə ağlayırsan dalımca belə.
Soyuq qış gətirdin güllü bahara,
Hər şeyi yox etdin öz əllərinlə.

Ağlama göz yaşın isladar məni,
Sənin həsrətinlə yandığım bəsdi.
Çox çəkdim məhəbbət, sevgi dərdini,
Gördüm ki olanlar boşdu, əbəsdir.

Özün günahkarsan bu olanlara,
Qəlbimdən silinib gedəcək izin.
Ağlama göz yaşın axıb tökülər,
Dəyişər rəngini çayın, dənizin.

Özün günahkarsan bu olanlara,
Bəsdir ağlamaqla heç bir şey olmaz.
Atalar bu haqda gözəl deyiblər,
Özü yıxılanlar heç vaxt ağlamaz.

27.9.2024.

SEVİRƏM HƏLƏ

Özüm öz ruhuma olmuşam qənim,
Hərdən hislərimə sığal çəkirəm.
Qaraya bulaşıb mənim əllərim,
Özüm öz içimdə bostan əkirəm.

Alıram çiynimə ötən günləri,
Səfil sərgərdan tək çıxıram yola.
Sıxıb ürəyimə gələn səhəri,
Deyirəm sonrası nə ola, ola.

Dərdimi verirəm dağlar götürmür,
Qayalar hayqırır üstümə mənim.
Küləklər içimdə közü üfürür,
Ürəyim boğulur tüstümə mənim.

Yanıram köksümdə oçaq çatılıb,
Bir niskil ocağı, bir dərd ocağı.
O qızın gözləri üzümdə qalıb,
Bir ilk məhəbbətdir tək umacağı.

Bilirəm son catıb öləcəm belə,
Bu istək ruhumda donub qalacaq.
Mən yenə o qızı sevirəm hələ,
Ayrılsam dünyanın sonu olacaq.
Ayrılsam dünyanın sonu olacaq.

29.08.2022.

YALTAQ ADAMLAR

Haqqı, ədaləti ortaya qoymaz
Nə vaxtdan yaltaqlıq sayılır qağa.
Düz söz qılıncdan da kəsərli olur
Çoxları eyibi örtülsün deyə.

Özünü şah sanar, özgəni nökər,
Gizlənər gecənin qaranlığında
Yalqız canavartək leşləri sökər,
Heç nə görməmişəm deyər anında.

Özündən böyüyün küçüyü olar
Kəsər yan, yörədə quyruğu göydə.
Lap yeri gələndə gözləri dolar
Deyər ki, lap məni söyürsən söy də.

Dəymə vəzifəmə, dəymə işimə,
Şərəfim, vicdanım səninki olsun.
Belə bir alçağı vurdum dişimə,
Düşündüm sonrası nə olur olsun.

Tülkü gözlərində hiylə gizlənib
Qarğadan pendiri almağı gəlir.
Üzünə alçaqlıq qarı ələnib
Çirkabda boğulur ancaq bəs demir.

MÜNDƏRİCAT

ÖN SÖZ ... 3
ÖMRÜN PAYIZ ÇAĞINDA ... 6
YAZ DÜŞÜNCƏLƏRİ ... 6
RAMİZ BABYEVİN POEZİYASINDAN ... 14
SÖZ ÇİÇƏKLƏRİNİN ƏTRİ GƏLİR ... 14
VƏRƏQLƏR İÇİNDƏ LƏÇƏK QOXUSU ... 21

Vətən, torpaq, sevgi ... 24

MƏN TÜRKƏM ... 25
ANA DİLİM ... 26
MƏNİM DOĞMA NAXÇIVANIM ... 27
TƏBRİZ GÖZƏLİ ... 28
ÇİÇƏKLƏNƏN NAXÇIVANIM ... 30
VƏTƏN HEYDƏR-HEYDƏR VƏTƏN ... 32
XALQIN XİLASKARI ... 34
XALQIMIN SƏRKƏRDƏSİ ... 36
ƏGƏR BU TORPAĞIN QƏDRİNİ BİLSƏN ... 37
SƏNİN MƏKTUBLARIN ... 38
SEVİRSƏN ... 39
MƏNƏ VƏFASIZ DEMƏ ... 40
GİZLİ GÖRÜŞLƏR ... 41
SƏNİ SEVƏNDƏ ... 42
SƏNİ AXTARIRAM ... 43
SƏN ALLAHIN, ÖRT SİNƏNİ ... 44
MƏNƏ DEMƏ UNUT MƏNİ ... 45
SƏNDƏN SONRA ... 46
HARDAN YADIMA DÜŞDÜN ... 47
MƏN BİR HƏSRƏTƏM ... 48
UNUDACAM SƏNİ MƏN ... 49
SƏNİN DEYİLƏM ... 50
ƏGƏR MƏNİ SEVMƏSƏN ... 51
GETMƏ ... 52

SEVGİ GÜNAHI 53
SƏNSİZ SEVGİM QOCALIBDIR 54
YANIMA QAYIT 55
SƏNİN YOXLUĞUNA İNANANMIRAM 56
İNANAN DEYİLƏM GÖZ YAŞLARINA 57
TELEFON 58
AYRILSAQ ÖLƏRƏM DEMƏ SƏN MƏNƏ 59
BAĞIŞLA MƏNİ 60
QAYIT GƏL 61
BAXIM GÖZÜNƏ 62
GİZLİ GÖRÜŞ 63
SƏNİ GÖZLƏR 64
SEVİRƏM HƏLƏ 65
SEVGİ MƏKTUBU 66
MƏNƏ NAZ EYLƏMƏ AY DƏLİ CEYRAN 67
İTİB 68
NİYƏ ÜRƏYİMƏ DƏYİRDİN MƏNİM 69
SƏNƏ DEYİLƏSİ SÖZLƏRİM ÇOXDU 70
GETSƏN MƏN SƏNİN ÜÇÜN DARIXACAĞAM 71
SARI GƏLİN 72
GÖZLƏRİN KİMƏ BAXSA MƏNİ ORDA GÖRƏCƏKSƏN 73
SEVƏNLƏR MƏKTUBU QƏLBİNƏ YAZIR 74
AYRILIQ GÖZ İLƏ QAŞIN ARASI 75
MƏNSİZ DARIXACAQSAN 76
QALACAQ 77
SON GÖRÜŞ 78
DEYİRSƏN TANIŞ OLAQ 79
GƏL KƏNDİNƏ QAYIT, QARDAŞ 80
QAYIT 81
BAĞIŞLA MƏNI 82
MƏNİM DEYİLSƏN 83
GÖZLƏRİM GÖZLƏRİNƏ QOŞULUB 84
ÇIXIB GETDİ 84

SƏN ALLAH, AĞLAMA, MƏNİ GÖRƏNDƏ 85
SƏNİ GÖRMƏYƏ GƏLMİŞƏM 86
SƏNİ İSTƏMİRƏM, SEVMİRƏM DAHA 87
YAXŞI Kİ, GƏLMƏDİN 88
SƏNLİ XATİRƏLƏRİM 89
NEYNİRƏM BU DÜNYANI SƏN Kİ, MƏNİM DEYİLSƏN 90
MƏNİ SEVDİYİNƏ AZ İŞARƏ VER 91
SƏN GƏTİRMİSƏN 92
AĞLAMA 93
HARDAN SƏN YADIMA DÜŞDÜN BU GECƏ 94
SƏNİ İTİRMƏK 95
SƏNSİZ 97
AYRILIQ 98
O QIZA DEMƏYİN, DƏLİYƏM ONSUZ 99
GƏL QAYIDAQ O GÜNLƏRƏ 100
TƏZƏDƏN SEVMİŞƏM 101
PEŞMANSAN İNDİ 102
HARA APARIRSAN BU GÖZƏLLİYİ 103
MƏHƏBBƏTİN BUDUR BELƏ 105
HƏR İKİMİZƏ 106
YAŞIN NƏ FƏRQİ 107
BU QIZA 108
APAR MƏNİ 109
ÖZÜN GÜNAHKARSAN 110
NAKAM SEVGİ 111
YORULMUŞAM MƏN 112
BU BİR SEVGİ DEYİL 113
SELLƏR SARALARI APARMIR DAHA... 114
BU GÜN, BU GÜN, SƏHƏR, SƏHƏR 115
QƏLƏBƏ SEVİNCİ 116

Xatirələr qanadında..... 117

NAĞIL İMİŞ BU MƏHƏBBƏT..... 118
AYRILIQ GÖZ İLƏ QAŞIN ARASI..... 119
HİCRAN QOCALIB..... 120
XATİRƏLƏRİM..... 121
YORULMUŞAM MƏM..... 122
GƏL ŞƏKLİNİ ÇƏKİM DÜNYA..... 123
GƏLİB ÇIXMADIN..... 125
GÖRÜNÜRSƏN..... 126
SƏNİ AĞLAMAĞA GƏLMƏMİŞƏM MƏN..... 127
GERİYƏ DÖNSƏ..... 129
HEYF O QIZ MƏNƏ QİSMƏT OLMADI..... 130
HEYF SƏNLİ O GÜNLƏRƏ..... 131
KEÇMİŞƏ QAYIDA BİLSƏM..... 132
GƏTİRMƏZ SƏNİ..... 133
QAYTAR..... 134
MƏKTUBLARIN..... 136
HARDAN BILƏSƏN..... 137
YANINA DÖNƏRDİM YENƏ..... 138
AXTARIR SƏNİ..... 139
ƏSİL MƏHƏBBƏTİN DEYİLƏM SƏNİN..... 140
SƏNİ TAPARAM..... 141
MƏNDƏN SONRA..... 142
QAYITMA BİR DƏ..... 143
TEZ QAYIT..... 144
ÖLDÜRƏCƏK MƏNİ..... 145
SƏN QAYITMADIN..... 146
ÜRƏYİMDƏN DAŞ ASILIB..... 147
BU GÜN ƏN KƏDƏRLI GÜNÜMDÜR MƏNIM..... 148
UŞAQLIQ ÇAĞIM..... 149
BİR ARZU ÇAĞLADI QƏLBİMDƏ MƏNİM..... 150
TANIMADIM..... 151

FİKİRLƏR 153
DEYƏ BİLMƏDİM 154
YERİN GÖRÜNÜR 155
GƏL BAĞIŞLA, GÜLÜM MƏNI 156
KAŞ MƏN ÖLƏYDİM 157
DAHA MƏN ƏVVƏLKİ O MƏN 158
DEYİLƏM 158
XATİRƏLƏR 159
SƏNSİZ 160
SƏNİN MƏHƏBBƏTİNDİR 161
GƏLİB ÇIXMADIN 162
SON İMTAHANDA 163
MƏKTƏB İLLƏRİ 164
MİNA XALA 166
YARIMÇIQ MAHNI 167

Təbiət lövhələri 169

BU NECƏ YAĞIŞDIR BELƏ 170
BATABATA GƏLMİSƏN 171
YURDUMA BAHAR GƏLİR 173
PAYIZDA 174
ƏLİNCƏ CAYI 175
YAĞIŞIN ŞƏKİLLƏRİ 176
YAĞIŞDAN MƏHƏBBƏT ƏTİRİ GƏLİR 177
BAHAR 178
DAĞLAR YENƏ TOY LİBASI GEYİNİB 179
YAĞIŞ YAĞANDA 180
YAĞIŞ 181
DƏNİZ 182
PAYIZDA 183
GERİYƏ QAYIDIR DURNA QATARI 184

Dünya və mən..... 185

DÜNYA..... 186
DEYİRLƏR DÜNYANIN AXIRI ÇATIB 187
DÜNYA BİR PƏNCƏRƏDİ..... 188
DÜNYA MƏNLƏ İŞİN YOXDU..... 189
HARA GEDİR BU DÜNYA..... 190
DÜNYA HƏMİN DÜNYA DEYİL..... 192
DÜNYA..... 193
NEYNİRƏM BU DÜNYANI 194
NƏVƏM SƏMAYA..... 195
QƏRİBLİK..... 197
QAYIT GƏL 198
MƏMMƏD ASLANA..... 199
TUT AĞACI..... 201
NƏ TEZ QOCALMISAN QARDAŞ..... 202
MƏMMƏD ARAZA..... 203
ƏZİZ VƏ HÖRMƏTLİ MÜƏLLİMİM, DƏRƏƏLƏYƏZ MAHALIMIZIN AĞSAQQALLARINDAN BİRİ..... 205
ZƏHMƏT MÜƏLLİMƏ..... 205
DƏRƏƏLƏYƏZ MAHALININ AĞSAQQALI HÖRMƏTLİ HƏSƏN MİRZƏYƏ..... 207
İTHAF OLUNUR..... 207
MƏN RAMİZ RÖVŞƏN DEYİLƏM..... 209
ÖZÜMÜZ BİLMƏDƏN YAŞ GƏLDİ KEÇDİ..... 210
TƏBRİZİM..... 211
AYRILIĞIN YOLLARI..... 212
ÖMRÜMÜN AXIRI YETIB DEYƏSƏN..... 213
YALTAQ ADAMLAR 214
TÖKÜLƏR..... 215
DƏYMƏ..... 216
ANA 217
NƏNƏLİ GÜNLƏRİM 218

ÖVLADLARIMA 220
NƏVƏM İNCİYƏ 221
MƏN ŞEİR YAZANDA ŞAİR OLURAM 222
ANALI GÜNLƏRİM 223
ÖLMƏZ ŞƏHİDLƏR 224
TƏNHA QADIN 225
BİLMİRƏM 226
HEÇ KƏSİN XƏBƏRİ YOXDU 227
OXU 228
ÖMÜR KARVANI 229
HARA ƏYİLİRSƏN ZALIM BALASI? 230
SƏN GÖRƏN KİŞİLƏR AZALIB, QAĞA 232
BİR AĞ TAPIB GƏTİRİN SİZ 234
MƏN ƏYNİMƏ KƏFƏN GEYİM 234
MƏNİ O YERLƏRƏ QAYTAR AY ALLAH 236
HƏR PAPAQ QOYANA KİŞİ 237
DEMƏZLƏR 237
KOSA BİR SAQQAL QOYUB 239

Təmsillər 241

TƏMSİLLƏR 242
TƏMSİL 246
KİRPİ 248
RƏVAYƏT 250
RƏVAYƏT 252
HEYDƏR BABA 255
ANAMA 256
BULAĞIN NAĞILI 257
BABANIN NAĞILI 259
QUŞLARIN DOSTU 261
DƏNİZDƏ ÇİMƏN AY 262
BEŞ ALAN QIZ 263
QURBAĞALAR 264

BALACA KİRPİ 265
ÖRDƏK 266
BAHARDA 267
TISBAĞA 268
MƏKTƏBƏ GEDƏCƏYƏM 269
KEÇİNİN BALALARI 270
GÜLLƏRİN DOSTU 271
MƏSTAN 272
HÖRÜMÇƏK 273
ŞAXTA BABA VƏ 274
GÜNƏŞ 274
CÜCƏLƏR 275
BAĞÇAYA GEDƏN QIZ 276
ÇİL XORUZ 277
SİRKDƏ 278
PİŞİKLƏ SİÇAN 279
TƏYYARƏÇİ QIZ 280
QARANQUŞ 281
AĞILLI QIZ 282
ÇİÇƏYƏ DƏYMƏ, GÜLÜM 283
KƏNDİ ÇOX SEVİRƏM 284
TÜLKÜ 285
AĞACDƏLƏN 286
MƏNİM NAĞILIM 288
QOCALMIŞAM 289
QOCALAR 290
QOCALIRAM DEYƏSƏN 291
KAŞ ARZULAR QƏDƏR ÖMRÜM OLAYDI 293
SÖZ 294
DEYƏSƏN QƏLBİMDƏ ATƏŞ AZALIB 295
QONAQ GƏL 296
MƏN NEYLƏRƏM ÖLÜM GƏLSƏ 297
DƏRDİM ÇOXDU ÜSTÜMÜ ÖRT 298
XOŞBƏXT OLASAN 299

DİLƏNÇİ 300
TƏNHALAŞMIŞ AĞACLARIN 301
QƏFİL SINMAQ QORXUSU VAR 301
SÖZ VERMƏ NAŞIYA 303
MƏNSUR ŞEİRLƏR 304
ALMA AĞACI 306
DAĞLAR 307
QALIR 310
DEMƏ NİYƏ DOĞULMUŞUQ 311
PAXILLAR 312
DEMƏ Kİ, AYDA BİR YOL GEDƏNMİRƏM 313
BAZARA 313
BU GECƏ 315
ÖZÜN GÜNAHKARSAN 316
SEVİRƏM HƏLƏ 317
YALTAQ ADAMLAR 318

RAMİZ BABAYEV

Ömrün payız çağında

Kitabən ərsəyə gəlməsində
əməyi olan bütün insanlara
minnətdarlığımı bildirirəm.

Çapa imzalanmış 14.11.2025.
Formatı 64X90 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 20.5 ç.v.
Sifariş № 274. Tiraj 150 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.